# HƏYAT BİLGİSİ

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT



# 4

 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

BAHAR KƏRİMOVA
GÜLƏR MEHDİYEVA

# HƏYAT BİLGİSİ

*4-cü sinif*

**MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin
17.06.2011-ci il tarixli 1133№-li əmri ilə təsdiq edilmişdir.*

ASPOLİQRAF
BAKI–2015

**Kərimova B., Mehdiyeva G.**
**K 56 Həyat bilgisi.** 4-cü sinif. Müəllim üçün metodik vəsait.
Bakı, «Aspoliqraf», 2015, 120 səh.

Müəllif hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir!

© Azərbaycan Respublikası
Təhsil Nazirliyi, 2015

---

***Bahar Əşrəf qızı Kərimova***
***Gülər Ələkbər qızı Mehdiyeva***

«HƏYAT BİLGİSİ»
4-cü sinif
*(Müəllim üçün metodik vəsait)*
Bakı, «Aspoliqraf», 2015.

Redaktoru ***Ülkər Şahmuradova***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Rəssamı ***Gündüz Ağayev***
Kompüter tərtibatçısı ***Səbinə Məmmədova***
Korrektoru ***Natəvan Məmmədova***

Çapa imzalanmışdır 27.02.2015. Kağız formatı 57x82 $^{1}/_{8}$.
Ofset çapı. Ofset kağızı. Məktəb qarnituru.
Fiziki çap vərəqi 15. Uçot nəşr vərəqi 12,8.
Sifariş 7. Tiraj 7900. Pulsuz.

«Aspoliqraf LTD» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., $121^{B}$
e-mail: as_poliqraf@box.az

Dərslik komplektində bütün məzmun standartları reallaşdırılmışdır. Dərslikdə tədris vahidləri iki əsas qrupa bölünmüşdür. Bunlar: «Sənin cəmiyyətdə yerin», «Təbiət və cəmiyyət»dir. Birinci qrupa (Sənin cəmiyyətdə yerin) daxil edilən tədris vahidləri aşağıdakılardır: «Sənin təhsilin», «Sənin hüquqların», «Sənin mənəviyyatın», «Sənin sağlamlığın», «Sənin rahatlığın və təhlükəsizliyin».

İkinci qrupa isə (Təbiət və cəmiyyət) «İnsan təbiəti dəyişir» və «Cəmiyyətin qlobal problemləri» tədris vahidləri daxildir.

İl ərzində tədrisin belə planlaşdırılması nəzərdə tutulmuşdur:

1. Diaqnostik qiymətləndirmə – 1 s.
2. Dərslikdəki 7 tədris vahidi üzrə KSQ – 7 s.
3. BSQ – 2 s.
4. Mövzular – 48 s.
5. İlboyu reallaşdırılacaq 5 layihə-təqdimat – 10 s.

Bu layihə-təqdimatların mövzusu tədris vahidinə başlayarkən müəllim tərəfindən elan edilir. Şagirdlər mövzular üzrə təqdimatlar hazırlayır və tədris vahidinin sonunda təqdim edirlər.

Metodik vəsaitdə dərslikdəki bütün mövzular üçün dərs modelləri verilmişdir. Bu dərs modelləri şərti xarakter daşıyır. Müəllimlər məzmuna uyğun təlim texnologiyalarını seçməkdə və dərsi qurmaqda sərbəstdirlər.

Məzmun standartlarının mənimsənilməsi istiqamətində müxtəlif qiymətləndirmə növlərindən istifadə olunur. Bu qiymətləndirmə növləri müvafiq məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır:

***İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə)*** şagirdin artıq nələri bildiyini müəyyən edir və təlimin düzgün qurulmasında müəllimə kömək edir. Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi? Şagirdlər tədris olunmuş materialın hansı hissəsini bilirlər?

***Şagird irəliləyişlərinin monitorinqi (formativ qiymətləndirmə)*** vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir. Standartların mənimsənilməsinə doğru şagirdlər kifayət qədər irəliləyə bilirlərmi? Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə kömək göstərir.

Monitorinqlər ev tapşırıqlarını nəzərdən keçirməklə, yaxud daha formal qiymətləndirmə tipindən istifadə etməklə aparıla bilər. Monitorinqlərin hansı formada aparılmasından asılı olmayaraq, onlar müntəzəm xarakter daşımalıdır. Bundan əlavə, hər altı həftədən gec olmayaraq, şagirdlərin standartlar üzrə nailiyyətlərinin daha ümumi monitorinqi təşkil edilməlidir.

**Yekun (summativ) qiymətləndirmə.** Şagirdlər verilmiş standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə çatmışlarmı? Qiymətləndirmənin bu növləri şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə olunmasına yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edir. Yekun (summativ) qiymətləndirmə aşağıdakı suallara cavab verir: Şagird materialı bilir və başa düşürmü? Bildiklərini tətbiq edə bilirmi? Daha irəli getmək üçün lazımi səviyyəyə çatmışdırmı?

Yekun (summativ) qiymətləndirmə mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Dərs zamanı müəllim qrup qiymətləndirilməsi, şagirdlərin özünüqiymətləndirmə və yoldaşını qiymətləndirmə üsul və vasitələrindən istifadə edə bilər.

## Qiymətləndirmə vasitələrinə aid nümunələr

**Özünüqiymətləndirmə**

Bu qiymətləndirmə üsulu fərdi qiymətləndirmə üsuludur. Dərsin sonunda hər şagirdə aşağıdakı cədvəl paylanılır. Bu üsul vasitəsilə hər şagird öz fəaliyyətini qiymətləndirir. Hər meyarın altında «kafi» (1 b), «yaxşı» (2b) və ya «əla» (3b) sözlərini yazır.

**Cütlüklərin işlərinin qiymətləndirilməsi**

| Tapşırığı tam və düzgün yerinə yetirdim | Dərsdə diqqətli oldum | Əlavələr etdim | Sual verdim | Əməkdaşlıq etdim | Etiket qaydalarına riayət etdim | Cəmi |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

Bu qiymətləndirmə üsulu ilə cütlərin işləri qiymətləndirilir. Dərsin sonunda hər cütə aşağıdakı cədvəl paylanılır. Bu üsul vasitəsilə hər şagird özünü və yoldaşının fəaliyyətini qiymətləndirir. Hər meyarın altında «kafi» (1b), «yaxşı» (2b) və ya «əla» (3b) sözlərini yazır.

| Cütdə işləyən şagirdlərin adı | Fəallıq | Əməkdaşlıq | Nizam-intizam qaydalarına əməl etmək | Məlumatın təhlili | Cəmi |
|---|---|---|---|---|---|
| İlham | | | | | |
| Arzu | | | | | |

**Qrup üzvü tərəfindən qrupun digər üzvlərinin qiymətləndirilməsi**

Bu qiymətləndirmə üsulu ilə qrupun bir üzvü digər üzvlərin fəaliyyətlərini qiymətləndirir. Dərsin sonunda qrupun hər bir üzvünə aşağıdakı cədvəl paylanılır. Bu üsul vasitəsilə hər şagird özünün və yoldaşının fəaliyyətini qiymətləndirir. Hər meyarın altında «+» və ya «-» işarəsi yazır.

Qrupun adı/nömrəsi ______________________________

Qiymətləndirən şəxs______________________________

| Qrup üzvlərinin adları | Tapşırığın tam və düzgün yerinə yetirilməsi | Dərsi diqqətlə dinləmək | Suallar vermək | Sualları cavablandırmaq | Əməkdaşlıq etmək | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1.Vüqar | + | + | | + | | 3+ |
| 2. Səma | | + | + | + | + | 4+ |
| 3. Aydan | | | | | | |
| 4. Nigar | | | | | | |
| 5. Mən | | | | | | |

**Qrup işlərinin qiymətləndirilməsi**

**Qeyd:** *Hər qrupa aşağıdakı cədvəl təqdim edilir. Bir qrup digər qrupların işini meyar cədvəli ilə qiymətləndirir. Müəllim qrupların qiymətləndirilməsi ilə şagirdləri tanış edir. Hər qrupun nailiyyətləri, çətinlikləri müzakirə edilir və onların həlli yolları müəyyən olunur.*

| Qrupun nömrəsi, adı | Tapşırığın tam və düzgün yerinə yetirilməsi | Dinləmə bacarığı | Dərsdə fəallıq (sualların verilməsi, səhvlərin müəyyən edilməsi) | Əməkdaşlıq | Cəmi |
|---|---|---|---|---|---|
| I | + | + | + | | 3+ |
| II | + | + | + | + | 4+ |
| III | | | | | |
| IV | | | | | |

**Qrup işlərinin qiymətləndirilməsi**

**Qeyd:** *Bu üsulla qrup qiymətləndirilməsini keçirmək üçün lövhədə qrafik çəkilir. Hər qrupu təmsil edən fiqur seçilir. Fiqurlar lövhədə qrafikdə skotç vasitəsilə asılır. Tədqiqat işi zamanı qrupun fəaliyyətindən asılı olaraq fiqurlar müəyyən səviyyəyə qaldırılıb-endirilir.*




Dərslikdə tapşırıqlar səviyyələr üzrə bölünmüşdür. Mavi rənglə işarə olunmuş tapşırıqlar sadə, yaşıl rənglə işarə olunmuş tapşırıqlar orta səviyyəli, qırmızı rənglə işarə olunmuş tapşırıqlar isə nisbətən mürəkkəbdir. Vəsaitə diaqnostik, KSQ və BSQ tapşırıq nümunələri də daxil edilmişdir.

**Ev tapşırığının qiymətləndirilməsi:** Ev tapşırığının növündən asılı olaraq şagirdlərin işləri müxtəlif cür qiymətləndirilir. Məsələn: işlənmiş şəkillər, açıqcalar və kitabçalardan qalereya təşkil olunur. İşlər uşaqlar və müəllim tərəfindən yapışqan simvollarla qiymətləndirilir. Dəftərdə yazılan inşa yazıları, dialoqlar, cədvəllər, məlumatlar müəllim tərəfindən yoxlanılır və növbəti gün şagirdlərə təqdim olunur.

**İnklüzivlik**

2005-ci ildən başlayaraq, Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud olan) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı həyata keçirilməyə başlamışdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar təbii ki, bu qayğının bir komponenti kimi xüsusi təhsilə də ehtiyac duyurlar. Bu isə inklüziv təhsili zəruri edir. Ölkəmizdə həyata keçirilən təcrübə çərçivəsində inklüziv təhsili tətbiq edən pilot məktəblər fəaliyyət göstərir. Bunu nəzərə alaraq, vəsaitdə inklüziv təhsildə vacib olan bəzi məsələlərin şərhini verməyi vacib hesab edirik.

İnklüziv təhsil hər bir şagirdə psixoloji dəstək verilməsini, ona qarşı diqqətli olmağı, onun üçün nəticəyönümlü təlimi təmin edən şərait yaradılmasını nəzərdə tutur. Hər bir şagird, əslində, fərdi yanaşma tələb edir. Fərdi iş zamanı uşağın təlim problemlərini daha yaxından izləmək və onun imkanlarını aşkar etmək mümkün olur. Bu problemlərin tez müəyyən edilməsi və müvafiq yardım göstərilməsi isə işin xeyrinədir. Hər bir sinifdə bu və ya digər dərəcədə problemli uşaq ola bilər. Bu halda müəllimlər adaptasiya və modifikasiya strategiyalarından istifadə edərək xüsusi təhsilə ehtiyacı olan uşaqların qruplarda iştirakını təmin edə, onların təlimdə uğur qazanmasına nail ola bilərlər.

Adaptasiya xüsusi təhsilə ehtiyacı olan şagird üçün tapşırığın daha əyani şəkildə təqdim edilməsidir. Məsələn, sinifdə görmə qabiliyyəti zəif olan uşaq varsa, müəllim tapşırığı hamı üçün lövhədə yazdığı halda, onu həmin uşağa iri xətlə yazılmış ayrıca kartda təqdim edir.

Modifikasiya məsələnin məzmununun sadələşdirilməsidir. Sinifdə autist (özünə qapılan) şagird varsa, diqqətinin məhdud olduğunu nəzərə alaraq müəllim tapşırıqları onun üçün sadələşdirir.

# MÖVZULAR



| Mövzular | | Saat | Metodik vəsait səh. | Dərslik səh. |
|---|---|---|---|---|
| **I. SƏNİN CƏMİYYƏTDƏ YERİN** | | | | |
| **1. Sənin təhsilin** | | | | |
| 1. | Yeni dərs ili | 1 | 10–11 | 6–7 |
| 2. | Yay tətilində | 1 | 12–13 | 8–9 |
| 3. | Təhsil əsri | 1 | 14–15 | 10–11 |
| 4. | Keçmişdə və indi | 1 | 16–17 | 12–13 |
| 5. | Kitabxana | 1 | 18–19 | 14–15 |
| 6. | Kitablardan öyrənirik | 1 | 20–21 | 16–17 |
| **2. Sənin hüquqların** | | | | |
| 7. | Dövlətçilik | 1 | 22–23 | 18–19 |
| 8. | Dövlət orqanları | 1 | 24–25 | 20–21 |
| 9. | Dövlət büdcəsi | 1 | 26–27 | 22–23 |
| 10. | İstehsal və istehlak | 1 | 28–29 | 24–25 |
| 11. | Sığortanın əhəmiyyəti | 1 | 30–31 | 26–27 |
| 12. | Vətəndaşlıq | 1 | 32–33 | 28–29 |
| 13. | Uşaq Hüquqları Konvensiyası | 1 | 34–35 | 30–31 |
| 14. | Layihə: «Biz hüquqlarımızdan necə istifadə edirik?» | 2 | — | — |
| **3. Sənin mənəviyyatın** | | | | |
| 15. | Hər şey münasibətdən başlayır | 1 | 36–37 | 32–33 |
| 16. | Qarşılıqlı anlaşma | 1 | 38–39 | 34–35 |
| 17. | Ədəb-ərkan qaydaları | 1 | 40–41 | 36–37 |
| 18. | Məsuliyyət hissi | 1 | 42–43 | 38–39 |
| 19. | Fədakarlıq | 1 | 44–45 | 40–41 |
| 20. | İslam dini necə yarandı? | 1 | 46–47 | 42–43 |
| 21. | İslam dininin yayılması | 1 | 48–49 | 44–45 |
| 22. | Mövhumat nədir? | 1 | 50–51 | 46–47 |
| **4. Sənin sağlamlığın** | | | | |
| 23. | Sağlamlığın qorunması hüququ | 1 | 52–53 | 48–49 |
| 24. | Yoluxucu xəstəliklər | 1 | 54–55 | 50–51 |
| 25. | İmmunitet nədir? | 1 | 56–57 | 52–53 |
| 26. | Onurğa sütunu | 1 | 58–59–60 | 54–55 |

| Mövzular | | Saat | Metodik vəsait səh. | Dərslik səh. |
|---|---|---|---|---|
| 27. | Qida zəhərlənmələri | 1 | 61–62–63 | 56–57 |
| 28. | İlk tibbi yardım | 1 | 64–65 | 58–59 |
| 29. | Bədəni necə möhkəmləndirməli? | 1 | 66–67 | 60–61 |
| 30. | Layihə: «Sağlamlığa ziyan vuran zərərli vərdişlər» | 2 | — | — |
| **5. Sənin rahatlığın və təhlükəsizliyin** | | | | |
| 31. | Mobil telefonlar | 1 | 68–69 | 62–63 |
| 32. | Kompüter və insanlar | 1 | 70–71 | 64–65 |
| 33. | Məişət qəzaları | 1 | 72–73 | 66–67 |
| 34. | Yol hərəkəti qaydaları | 1 | 74–75 | 68–69 |
| 35. | Fövqəladə hallar | 1 | 76–77 | 70–71 |
| 36. | Fövqəladə hallarda necə davranmalı? | 1 | 78–79 | 72–73 |
| 37. | Layihə: «Yol hərəkəti qaydaları və yol nişanları» | 2 | — | — |
| **II. TƏBİƏT VƏ CƏMİYYƏT** | | | | |
| **1. İnsan təbiəti dəyişir** | | | | |
| 38. | İqlim və canlılar aləmi | 1 | 80–81 | 74–75 |
| 39. | Təbii ehtiyatlar | 1 | 82–83 | 76–77 |
| 40. | Təbiət necə dəyişir? | 1 | 84–85 | 78–79 |
| 41. | Coğrafi təbəqə | 1 | 86–87 | 80–81 |
| 42. | Cəmiyyət və bitki örtüyü | 1 | 88–89 | 82–83 |
| 43. | Cəmiyyətin inkişafı və heyvanlar aləmi | 1 | 90–91 | 84–85 |
| 44. | Cəmiyyət və elmi-texniki inkişaf | 1 | 92–93 | 86–87 |
| 45. | Layihə: «Təbiətdəki əlaqələr» | 2 | — | — |
| **2. Cəmiyyətin qlobal problemləri** | | | | |
| 46. | Ekologiya nədir? | 1 | 94–95 | 88–89 |
| 47. | Aral gölünün harayı | 1 | 96–97 | 90–91 |
| 48. | Ozon qatı | 1 | 98–99 | 92–93 |
| 49. | Səhralaşma nədir? | 1 | 100–101 | 94–95 |
| 50. | Yaşıl iqtisadiyyat | 1 | 102–103 | 96–97 |
| 51. | Müharibə və sülh | 1 | 104–105 | 98–99 |
| 52. | Bir pillə də ucaldıq | 1 | 106–107 | 100–101 |
| 53. | Layihə: «Yer kürəsi bizim evimizdir» | 2 | — | — |

| № | Mövzular | Standartlaşmanın reallaşması | İnteqrasiya |
|---|---|---|---|
| **I. SƏNİN CƏMİYYƏTDƏ YERİN** | | | |
| **1. Sənin təhsilin** | | | |
| 1. | Yeni dərs ili | 2.1.1.; 2.1.2.; 2.4.2. | A-d.: 1.2.2.; 2.1.1.; Riy.: 5.1.2.; 5.2.2.; T-i.: 2.2.2. |
| 2. | Yay tətilində | 1.3.1.; 1.3.2 | A-d.: 1.2.2.; 3.1.4.; Riy.: 5.1.2. |
| 3. | Təhsil əsri | 2.4.2.; 3.4.1. | Riy.: 5.1.2.; 5.2.2.; A-d.: 1.2.2.; 3.1.4.; 3.1.5.; T-i; 2.2.6. |
| 4. | Keçmişdə və indi | 2.1.2.; 3.1.2. | A-d.: 1.2.2.; 2.2.2.; 3.1.4.; İnf.: 1.1.3.; 1.1.4.; 4.1.2. |
| 5. | Kitabxana | 1.1.1.; 2.1.2.; 3.2.2. | A-d.: 1.2.2.; 1.2.3.; 3.1.4.; Riy.: 5.1.2. |
| 6. | Kitablardan öyrənirik | 3.2.1. | A-d.: 2.2.1.; 3.1.1.; 4.1.3. |
| **2. Sənin hüquqların** | | | |
| 7. | Dövlətçilik | 2.3.1. | A-d.: 1.2.2.; 2.1.1.; 3.1.5.; T-i.: 2.2.6. |
| 8. | Dövlət orqanları | 2.3.2.; 2.3.3. | A-d.: 1.2.2.; 2.1.1.; 2.2.2.; Riy.: 5.1.2.; 5.2.2. |
| 9. | Dövlət büdcəsi | 2.2.1.; 2.2.2. | A-d.: 2.1.2.; 2.2.3. |
| 10. | İstehsal və istehlak | 2.3.3.; 2.4.1.; 4.1.2. | A-d.: 2.1.2.; 3.1.4.; T-i.: 2.2.6. |
| 11. | Sığortanın əhəmiyyəti | 2.2.3. | A-d.: 1.2.3.; 1.3.5.; T-i.: 2.2.6. |
| 12. | Vətəndaşlıq | 2.1.2..; 2.4.2. | A-d.: 3.1.4.; 3.1.5.; İnf.: 4.1.2. |
| 13. | Uşaq Hüquqları Konvensiyası | 2.4.2. | A-d.: 2.1.1.; 2.1.2.; 3.1.4.: 3.1.5.; Riy.: 5.1.2. |
| **3. Sənin mənəviyyatın** | | | |
| 14. | Hər şey münasibətdən başlayır | 2.1.2.; 3.2.2. | A-d.: 3.1.5.; Riy.: 5.1.2.; İnf.: 4.1.2. |
| 15. | Qarşılıqlı anlaşma | 3.1.1.; 3.1.2. | A-d.: 1.1.1.; 1.2.2.; Riy.: 5.2.2. |
| 16. | Ədəb-ərkan qaydaları | 3.1.1.; 3.1.2.; 3.2.2. | A-d.: 1.2.2.; Riy.: 5.1.2.; T-i.: 2.2.7. |
| 17. | Məsuliyyət hissi | 1.4.1.; 2.1.2. | A-d.: 1.2.3.; 1.2.5.; Tex.: 1.3.4.; T-i.: 2.2.6. |
| 18. | Fədakarlıq | 3.4.1. | A-d.: 1.1.1.; 1.2.2.; 2.2.2.; 3.1.5. |
| 19. | İslam dini necə yarandı? | 3.2.1.; 3.3.1.; 3.3.2. | A-d.: 2.2.2.; 2.2.5.; Riy.: 5.1.2.; T-i.: 2.2.6 |
| 20. | İslam dininin yayılması | 2.1.1.; 2.1.2.;3.3.1. | A-d.: 1.2.1.; 1.2.2.; Riy.: 5.2.2.; İnf.: 1.2.1. |
| 21. | Mövhumat nədir? | 1.1.1.; 2.3.2.; 3.3.3. | A-d.: 1.2.2.; 2.1.2.; 3.1.5.; T-i. 2.2.6 |
| **4. Sənin sağlamlığın** | | | |
| 22. | Sağlamlığın qorunması hüququ | 2.3.3.; 2.4.2.; 4.1.1. | A-d.: 3.1.5.; Tex.:3.1.1.; F-t.: 1.1.3. |
| 23. | Yoluxucu xəstəliklər | 4.1.1.; 4.1.2.; 4.3.2. | A-d.: 1.2.2.; 3.1.4.; 3.1.5.; F-t.: 1.1.3. |
| 24. | İmmunitet nədir? | 1.1.1.; 1.1.2.; 4.1.2. | A-d.: 1.2.2.; 2.2.2.; İnf.: 1.2.1.; 1.2.2.; T-i.: 2.2.6.; F-t.: 1.1.1.; 1.1.2.; 1.1.3.; 1.2.4. |
| 25. | Onurğa sütunu | 1.3.2.; 4.1.2.; 4.1.3. | İnf.: 1.1.3.; 3.1.2.; 4.1.1.; Tex.: 2.1.3.; 3.1.1. |

| № | Mövzular | Standartlaşmanın reallaşması | İnteqrasiya |
|---|---|---|---|
| 26. | Qida zəhərlənmələri | 1.1.1.; 2.4.1.; 4.1.2. | A-d.: 1.2.1.; 1.2.2.; Riy.: 4.1.1., F-t.: 1.1.3.; 1.2.4. |
| 27. | İlk tibbi yardım | 4.3.3. | T-i. 2.2.6.; F-t.: 1.2.4.; 2.2.3. |
| 28. | Bədəni necə möhkəmləndirməli? | 4.1.1.; 4.1.2. | F-t.: 1.1.1.; 1.1.2.; 1.1.3.; Tex.: 3.1.1. |
| **5. Sənin rahatlığın və təhlükəsizliyin** | | | |
| 29. | Mobil telefonlar | 4.1.2.; 4.1.3. | İnf.: 1.1.3.; 3.1.2.; 4.1.1.; Tex.: 2.1.3. |
| 30. | Kompüter və insanlar | 4.1.2.; 4.1.3. | İnf.: 1.1.3.; 3.1.2.; 4.1.1., Tex.: 2.1.3. |
| 31. | Məişət qəzaları | 4.2.1.; 4.2.2.; 4.3.3. | Tex.: 2.1.4., 3.1.1.; F-t.: 2.2.3.; 3.1.1.1.; 4.1.2. |
| 32. | Yol hərəkəti qaydaları | 4.2.3. | Riy.: 5.1.2.; 5.2.2.; F-t.: 1.2.4.; 3.1.1.1.; 4.1.1. |
| 33. | Fövqəladə hallar | 2.3.3.; 2.4.2.; 4.3.1. | A-d.: 1.2.1.; 1.2.2.; 3.1.5. |
| 34. | Fövqəladə hallarda necə davranmalı? | 4.2.2.; 4.3.2.; 4.3.3. | İnf.: 1.1.4.; F-t.: 1.2.4.; 3.1.1.1.; 4.1.1.; 4.1.2. |
| **TƏBİƏT VƏ CƏMİYYƏT** | | | |
| **1. İnsan təbiəti dəyişir** | | | |
| 35. | İqlim və canlılar aləmi | 1.2.2.; 1.2.3.; 1.3.1. | A-d.: 1.2.1.; 1.2.2.; T-i.: 2.2.6. |
| 36. | Təbii ehtiyatlar | 1.1.1.; 1.3.1.; 1.4.2. | Riy.: 4.1.1.; A-d.: 1.2.2.; İnf.: 1.2.1.; 1.2.2.; Tex.: 3.1.2. |
| 37. | Təbiət necə dəyişir? | 2.1.1.; 2.2.2. | A-d.: 1.2.2.; 3.1.5.; Riy.: 5.1.1.; 5.1.2. |
| 38. | Coğrafi təbəqə | 1.3.1.; 1.4.1. | A-d.: 1.2.2.; 2.2.2.; İnf.: 1.2.2. |
| 39. | Cəmiyyət və bitki örtüyü | 1.2.1.; 1.4.2. | A-d.: 1.2.2.; Riy.: 5.2.2.; T-i.: 2.2.6. |
| 40. | Cəmiyyətin inkişafı və heyvanlar aləmi | 1.2.1.; 1.2.3. | A-d.: 1.2.1.; 1.2.2.; Tex.: 3.1.2.; T-i.: 2.2.6. |
| 41. | Cəmiyyət və elmi-texniki inkişaf | 1.1.2.; 1.4.2.; 2.1.2. | A-d.: 2.2.2.; İnf.: 4.1.1.: 4.1.2.; T-i.: 2.2.6 |
| **2. Cəmiyyətin qlobal problemləri** | | | |
| 42. | Ekologiya nədir? | 1.2.3.; 1.3.1.; 1.4.2. | A-d.: 1.2.2.; Tex.: 1.3.6.; T-i.: 2.2.6. |
| 43. | Aral gölünün harayı | 1.2.3.; 1.3.1.; 1.4.2. | A-d.: 1.2.2.; İnf.: 1.2.2.; T-i.: 2.2.6. |
| 44. | Ozon qatı | 1.4.2.; 2.3.3. | A-d.: 1.2.2.; T-i.: 2.2.6. |
| 45. | Səhralaşma nədir? | 1.2.2.; 1.4.2. | A-d.: 1.2.2.; T-i.: 2.2.6. |
| 46. | Yaşıl iqtisadiyyat | 1.1.3. | Riy.: 2.3.3.; 5.2.2.; T-i.: 2.2.6. |
| 47. | Müharibə və sülh | 2.1.2.; 3.1.2.; 3.2.1. | A-d.: 1.1.1.; 1.1.2.; 2.2.2.; Riy.: 2.3.3.; 4.2.4.; İnf.: 4.1.2.; T-i.: 2.2.6. |
| 48. | Bir pillə də ucaldıq | 2.1.2. | A-d.: 1.1.1.; 1.1.2.; 1.2.2.; İnf.: 4.1.2.; T-i.: 2.2.6. |

# 1. YENİ DƏRS İLİ

| | |
|---|---|
| ***Məzmun xətti*** | Fərd və cəmiyyət |
| ***Standart*** | 2.1.1. Azərbaycan cəmiyyətini sadə şəkildə təsvir edir;<br>2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır;<br>2.4.2. Hüquq və vəzifələri barədə kiçik təqdimatlar edir. |
| ***Məqsəd*** | ◊ Azərbaycan cəmiyyətində vacib olan hadisələri təsvir edir;<br>◊ İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətləri müəyyən edir;<br>◊ Təhsillə bağlı öz hüquq və vəzifələrini fərqləndirir. |
| ***İnteqrasiya*** | A-d.: 1.2.2.; 2.1.1.; Riy.: 5.1.2.; 5.2.2.; T-i.: 2.2.2. |

| ***Dərsin tipi*** | ***İş formaları*** | ***İş üsulları*** | ***Resurslar*** |
|---|---|---|---|
| İnduktiv | Bütün sinniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, proqnoz | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərə dərsliyin 7-ci səhifəsində olan şəkillərə baxmağı təklif edir. Bir şəkildə uşaq evdə stol arxasında əyləşib dərs oxuyur, digər şəkildə uşaq küçədə maşın yuyur. Müəllim şagirdlərə suallarla müraciət edir:

– Şəkillərdə nə görürsünüz?
– Bu iki şəkil bir-birindən nə ilə fərqlənir?
– Sizcə, burada uşaqların hansı hüququ əks olunub?
– Hansı şəkildə bu hüquq pozulur?
– Hansı şəkildə bu hüquq qorunur?

***Tədqiqat sualı:*** *Təhsil hüququ nə üçün vacibdir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 6–7-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Əgər uşaqlar təhsil almasaydılar, bu, nəyə gətirib çıxara bilərdi?

______________________________

______________________________

______________________________

______________________________

***II qrup üçün iş vərəqi***

Təhsillə əlaqədar sizin hansı hüquq və vəzifələriniz var?

| **TƏHSİL** | | |
|---|---|---|
| № | Hüquqlar | Vəzifələr |
| | | |
| | | |
| | | |

***III qrup üçün iş vərəqi***

«Təhsilin bizim həyatımızda rolu» mövzusunda inşa yazın.

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Təhsil hüququnun hər bir insanın bacarıqlarının, biliyinin inkişafı üçün mütləq əhəmiyyəti qeyd olunur.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 7-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir və müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Mənim məktəbim» mövzusunda şəkil çəkin.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Azərbaycan cəmiyyətində vacib olan hadisələri təsvir edir | | | | |
| İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətləri müəyyən edir | | | | |
| Təhsillə bağlı öz hüquq və vəzifələrini fərqləndirir | | | | |

# 2. YAY TƏTİLİNDƏ

**Məzmun xətti** Təbiət və biz

**Standart** 1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;
1.3.2. İnsanın əsas orqanlarının funksiyalarını sadə şəkildə izah edir.

**Məqsəd**
- ◊ Yay fəslinin canlı və cansız təbiətə təsirini izah edir;
- ◊ İnsanın dərisinin funksiyalarını müəyyən edir;
- ◊ Canlı və cansız təbiətdə olan dəyişiklikləri təhlil edir.

**İnteqrasiya** A-d.: 1.2.2.; 3.1.4.; Riy.: 5.1.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Anlayışın çıxarılması, səbəb-nəticə sxemi | Dərslik, iş vərəqləri |

***Motivasiya:***

*Çoxlu meyvə-tərəvəz yeyirlər*

*Dənizə gedirlər*  *Asudə vaxtları çox olur*


*Səyahətə çıxırlar*

Müəllim: – Lövhədə olan şəklə baxın. Orada günəş şəkli görürsünüz. Sizcə, sual əvəzinə hansı söz yazılmalıdır? Günəşin ətrafında yazılan köməkçi sözlər anlayışı tapmaqda sizə kömək edə bilər.

***Tədqiqat sualı:*** *Yay tətilinin insan üçün əhəmiyyəti nədir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 8–9-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

1. Yay fəslinin insanlar üçün faydası nədir? Aşağıda verilənləri ardıcıllıqla zəncirlərdə yazın: *«Sağlam oldular», «Orqanizm vitaminlərlə zənginləşdi», «Çoxlu meyvə-tərəvəzlə qidalandılar», «Hava isindi»*.



2. Sxemi tamamlayın.




***III və IV qruplar üçün iş vərəqi***

1.Yay fəslinin insanlar üçün faydası nədir? Aşağıda verilənləri ardıcıllıqla zəncirlərdə yazın: *«Dənizin suyu isindi», «İnsanların orqanizmi möhkəmləndi», «İnsanlar çimərliyə getdilər», «Hava isti oldu»*.



2. Sxemi tamamlayın.




***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Yay fəslindən necə faydalanmaq olar?

– Hansı təcrübələr əldə etdiniz?

– Yaydan ən çox yadınızda qalan nələr oldu?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Yay tətilinin hər bir insanın sağlamlığı, ümumi inkişafı üçün əhəmiyyətli olduğu qeyd edilir.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 9-cu səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Yay tətili haqqında təəssüratlarım» mövzusunda inşa yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən isifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Yay fəslinin canlı və cansız təbiətə təsirini izah edir | | | | |
| İnsanın dərisinin funksiyalarını müəyyən edir | | | | |
| Canlı və cansız təbiətdə olan dəyişiklikləri təhlil edir | | | | |

# 3. TƏHSİL ƏSRİ

**Məzmun xətti**
Fərd və cəmiyyət
Mənəviyyat

**Standart**
2.4.2. Hüquq və vəzifələri barədə kiçik təqdimatlar edir;
3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.

**Məqsəd**
◊ Təhsillə bağlı hüquq və vəzifələrinə riayət edilməsinin səbəblərini müəyyən edir;
◊ Ailə və Vətən qarşısında mənəvi borcun yerinə yetirilməsində təhsilin rolunu müəyyən edir.

**İnteqrasiya**
Riy.: 5.1.2.; 5.2.2.; A-d.: 1.2.2.; 3.1.4.; 3.1.5.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, anlayışın çıxarılması, proqnozetmə | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərə dərsliyin 10-cu səhifəsindəki şəklə baxmağı təklif edir. Şəkildə həm uşaq, həm qoca eyni fikri səsləndirir: «Mən bunu öyrənməliyəm!»

– Sizcə, nəyə görə həm uşaq, həm qoca eyni fikri səsləndirir?
– Belə ola bilərmi? Fikrinizi əsaslandırın.
– Nə üçün böyüklərin öyrənməyə ehtiyacı var?

***Tədqiqat sualı:*** *İnsanın həyatında davamlı təhsilin rolu nədir?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 10–11-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Oxlar ətrafında daimi təhsilin nə üçün vacib olması haqqında fikirlərinizi yazın.



***II qrup üçün iş vərəqi***

Yaxşı təhsil almaq üçün nə etmək lazımdır?

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

***III qrup üçün iş vərəqi***

Yaxşı təhsil alan insan öz ölkəsi üçün nə edə bilər?

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

***IV qrup üçün iş vərəqi***

Ölkəmizdə şagirdlərin yaxşı təhsil almaları üçün dövlət hansı fəaliyyətləri həyata keçirir?

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsan davamlı təhsil alaraq öz bacarıqlarını inkişaf etdirə bilər və ölkə üçün daha çox faydalı işlər görər. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 11-ci səhifəsindəki 6-cı tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Mən gələcəkdə kim olmaq istəyirəm» bu peşə haqqında yazın və şəkil çəkin.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Təhsillə bağlı hüquq və vəzifələrinə riayət edilməsinin səbəblərini müəyyən edir | | | | |
| Ailə və Vətən qarşısında mənəvi borcun yerinə yetirilməsində təhsilin rolunu müəyyən edir | | | | |

# 4. KEÇMİŞDƏ VƏ İNDİ

**Məzmun xətti**

Fərd və cəmiyyət
Mənəviyyat

**Standart**

2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır;
3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir.

**Məqsəd**

◊ İnsanların ünsiyyət vasitələrini sadalayır;
◊ Ünsiyyət vasitələrinin inkişafında olan dəyişiklikləri izah edir;
◊ Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir;
◊ Sosial varlıq kimi insan üçün ünsiyyətin əhəmiyyətini izah edir.

**İnteqrasiya**

A-d.: 1.2.2.; 2.2.2.; 3.1.4.; İnf..: 1.1.3.; 1.1.4.; 4.1.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, səbəb-nəticə zənciri, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərin diqqətini lövhədə yazılan sözlərə yönəldir. «Qobustan qayaüstü rəsmləri, perqament, papirus, kağız, İnternet»

– Lövhədə yazılan sözləri nə birləşdirir?

– Nəyə görə onlar bu ardıcıllıqla qeyd olunub?

***Tədqiqat sualı:*** *İnsanlar bir-biri ilə necə ünsiyyət saxlayırlar və ünsiyyətin nə kimi əhəmiyyəti var?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 12–13-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Qədim zamandan indiki dövrədək insanların ünsiyyət vasitələrini zəncirlərdə ardıcıllıqla düzün.



***III və IV qruplar üçün iş vərəqi***

Hər məlumat vasitələrinin üstün olan və çatışmayan cəhətlərini uyğun olan sütunda qeyd edin.

| **Sıra №-si** | **Məlumat (ünsiyyət) vasitəsi** | **Üstünlüklər** | **Çatışmazlıqlar** |
|---|---|---|---|
| 1. | Qayaüstü rəsmlər | | |
| 2. | Perqament, papirus üzərində yazılar | | |
| 3. | Kağız üzərində yazılar | | |
| 4. | İnternet | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Nə üçün insanın ünsiyyətə ehtiyacı var?

– Bu ehtiyac nədə öz əksini tapır?

– Zaman keçdikcə insanın ünsiyyət tələbatının həyata keçməsində hansı dəyişikliklər baş verir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsanlar qədim zamanlardan indiyədək müxtəlif vasitələrlə ünsiyyət saxlayır, məlumatı bir-birinə ötürürlər. Məlumatı almaq, ötürmək, emosional dəstək almaq, suala cavab tapmaq, öz hərəkətlərini tənzimləmək və s-nin yalnız ünsiyyətin sayəsində mümkün olması haqqında nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 13-cü səhifəsindəki 4-cü tapşırıqlar yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Ünsiyyətin mənim həyatımda rolu» mövzusunda kiçik inşa yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| İnsanların ünsiyyət vasitələrini sadalayır | | | | |
| Ünsiyyət vasitələrinin inkişafında olan dəyişiklikləri izah edir | | | | |
| Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir | | | | |
| Sosial varlıq kimi insan üçün ünsiyyətin əhəmiyyətini izah edir | | | | |

# 5. KİTABXANA

**Məzmun xətti**
Təbiət və biz
Fərd və cəmiyyət
Mənəviyyat

**Standart**
1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır;
3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir.

**Məqsəd**
◊ Kitabxananın mahiyyətini izah edir;
◊ Kitabxanada olan qaydaları sadalayır;
◊ Kitabxanada qəbul olunmuş qaydaları nümayiş etdirir.

**İnteqrasiya**
A-d.: 1.2.2.; 1.2.3.; 3.1.4.; Riy.: 5.1.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
| --- | --- | --- | --- |
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, anlayışın çıxarılması, səbəb-nəticə zənciri, dialoqun qurulması | Dərslik, iş vərəqləri |

***Motivasiya:***




***Tədqiqat sualı:*** *Kitabxana nədir və orada hansı qaydaları gözləmək lazımdır?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 15–16-cı səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Kitabxanada riayət edilən qaydaları zəncirlərdə ardıcıllıqla qeyd edin (müəllim zəncirlərin sayını daha artıq çəkə bilər).



*III və IV qruplar üçün iş vərəqi*

Kitabxanaya ilk dəfə gələn oxucu və kitabxanada işləyən işçilər: qeydiyyatı aparan şəxs, kataloq bölməsində işləyən şəxs və kitabxanaçı arasında mümkün ola bilən dialoq qurun və təqdim edin.



***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Kitab informasiya daşıyıcısıdır. Kitabxanada çoxlu informasiya daşıyıcıları toplanılır və müəyyən sistem üzrə yerləşdirilir. Kitabxanada hər hansı kitabı tapmaq üçün mövcud olan qaydalar onu qısa müddətdə əldə etməyə imkan verir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 15-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Oxuduğunuz son kitab (hekayə, nağıl) haqqında rəy yazın.

Kitabın müəllifi ______________________________

Kitabın adı ______________________________

Kitabın növü: elmi, bədii, ________________ (digər)

Əsas qəhrəman (kim, yaxud nə haqqında) ______________________

Kitabın tərtibatında nə xoşunuza gəldi? ______________________

Kitabın tərtibatında nə xoşunuza gəlmədi? ______________________

Kitabın məzmununda nə xoşunuza gəldi? ______________________

Kitabın məzmununda nə xoşunuza gəlmədi? ______________________

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Kitabxananın mahiyyətini izah edir | | | | |
| Kitabxanada olan qaydaları sadalayır | | | | |
| Kitabxanada qəbul olunmuş qaydaları nümayiş etdirir | | | | |

# 6. KİTABLARDAN ÖYRƏNİRİK

**Məzmun xətti** Mənəviyyat

**Standart** 3.2.1. Nağıl, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.

**Məqsəd**
◊ Hekayədə mənəvi keyfiyyətləri müəyyən edir;
◊ Hekayədə müsbət və mənfi mənəvi keyfiyyətləri bir-birindən fərqləndirir.

**İnteqrasiya** A-d.: 2.2.1.; 3.1.1.; 4.1.3.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Düzgünlük, səmimilik, xeyirxahlıq ..........
Sıranı necə davam etdirərdiniz ? Sırada təqdim olunanlar hamısı bir sözlə nədir?
***Tədqiqat sualı:*** *Mənəvi keyfiyyət nədir? Hansı mənəvi keyfiyyətlər var?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.
***Tədqiqatın aparılması:*** Dərsliyin 16–17-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***
Oğlanlardan hansı müsbət, hansı isə mənfi keyfiyyətlərə malik idi? Niyə görə belə hesab edirsən? – fikrinizi əsaslandırın.

| Müsbət mənəvi keyfiyyətlərə malik olan oğlan | Mənfi mənəvi kefiyyətlərə malik olan oğlan |
|---|---|
| | |

Daha hansı mənəvi keyfiyyətlər haqqında məlumatın var?

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

***II qrup üçün iş vərəqi***

Sənin Qaliblə söhbət etmək imkanın olsaydı, ona nə deyərdin?

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

***III qrup üçün iş vərəqi***

Minarə nənənin hansı sözləri Əliyə necə təsir etdi?

| Minarə nənənin sözləri | Əliyə təsirinin nəticəsi |
|---|---|
| | |

***IV qrup üçün iş vərəqi***

Düzgünlük, çətinlik, iradə, üç dost – verilmiş sözlərdən istifadə edərək kiçik hekayə qurun.

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Oğlanların hərəkətlərini necə qiymətləndirirsiniz?

– Daha hansı mənəvi keyfiyyətləri sadalaya bilərsiniz?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Düzgünlük, iradə, səmimilik, cəsarət, paxıllıq, xeyirxahlıq və s. mənəvi keyfiyyətlərdir. Bu keyfiyyətlər insanın mənəvi aləmini təşkil edir. Onlar ətrafdakıların bizimlə və bizim ətrafdakılarla qarşılıqlı əlaqə, təsiriniz nəticəsində formalaşır.

Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərslikdə 17-ci səhifədəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Mənim mənəvi keyfiyyətlərim» adlı kiçik inşa yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Hekayədə mənəvi keyfiyyətləri müəyyən edir | | | | |
| Hekayədə müsbət və mənfi mənəvi keyfiyyətləri bir-birindən fərqləndirir və onları izah edir | | | | |

# 7. DÖVLƏTÇİLİK

**Məzmun xətti** Fərd və cəmiyyət

**Standart** 2.3.1. Dövlət quruluşlarını (respublika, monarxiya, diktatura) fərqləndirir.

**Məqsəd**
◊ Dövlət quruluşlarını sadalayır;
◊ Dövlət quruluşlarının xüsusiyyətlərini izah edir;
◊ Dövlət quruluşlarını fərqləndirir.

**İnteqrasiya** A-d.: 1.2.2.; 2.1.1.; 3.1.5.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, Venn diaqramı | Dərslik, iş vərəqləri, ölkə bayraqları, müxtəlif ölkələrə aid şəkil və plakatlar |

***Motivasiya:*** Müəllim şagirdlərin diqqətini lövhədə olan kral, prezident sözlərinə yönəldir.

– Bu iki sözü nə birləşdirir?

***Tədqiqat sualı:*** *Dövlət nədir və o, necə idarə olunur?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 18–19-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Dövlətin funksiyalarını qeyd edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________
4. ______________________________

***II qrup üçün iş vərəqi***

Dövlətin monarxiya və respublika idarəetmə formalarını müqayisə edin.



***III qrup üçün iş vərəqi***

Yeni dövlət yaradın. Onu adlandırın. Bu dövlətin qaydalarını tərtib edin.

| |
|---|
| Dövlətin adı: |
| Dövlətin idarəetmə forması: |
| Dövlətin simvolu: |
| Dövlətin şüarı: |
| Dövlətin qaydaları: |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Dövlət xalq üçün nələr edir?

– Hansı dövlət quruluşları ilə tanış oldunuz?

– Hansı dövlət quruluşu daha yaxşıdır? Nəyə görə?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dövlət xalqın hüquqlarını qoruyur. Dövlət cəmiyyətin üzvü olan hər bir insanın əmin-amanlıq şəraitində yaşaması, sağlam olması və firavan dolanması üçün çalışır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 19-cu səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Azərbaycan dövlətinin atributlarını (gerbi, bayrağı) çəkin və onların mənasını açıqlayın.

| Azərbaycan dövlətinin gerbi | Azərbaycan dövlətinin bayrağı |
|---|---|
| | |
| | |

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Dövlət quruluşlarını sadalayır | | | | |
| Dövlət quruluşlarının xüsusiyyətlərini izah edir | | | | |
| Dövlət quruluşlarını fərqləndirir | | | | |

# 8. DÖVLƏT ORQANLARI

**Məzmun xətti** — Fərd və cəmiyyət

**Standart**

2.3.2. Dövlət orqanlarını sadalayır;
2.3.3. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını sadə formada izah edir.

**Məqsəd**

◊ Əsas dövlət orqanlarını sadalayır;
◊ Dövlət orqanlarının funksiyalarını sadə formada izah edir;
◊ Dövlət orqanlarını bir-birindən fərqləndirir;
◊ Cəmiyyətin idarə edilməsində dövlət orqanlarının rolunu izah edir.

**İnteqrasiya** — A-d.: 1.2.2.; 2.1.1.; 2.2.2.; Riy.: 5.1.2.; 5.2.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, Venn diaqramı, səbəb-nəticə zənciri | Dərslik, iş vərəqləri, uşaq ensiklopediyası |

**Motivasiya:** Dövləti idarə etmək üçün nələr olmalıdır?
**Tədqiqat sualı:** *Dövlət orqanları nədir və onlar nə üçün lazımdır?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.
**Tədqiqatın aparılması:** Dərsliyin 20–21-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Cədvəldə dövlət orqanlarının adını, onların idarə etdiyi sahələri və yerinə yetirdiyi fəaliyyətləri yazın.

| Dövlət orqanı | Yerinə yetirdiyi fəaliyyət |
|---|---|
| | |

***III və IV qruplar üçün iş vərəqi***

Dövlət orqanlarını və onların fəaliyyətlərini oxlarla birləşdirin.

| Dövlət orqanı | Fəaliyyəti |
|---|---|
| ◊ Təhsil Nazirliyi | ◊ Qəzalar, təbii fəlakətlər baş verdikdə dərhal insanların köməyinə çatır |
| ◊ Sosial Müdafiə Fondu | ◊ Dünyada yaşayan azərbaycanlılarla əlaqələr yaradır |
| ◊ Səhiyyə Nazirliyi | ◊ Qocalara, əlillərə, çoxuşaqlı ailələrə yardım göstərir |
| ◊ İqtisadi İnkişaf Nazirliyi | ◊ Azərbaycanın ərazisində qaçqın və məcburi köçkünləri ölkə ərazisində yerləşdirir, onlara yardım göstərir |
| ◊ Daxili İşlər Nazirliyi | ◊ Qanunların və insanların hüquqlarının pozulmasının qarşısını alır |
| ◊ Ekologiya və Təbii Sərvətlər Nazirliyi | ◊ İnsanların təhsil hüququnu həyata keçirir |
| ◊ Fövqəladə Hallar Nazirliyi | ◊ Qanunların və insanların hüquqlarının pozulmasının qarşısını alır |
| ◊ Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi | ◊ Heyvanlar aləmini, atmosferi, təbii sərvətləri nəzarətdə saxlayır |
| ◊ Diasporla İş üzrə Dövlət Komitəsi | ◊ Ölkənin iqtisadiyyatını inkişaf etdirir |
| ◊ Məhkəmə | ◊ Ölkə vətəndaşlarının sağlamlığını qoruyur |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Dövlət orqanları haqqında nə öyrəndik?
– Məktəbin işi hansı dövlət orqanı tərəfindən tənzimlənir?
– Cəmiyyətimizin inkişafında dövlət orqanlarının nə kimi əhəmiyyəti var?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Ölkəni idarə etmək üçün müxtəlif dövlət orqanlarının olması vacibdir. Ölkədə hər bir sahə üzrə fəaliyyət göstərən xüsusi dövlət orqanının mövcud olması haqqında nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 21-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Aşağıda qeyd olunmuş dövlət orqanları haqqında qısa məlumat toplayın.
Məhkəmə; Vergilər Nazirliyi; Daxili İşlər Nazirliyi

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Əsas dövlət orqanlarını sadalayır | | | | |
| Dövlət orqanlarının funksiyalarını sadə formada izah edir | | | | |
| Dövlət orqanlarını bir-birindən fərqləndirir | | | | |
| Cəmiyyətin idarə edilməsində dövlət orqanlarının rolunu izah edir | | | | |

**Məzmun xətti** Fərd və cəmiyyət

**Standart**
2.2.1. «Vergi» və «Dövlət büdcəsi» anlayışlarını sadə şəkildə izah edir;
2.2.2. Dövlət büdcəsinin formalaşdırılması mənbələrini və xərclənmə istiqamətlərini sadalayır.

**Məqsəd**
- «Vergi», «Dövlət büdcəsi» və «Gəlir» anlayışlarını izah edir;
- Dövlət büdcəsinin formalaşdırılması mənbələrini və xərclənmə istiqamətlərini sadalayır;
- Dövlət büdcəsi ilə ailə büdcəsini müqayisə edir.

**İnteqrasiya** A-d.: 2.1.2.; 2.2.3.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, anlayışın çıxarılması, sxemlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Ailənin büdcəsi necə yaranır və nəyə xərclənir?
***Tədqiqat sualı:*** *Dövlət büdcəsi necə formalaşır və necə xərclənir?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 22–23-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***
Dövlət büdcəsinin ardıcıllıqla formalaşmasının sxemini yaradın.




***II qrup üçün iş vərəqi***
Oxlar ətrafında dövlət büdcəsinin nələrə xərclənməsini qeyd edin.



***III qrup üçün iş vərəqi***
Dövlət büdcəsinə dair şaxələndirmə (klaster) qurun.




***IV qrup üçün iş vərəqi***
Dövlət büdcəsi ilə ailə büdcəsini Venn diaqramı vasitəsilə müqayisə edin.



***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Dövlət büdcəsi haqqında nə öyrəndik?
– Dövlət büdcəsinin əhəmiyyəti nədir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dövlətin büdcəsi ölkədə fəaliyyət göstərən müəssisələrin və işləyən adi vətəndaşların dövlətə verdiyi vergilərin hesabına formalaşır və toplanan vəsait dövlət təşkilatlarının fəaliyyətinə və xalqın rifahına xərclənir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 23-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Dövlət büdcəsinə aid 3 sual yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| «Vergi», «Dövlət büdcəsi» və «Gəlir» anlayışlarını izah edir | | | | |
| Dövlət büdcəsinin formalaşdırılması mənbələrini və xərclənmə istiqamətlərini sadalayır | | | | |
| Dövlətin büdcəsi ilə ailə büdcəsini müqayisə edir | | | | |

# 10. İSTEHSAL VƏ İSTEHLAK

| | |
|---|---|
| **Məzmun xətti** | Fərd və cəmiyyət<br>Sağlamlıq və təhlükəsizlik |
| **Standart** | 2.3.3. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını sadə formada izah edir;<br>2.4.1. İstehlakçı hüquqlarının mahiyyətini sadə şəkildə şərh edir;<br>4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir. |
| **Məqsəd** | ◊ İstehsal, istehsalçı, istehlak, istehlakçı anlayışlarını izah edir;<br>◊ İstehsalçı və istehlakçı arasında olan əlaqələri izah edir;<br>◊ İstehlakçı hüquqlarının mahiyyətini şərh edir;<br>◊ Dövlət orqanlarının funksiyalarını izah edir;<br>◊ Nümunələr əsasında istehsal olunmuş məhsulun sağlamlığın qorunmasına təsirini izah edir. |
| **İnteqrasiya** | A-d.: 2.1.2.; 3.1.4.; T-i.: 2.2.6. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, anlayışın çıxarılması, sxemlə iş, cədvəllə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərin diqqətini dərsliyin 25-ci səhifəsində olan şəkillərə yönəldir. I şəkildə Konserv zavodunda fəhlə bankaları hazırlayır, II şəkildə isə alıcı konservləşdirilmiş tərəvəzi alır.



Müəllim şagirdlərə suallarla müraciət edir:
– Şəkillərdə nə görürsünüz?
– Bu şəkilləri nə birləşdirir?

***Tədqiqat sualı:*** *İstehsal və istehlak nədir? İstehlakçının hansı hüquqları var və onları nə üçün bilmək lazımdır?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 24–25-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

İstehlakçı hansı hüquqlara malikdir? Sxemin ətrafında yazın.




***III və IV qruplar üçün iş vərəqi***

İstehlakçı cədvəldə qeyd olunan hallarla rastlaşdıqda hansı hüquqlarından istifadə edə bilər?

| **Problem** | **İstehlakçının hüququ** |
|---|---|
| Vaxtı ötmüş ərzaq | |
| Keyfiyyətsiz ərzaq | |
| Sağlamlıq üçün zərərli ərzaq | |

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Hər bir insanın yaşamaq, sağlamlığını qorumaq və normal fəaliyyət göstərmək üçün zəruri olanları almağa ixtiyarı var. Bu, onun istehlakçı hüququdur. Dövlət istehlakçının hüquqlarını qanunlar vasitəsilə qoruyur. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 25-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Dükandan alınan hər hansı bir ərzağın tərkibi, tarixi, istehsalçı haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| İstehsal, istehsalçı, istehlak, istehlakçı anlayışlarını izah edir | | | | |
| İstehsalçı və istehlakçı arasında olan əlaqələri izah edir | | | | |
| İstehlakçı hüquqlarının mahiyyətini şərh edir | | | | |
| Dövlət orqanlarının funksiyalarını izah edir | | | | |
| Nümunələr əsasında istehsal olunmuş məhsulun sağlamlığın qorunmasına təsirini izah edir | | | | |

# 11. SIĞORTANIN ƏHƏMİYYƏTİ

**Məzmun xətti** Fərd və cəmiyyət

**Standart** 2.2.3. «Sığorta» anlayışını və sığortanın əhəmiyyətini sadə formada izah edir.

**Məqsəd**
- ◊ «Sığorta» anlayışını izah edir;
- ◊ Sığortanın növlərini sadalayır;
- ◊ Sığortanın tərəflərini təyin edir;
- ◊ Sığortanın əhəmiyyətini izah edir.

**İnteqrasiya** A-d.: 1.2.3.; 1.3.5.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, rollu oyun | Dərslik, iş vərəqləri, uşaq ensiklopediyası |

***Motivasiya:*** Müəllim şagirdlərə kiçik bir hadisə danışır: «Ailə yeni avtomobil almışdır. Bütün ailə üzvləri çox sevinir, avtomobildə gəzintilərə gedirdilər. Lakin bu sevinc hissi çox uzun çəkmədi. Bir həftədən sonra avtomobil qəzaya uğradı və yararsız hala düşdü. Ata çox təəssüfləndi və problemin həlli yollarını axtarmağa başladı».

– Sizcə, kimsə və ya nəsə avtomobilin təmir xərclərini ödəməkdə ataya kömək edə bilərmi?

***Tədqiqat sualı:*** *Sığorta və onun əhəmiyyəti nədir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 26–27-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Yeni sığortalanan və sığortalayan şəxs, artıq sığortadan keçmiş digər 2 şəxs arasında mümkün olan dialoq qurun və rollar vasitəsilə göstərin.



***II qrup üçün iş vərəqi***

Cədvəldə sığorta növləri və onların şərtləri haqqında yazın.

| № | Sığortanın növləri | Sığortanın şərtləri |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |

***III qrup üçün iş vərəqi***

Sığortası olmayan şəxsi sığortanın onun üçün əhəmiyyətli olmasına necə inandırardınız?

________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Sığorta haqqında nə öyrəndik?

– Sığortalamaya nə vaxt ehtiyac olur və bunu nə vaxt etmək vacibdir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsan hər şeyini itirə bilər. Bu zaman sığorta onun köməyinə gəlir, dəymiş ziyanın məbləğini ödəyir. Sığortanın əhəmiyyəti haqqında şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 27-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Sığortanın növləri haqqında qısa məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| «Sığorta» anlayışını izah edir | | | | |
| Sığortanın növlərini sadalayır | | | | |
| Sığortanın tərəflərini təyin edir | | | | |
| Sığortanın əhəmiyyətini izah edir | | | | |

# 12. VƏTƏNDAŞLIQ

| | |
|---|---|
| **Məzmun xətti** | Fərd və cəmiyyət |
| **Standart** | 2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır;<br>2.4.2. Hüquq və vəzifələri barədə kiçik təqdimatlar edir. |
| **Məqsəd** | ◊ İnsanı vətəndaş kimi səciyyələndirən cəhətləri sadalayır;<br>◊ Vətəndaşlığın şərtlərini sadalayır;<br>◊ Vətəndaşlığın hüquq və vəzifələrini müəyyən edir;<br>◊ Vətəndaşlığın əhəmiyyətini qiymətləndirir. |
| **İnteqrasiya** | A-d.: 3.1.4.; 3.1.5.; İnf.: 4.1.2. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, inşa | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərə kiçik bir hadisə danışır: – Uşaq şəhərdə itdi. O, kim olduğunu polisə söylədi.

– Polislər necə əmin ola bilərlər ki, onun özü haqqında verdiyi məlumat doğrudur?

– Vətəndaşlığı nə təsdiq edir?

***Tədqiqat sualı:*** *Vətəndaşlıq nədir? Vətəndaşların hüquq və vəzifələri hansılardır?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 28–29-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Azərbaycanda vətəndaşlığın şərtləri hansılardır?

1. ____________________
2. ____________________
3. ____________________

***III və IV qruplar üçün iş vərəqi***
Azərbaycanda vətəndaşların hüquq və vəzifələrini qeyd edin.

| **Vətəndaşın hüquqları** | **Vətəndaşın vəzifələri** |
|---|---|
| | |
| | |
| | |
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Vətəndaşlıq haqqında nə öyrəndik?
– Vətəndaşlığı təsdiq edən sənədin bizim üçün nə kimi əhəmiyyəti var?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Azərbaycan Respublikasının ərazisində doğulanlar; valideyn və ya onlardan biri Azərbaycan Respublikasının vətəndaşı olanlar; Azərbaycan Respublikasının vətəndaşlığını qəbul edən şəxslər Azərbaycan vətəndaşı sayılır, onların vətəndaşlığını təsdiq edən sənəd doğum haqqında şəhadətnamə və şəxsiyyət vəsiqəsidir. Ölkənin hər bir vətəndaşının müəyyən hüquq və vəzifələrinin olması haqqında şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 29-cu səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Mən Azərbaycan vətəndaşıyam» mövzusunda inşa yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| İnsanı vətəndaş kimi səciyyələndirən cəhətləri sadalayır | | | | |
| Vətəndaşlığın şərtlərini sadalayır | | | | |
| Vətəndaşın hüquq və vəzifələrini müəyyən edir | | | | |
| Vətəndaşlığın əhəmiyyətini qiymətləndirir | | | | |

# 13. UŞAQ HÜQUQLARI KONVENSİYASI

| | |
|---|---|
| **Məzmun xətti** | Fərd və cəmiyyət |
| **Standart** | 2.4.2. Hüquq və vəzifələri barədə kiçik təqdimatlar edir. |
| **Məqsəd** | ◊ Uşaq hüquqlarını sadalayır;<br>◊ Uşaqlarla bağlı ailənin/valideynlərin və dövlətin vəzifələrini izah edir;<br>◊ Uşaq hüquqlarının qorunma yollarını sadalayır;<br>◊ Dünya və dövlət səviyyəsində uşaq hüquqlarının qorunma yollarını izah edir. |
| **İnteqrasiya** | A-d.: 2.1.1.; 2.1.2.; 3.1.4.; 3.1.5.; Riy.: 5.1.2. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllə iş, proqnozetmə | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərin diqqətini lövhədə yazılmış söz birləşmələrinə cəlb edir: *Uşaq şənlənir, uşaq məktəbə gedir, uşaq ac qalıb ağlayır, uşaq küçədə maşınları yuyur, uşaq dilənir, uşaq həyətdə yoldaşları ilə oynayır.*

– Lövhədə olan söz birləşmələrini necə qruplaşdırmaq olar? Yaranmış qrupları adlandırın.

**Müəllim üçün qeyd:** Qrupları yaratdıqdan sonra müəllim suallar vasitəsilə şagirdlərin diqqətini bir qrupda uşaqların hüquqlarının pozulmasına, digər qrupda isə hüquqlarının qorunmasına yönəldir.

Müəllim şagirdlərə sualla müraciət edir:

– Uşaqların hüquqları daha necə pozula bilər?

***Tədqiqat sualı:*** *Uşaqların hüquqlarının qorunması nə üçün lazımdır? Uşaqların hüquqları hansı yollarla qorunur?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 30–31-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Uşaq hüquqlarının pozulmasına dair nümunələr gətirin.

1. ______________________________
2. ______________________________
3. ______________________________
4. ______________________________

Nəticə: Uşaqların hüquqlarının pozulmasının səbəbləri açıqlanır.

______________________________

***III və IV qruplar üçün iş vərəqi***

Cədvəldə uşaqların hüquqlarının dövlət, təşkilat(lar) və ailə tərəfindən qorunma yollarını qeyd edin.

***Məlumatın mübadiləsi və müzakirəsi:***

| Dövlət | Təşkilat(lar) – BMT: UNİCEF | Ailə |
|---|---|---|
| | | |

– Uşaq hüquqları haqqında nə öyrəndik?
– Uşaq Hüquqları Konvensiyası nə məqsədlə qəbul edildi?
– Azərbaycan dövləti uşaq hüquqlarının müdafiəsi üçün nə edir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Ölkədə yaşayan hər bir uşağın sağlam, harmonik, xoşbəxt böyüməsi üçün onların hüquqları ailə, dövlət, təşkilatlar tərəfindən qorunmalıdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 31-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Mənim hüquqlarım valideynlərim və məktəb tərəfindən necə qorunur?» mövzusunda inşa yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Uşaq hüquqlarını sadalayır | | | | |
| Uşaqlarla bağlı ailənin/valideynlərin və dövlətin vəzifələrini izah edir | | | | |
| Uşaq hüquqlarının qorunma yollarını sadalayır | | | | |
| Dünya və dövlət səviyyəsində uşaq hüquqlarının qorunma yollarını izah edir | | | | |

# 14. HƏR ŞEY MÜNASİBƏTDƏN BAŞLAYIR

**Məzmun xətti**
Fərd və cəmiyyət
Mənəviyyat

**Standart**
2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır;
3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir.

**Məqsəd**
◊ İnsanı şəxsiyyət kimi səciyyələndirən cəhətləri sadalayır;
◊ İnsanı şəxsiyyət kimi səciyyələndirən cəhətləri izah edir;
◊ İnsanı şəxsiyyət kimi səciyyələndirən cəhətlər barədə təqdimatlar edir;
◊ Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir;
◊ Münasibətin qurulmasında insanın keyfiyyətlərinin mühüm əhəmiyyət kəsb etdiyini izah edir;
◊ Şəxsiyyəti səciyyələndirən xüsusiyyətləri izah edir.

**İnteqrasiya**
A-d.: 3.1.5.; Riy.: 5.1.2.; İnf.: 4.1.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | T-sxem, beyin həmləsi, cədvəllərlə iş, modelləşdirmə, özünüqiymətləndirmə | Dərslik, iş vərəqləri |

*Motivasiya:* Səmimi davranır, ətrafdakılara qayğısız yanaşır, ədalətlidir, lovğalanır, digərlərinə ləqəb qoyur, digəri səhv etdikdə ona səhvini düzəltməyə kömək edir, ətrafdakılara hörmətlə yanaşır, başqası səhv etdikdə ona gülür, ən yaxşısını özünə götürür, ətrafdakılara qayğı ilə yanaşır.

– Lövhədə nə görürsünüz?
– İnsanlara xas olan bu keyfiyyətləri necə qruplaşdırmaq olar? Hər qrupa ad verin.
– I qrupdakı keyfiyyətlərə malik olan insanlar ətrafdakılara necə yanaşır?
– II qrupdakı keyfiyyətlərə malik olan insanlar ətrafdakılara necə yanaşır?

*Tədqiqat sualı: Cəmiyyətdə insan özünə və ətrafdakılara necə yanaşmalıdır?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 32–33-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Parkda iki şagird müxtəlif oturacaqda əyləşib dondurma yeyirdi. Biri dondurmanı yedikdən sonra kağızını zibil qutusuna atdı, ikinci oğlan isə kağızı yerə tulladı. İki şagird arasında hansı dialoq ola bilər? Bu dialoqu qurun və səhnələşdirin.

*III və IV qruplar üçün iş vərəqi*

Tənəffüsdə bir şagird o biri şagirdə dərsdə etdiyi səhvə görə gülür, onu ələ salır. Digər şagirdlər isə bunu görürlər. Sinif şagirdlərinin yerində siz olsaydınız, necə hərəkət edərdiniz? Bu dialoqu qurun və səhnələşdirin.

*Məlumatın mübadiləsi və müzakirəsi:*

– Hansı səbəbdən bəzi insanlar etiket qaydalarına riayət etmir, ətrafdakılara hörmətlə yanaşmırlar?

– Ətrafdakılar tərəfindən etiket qaydalarına riayət olunmadığını müşahidə etdikdə nə etmək lazımdır?

– Burada məlumatlandırmanın nə kimi rolu var?

*Nəticələrin çıxarılması və ümumiləşdirmə:* Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsan həm özünə, həm də ətrafdakılara hörmət və qayğı ilə yanaşmalıdır. Bu cür şəxslərə ətrafdakılar da hörmətlə yanaşır. Bu münasibətləri qurmaq üçün isə hər bir şəxsiyyət daim öz üzərində işləməlidir: müsbət keyfiyyətləri özündə formalaşdırmalıdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

*Yaradıcı tətbiqetmə:* Dərsliyin 33-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

*Ev tapşırığı:* Cədvəli doldurun.

| Məndə olan müsbət keyfiyyətlər | Hansı müsbət keyfiyyətləri özümdə formalaşdırmalıyam |
|---|---|
| | |

*Refleksiya və qiymətləndirmə:* Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

*Nəticələr üzrə qiymətləndirmə:* Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| İnsanı şəxsiyyət kimi səciyyələndirən cəhətləri sadalayır | | | | |
| İnsanı şəxsiyyət kimi səciyyələndirən cəhətləri izah edir | | | | |
| İnsanı şəxsiyyət kimi səciyyələndirən cəhətlər barədə təqdimatlar edir | | | | |
| Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir | | | | |
| Münasibətin qurulmasında insanın keyfiyyətlərinin mühüm əhəmiyyət kəsb etdiyini izah edir | | | | |
| Şəxsiyyəti səciyyələndirən xüsusiyyətləri izah edir | | | | |

# 15. QARŞILIQLI ANLAŞMA

**Məzmun xətti** Mənəviyyat

**Standart**
3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına (şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə «yox» demək) riayət edir;
3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir.

**Məqsəd**
◊ Tənqidi münasibətlərin yaranması səbəblərini izah edir;
◊ Tənqidi münasibətdə nəzakət qaydalarına riayət edir;
◊ Qarşılıqlı anlaşmaya həsr olunmuş kiçik təqdimatlar edir;
◊ Münasibətləri nəzakət qaydalarına riayət olunması nöqteyi-nəzərindən qiymətləndirir.

**İnteqrasiya** A-d 1.1.1.; 1.2.2.; Riy. 5.2.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərə qısa hadisə danışır.

Tənəffüsdə Mehman Nübarın partasının yanından keçəndə təsadüfən onun əşyalarını yerə saldı. Mehman Nübarın əşyalarını yerdən qaldıraraq ondan üzr istədi. Nübar onu bağışladı.

Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:

– Bu balaca hadisə haqqında siz nə deyə bilərsiniz?
– Əgər Mehman Nübardan üzr istəməsəydi, nə baş verərdi?
– Qarşılıqlı anlaşma nədir?

***Tədqiqat sualı:*** *Qarşılıqlı anlaşma nə vaxt pozulur? Qarşılıqlı anlaşma bizə nə üçün lazımdır?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 34–35-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Mətnə əsasən cədvəli doldurun.

| Hekayənin qəhrəmanı | Hansı nəzakət qaydalarını pozub? | Nəzakət qaydalarının pozulmasının səbəbi | Hekayənin qəhrəmanında hansı bacarığın olması vacibdir? | Hansı nəzakət qaydalarına riayət edib? |
|---|---|---|---|---|
| Sona | | | | |
| Səlim | | | | |

***III qrup üçün iş vərəqi***
Mətnə əsasən cədvəli doldurun.

| | |
|---|---|
| Hekayədə qarşılıqlı anlaşma necə pozulmuşdur? | |
| Səlim öz rəsminin dondurma damcısı ilə bulaşmasını görəndə nə hiss etdi? | |
| Sona ilə necə rəftar etdi? Mətnə əsaslanaraq sübut gətirin. | |
| Səlimin davranışı nəyə gətirib çıxartdı? | |
| Qarşılıqlı anlaşmanın bərpa olunması üçün Səlim nə etdi? | |
| Səlimin davranışına münasibətiniz necədir? Nə üçün? | |

***IV qrup üçün iş vərəqi***
Mətnə əsasən cədvəli doldurun.

| | |
|---|---|
| Səlimin rəsmini bulaşdırdıqda Sona nə hiss etdi? | |
| Sona bu zaman nə etdi? | |
| Sona Səlimin davranışından özünü necə hiss etdi? | |
| Sonaya vəziyyətdən çıxmaqda kim kömək etdi? | |
| Sona yolda Səlimin babasını görəndə özünü necə apardı? | |
| Sonanın davranışına münasibətiniz necədir? | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Qarşılıqlı anlaşma haqqında nə öyrəndik?
– Qarşılıqlı anlaşmanı nə poza bilər?
– Qarşılıqlı anlaşmanı pozmaq, yoxsa yaratmaq asandır? Nə üçün?
– Qarşılıqlı anlaşmanın yaranmasında nəzakət qaydalarının nə kimi rolu var?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Qarşılıqlı anlaşma ünsiyyətdə böyük müsbət rol oynayır. İnsanların ünsiyyətini asanlaşdırır, onları yaxınlaşdırır. Qarşılıqlı anlaşmanı pozmaq onu yaratmaqdan daha asandır. Bunun üçün insanlar bir-biri ilə ünsiyyət zamanı müxtəlif tənqidi vəziyyətlərə düşərkən nəzakət qaydalarına riayət etməlidirlər. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 35-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Qarşılıqlı anlaşmanın pozulmasına aid bir neçə misal yazın və bu situasiyalarda hansı nəzakət qaydalarının pozulduğunu qeyd edin.

| Qarşılıqlı anlaşmanın pozulması | Vacib olan nəzakət qaydaları |
|---|---|
| | |

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Tənqidi münasibətlərin yaranması səbəblərini izah edir | | | | |
| Tənqidi münasibətdə nəzakət qaydalarına riayət edir | | | | |
| Qarşılıqlı anlaşmaya həsr olunmuş kiçik təqdimatlar edir | | | | |
| Münasibətləri nəzakət qaydalarına riayət olunması nöqteyi-nəzərindən qiymətləndirir | | | | |

# 16. ƏDƏB-ƏRKAN QAYDALARI

| | |
|---|---|
| *Məzmun xətti* | Mənəviyyat |
| *Standart* | 3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına (şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə «yox» demək) riayət edir;<br>3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir;<br>3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir. |
| *Məqsəd* | ◊ Ədəb-ərkan qaydalarını sadalayır;<br>◊ Ədəb-ərkan qaydalarını izah edir;<br>◊ Ünsiyyət mədəniyyətinin mahiyyətini şərh edir;<br>◊ Tənqidi münasibətdə nəzakət qaydalarına riayət edir;<br>◊ Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir. |
| *İnteqrasiya* | A-d.: 1.2.2.; Riy.: 5.1.2.; T-i.: 2.2.7. |

| *Dərsin tipi* | *İş formaları* | *İş üsulları* | *Resurslar* |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərə iki yoldaş arasında olan dialoqu təqdim edir: «Ev tapşırığını öyrənmək üçün Zeynal Murada zəng edir. Murad telefonu götürür.

Murad: – Allo!

Zeynal: – Murad, mənə Azərbaycan dilindən bugünkü ev tapşırığını de.

Murad: – Ev tapşırığı səhifə 16-da tapşırıq 45 və 46-dır.

Zeynal ev tapşırığını dinləyib dəstəyi yerinə qoydu».

Müəllim şagirdlərə suallarla müraciət edir:

– Bu iki oğlan arasında olan dialoqda nə müşahidə etdiniz?

– Zeynal və onun danışığı haqqında nə deyərdiniz?

***Tədqiqat sualı:*** *Ədəb-ərkan qaydaları nədir və onlara riayət etmək nə üçün lazımdır?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 36–37-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Verilən siyahıda ədəb-ərkan qaydalarını əks etdirən cümlələrin qarşısında «+», ədəb-ərkan qaydalarını əks etdirməyən cümlələrin qarşısında isə «–» işarəsini qeyd edin.

– Yanında iki şəxs söhbət edərsə, onların söhbətinə qarışmamalı, gizlin qulaq asmamalı, özləri müraciət etməsələr, söhbətə qoşulmamalıdır.
– Özünə hörmət edən insan qeybət, böhtan və yalandan çəkinməməli, bu cür xasiyyətli insanlara ünsiyyətdə yaxın olmalıdır.
– Danışarkən qısa, yığcam ifadələr işlətməli, deyəcəyi fikri beynində bişirməmiş dilinə gətirməməlidir.
– Deyilənlərə axıra qədər qulaq asmamış cavab vermək vacibdir.
– Nalayiq sözlər işlətməmək, dilini söyüşə öyrətməmək.
– Danışarkən saçı ilə oynamaq, barmaqlarını şaqqıldatmaq, çiyinlərini oynatmaq.
– Hər bir şəxs iştirak etdiyi məclisdə çox danışmalıdır, başqasının sözünü yarımçıq kəsmək də olar.
– Kiminsə əşyasını götürmək istədikdə, ondan icazə almaq lazımdır.

***III və IV qruplar üçün iş vərəqi***

Öz ədəb-ərkan qaydaları olan yeni bir dövlət haqqında fikirləşin. Orada hansı yeni ədəb-ərkan qaydalarının olmasını düşünün. Dövlətin simvolunu, şüarını yaradın.

Dövlətin adı

| Dövləti əks etdirən simvol | Dövləti əks etdirən ədəb-ərkan qaydaları | Dövləti əks etdirən şüar |
|---|---|---|
| | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Ədəb-ərkan qaydaları haqqında nə öyrəndik?
– Ədəb-ərkan qaydalarının cəmiyyətdə rolu nədir?
– Ədəb-ərkan qaydalarına riayət edən insan cəmiyyət tərəfindən necə qəbul edilir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Yaşadığı cəmiyyətdə hər bir insanın ədəb-ərkan qaydalarına riayət etməsi vacibdir. Bu qaydalara riayət edən insan cəmiyyətdə müsbət qəbul edilir, yaşadığı mühitdə hörmət qazanır, hətta ətrafdakıların da inkişafına müsbət təsir edir. Bu da bütövlükdə mədəniyyəti əks etdirir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Müəllimin seçimindən asılı olaraq dərsliyin 37-ci səhifəsindəki 3, yaxud 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Bu gün ərzində aşağıdakı ədəb-ərkan qaydalarına riayət etdim» siyahı tərtib edin və yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Ədəb-ərkan qaydalarını sadalayır | | | | |
| Ədəb-ərkan qaydalarını izah edir | | | | |
| Ünsiyyət mədəniyyətinin mahiyyətini şərh edir | | | | |
| Tənqidi münasibətdə nəzakət qaydalarına riayət edir | | | | |
| Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir | | | | |

# 17. MƏSULİYYƏT HİSSİ

| | |
|---|---|
| *Məzmun xətti* | Təbiət və biz<br>Fərd və cəmiyyət |
| *Standart* | 1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir;<br>2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır. |
| *Məqsəd* | ◊ «Məsuliyyət» anlayışını izah edir;<br>◊ Məsuliyyəti əks etdirən nümunələr gətirir;<br>◊ İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətləri izah edir;<br>◊ Yaşadığı ərazidə ekologiyanı sağlamlaşdırma yollarını izah edir. |
| *İnteqrasiya* | A-d.: 1.2.3.; 1.2.5.; Tex.: 1.3.4.; T-i.: 2.2.6. |

| *Dərsin tipi* | *İş formaları* | *İş üsulları* | *Resurslar* |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, rollu oyun | Dərslik, iş vərəqləri |

*Motivasiya:* Müəllim şagirdlərə qısa əhvalat danışır: «Müəllim Anarla İlhama ekologiya haqqında divar qəzeti hazırlamağı tapşırır. Anar qəzet üçün şəkillər, İlham isə məlumat toplamalı idi. Ev tapşırıqlarını yerinə yetirdikdən sonra Anar qəzet üçün lazım olan bütün şəkilləri topladı. İlham isə ev tapşırıqlarını yerinə yetirdi və kompyuter qarşısında əyləşib öz sevimli oyununu oynadı. Fikirləşdi ki, bir az oynadıqdan sonra məlumat toplayar. Müəyyən vaxtdan sonra onun yuxusu gəldi. Saata baxdıqda artıq çox gec olduğunu gördü və yatağına girib yatdı. Səhər məktəbə yollandıqda yadına düşdü ki, qəzet üçün məlumat toplamayıb. O, öz-özünə fikirləşdi: «Heç nə olmaz, hələ vaxt var, bu gün toplayaram». Siniflər öz maraqlı divar qəzetlərini həmin gün asdılar və nümayiş etdirdilər. Anar və İlhamın hazırladığı sinif qəzetində isə yalnız şəkillər var idi».

Müəllim şagirdlərə suallarla müraciət edir:

– Bu əhvalat nə haqqındadır?

– Hər bir oğlan haqqında nə demək olar?

– İlhamın hansı keyfiyyəti divar qəzetinin tamamlanmasına mane oldu?

*Tədqiqat sualı: Məsuliyyət nədir? Məsuliyyətli olmaq nə üçün vacibdir?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 38–39-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

«Məsuliyyətli olmaq uğur əldə etməyə imkan yaradır» mövzusunda hekayə qurun və ona aid şəkil çəkin.

| Hekayə | Şəkil |
|---|---|
| | |

***III və IV qruplar üçün iş vərəqi***

«Məsuliyyətsiz insan» adlı hekayə qurun və onu səhnələşdirin.



*Məlumatın mübadiləsi və müzakirəsi:*

– Məsuliyyətli olmağın əhəmiyyəti nədir?

– Məsuliyyətli insan nələrə nail ola bilər?

*Nəticələrin çıxarılması və ümumiləşdirmə:* Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Məsuliyyət öz hərəkətlərinə görə cavabdehlikdir. İnsan hər bir işinə, fəaliyyətinə çox böyük məsuliyyətlə yanaşmalıdır yalnız bu zaman o, yüksək nailiyyətlər qazana bilər. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

*Yaradıcı tətbiqetmə:* Dərsliyin 39-cu səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

*Ev tapşırığı:* «Mən nə zaman məsuliyyətli olmuşam?» həyatınızdan faktları yada salın və yazın.

*Refleksiya və qiymətləndirmə:* Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

*Nəticələr üzrə qiymətləndirmə:* Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| «Məsuliyyət» anlayışını izah edir | | | | |
| Məsuliyyəti əks etdirən nümunələr gətirir | | | | |
| İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətləri izah edir | | | | |
| Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırma yollarını izah edir | | | | |

# 18. FƏDAKARLIQ

**Məzmun xətti** Mənəviyyat

**Standart** 3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.

**Məqsəd**
- ◊ Fədakarlıq anlayışının mənasını izah edir;
- ◊ Fədakarlıq ilə digər mənəvi keyfiyyətləri fərqləndirir;
- ◊ Fədakarlığa aid nümunələr gətirir;
- ◊ Fədakarlığın cəmiyyət üçün əhəmiyyətini izah edir.

**İnteqrasiya** A-d.: 1.1.1.; 1.2.2.; 2.2.2.; 3.1.5.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Venn diaqramı, BİBÖ, beşlik, esse | Dərslik, iş və-rəqləri, qəzet, jurnallar, İnternet, M.Çəmənlinin «Mübariz» poves-tinin mətni |

*Motivasiya:* Müəllim şagirdlərin cavablarını BİBÖ cədvəlinin I və II sütununda qeyd edir.

| Fədakarlıq haqqında nə bilirik? | Fədakarlıq haqqında nə bilmək istəyirik? | Fədakarlıq haqqında nə öyrəndik? |
|---|---|---|
| | | |

*Tədqiqat sualı: Fədakarlığın cəmiyyət üçün əhəmiyyəti nədir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 40–41-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

*Təmənnasızlıq* və *fədakarlığı* müqayisə edin. Venn diaqramında oxşar və fərqli cəhət-ləri qeyd edin.

*Təmənnasızlıq* *Fədakarlıq*



***III və IV qruplar üçün iş vərəqi***

*Xeyirxahlıq* və *fədakarlığı* müqayisə edin. Venn diaqramında oxşar və fərqli cəhətləri qeyd edin.




***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Fədakarlıq haqqında nə öyrəndik?

– Nə üçün fədakar olmaq lazımdır?

– Vətənin müdafiəsində fədakarlığın nə kimi əhəmiyyəti var?

Müəllim şagirdlərin cavablarını BİBÖ cədvəlinin III sütununda qeyd edir.

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Fədakarlıq – lazım olduqda başqalarının mənafeyi naminə, yaxud mühüm bir iş uğrunda, Vətənin müdafiəsində canını qurban etməyə hazır olmaqdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 41-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Azərbaycanın milli qəhrəmanları haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Fədakarlıq anlayışının mənasını izah edir | | | | |
| Fədakarlıq ilə digər mənəvi keyfiyyətləri fərqləndirir | | | | |
| Fədakarlığa aid nümunələr gətirir | | | | |
| Fədakarlığın cəmiyyət üçün əhəmiyyətini izah edir | | | | |

# 19. İSLAM DİNİ NECƏ YARANDI?

**Məzmun xətti** Mənəviyyat

**Standart**
3.2.1. Nağıl, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir;
3.3.1. İslam dininin böyük şəxsiyyətlərini tanıyır;
3.3.2. İslam Peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.

**Məqsəd**
- İslam dininin böyük şəxsiyyətlərinin adlarını sadalayır;
- İslam dininin böyük şəxsiyyətlərini təsvir edir;
- İslam Peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir;
- İslam dininin böyük şəxsiyyətlərinin həyatı nümunəsində mənəvi keyfiyyətləri izah edir.

**İnteqrasiya** A-d.: 2.2.2.; 2.2.5.; Riy.: 5.1.2.; T-i. 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | BİBÖ, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

*Motivasiya:* Müəllim şagirdlərin diqqətini dərslikdə olan şəkillərə cəlb edir. Müxtəlif dinlərin nümayəndələrinin şəkilləri verilib (İslam, xristian, buddizm və s.)






Təqdim olunmuş şəkilləri birləşdirən nədir?

*Tədqiqat sualları:*

| İslam dinini yaradan şəxsiyyət haqqında biz nə bilirik? | İslam dinini yaradan şəxsiyyət haqqında biz nə bilmək istəyirik? | İslam dinini yaradan şəxsiyyət haqqında biz nə öyrəndik? |
|---|---|---|
| | | |

Müəllim BİBÖ üsulundan istifadə etməklə şagirdlərin cavabları əsasında BİBÖ cədvəlinin I və II sütunlarını doldurur.

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 42–43-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Məhəmməd necə Peyğəmbər oldu, İslam dinini necə yaratdı?

______________________________________________________________

| İslam dinini yaratmazdan əvvəl Məhəmməd peyğəmbərin həyatı | İslam dinini yaratdıqdan sonra Məhəmməd peyğəmbərin həyatı |
|---|---|
| | |

***III və IV qruplar üçün iş vərəqi***

Məhəmməd peyğəmbər necə insan idi? Onu şəxsiyyət kimi necə qiymətləndirmək olar?

| Yanaşma sahəsi | Mətndən nümunələr |
|---|---|
| Yaşayış şəraiti | |
| Geyimi | |
| Yeməyi | |
| İnsanlara münasibəti | |

Onun şəxsiyyəti haqqında nəticə ____________________________________

______________________________________________________________

*Məlumatın mübadiləsi və müzakirəsi:*

– İslam dinini yaradan şəxsiyyət haqqında biz nə öyrəndik?
– Məhəmməd peyğəmbər necə insan idi?
– Ətrafdakılar Məhəmməd peyğəmbərə necə yanaşırdılar?
– Nə üçün insanlar Məhəmməd peyğəmbərə inanırdılar, ona hörmət edirdilər?

*Nəticələrin çıxarılması və ümumiləşdirmə:* Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Şagirdlərin cavablarına əsaslanaraq BİBÖ-nün III sütununu doldurur. Məhəmməd peyğəmbər İslam dininin yaradıcısı idi. O, çox sadə və xeyirxah idi, insanı uca tuturdu. İslam dinini yaratmasına baxmayaraq, başqa dinlərə hörmətlə yanaşırdı. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

*Yaradıcı tətbiqetmə:* Dərsliyin 43-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

*Ev tapşırığı:* Məhəmməd peyğəmbər haqqında uşaq jurnalı üçün məqalə yazın. Onun şəxsiyyətinə münasibətinizi bildirin.

*Refleksiya və qiymətləndirmə:* Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

*Nəticələr üzrə qiymətləndirmə:* Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| İslam dininin böyük şəxsiyyətlərinin adlarını sadalayır | | | | |
| İslam dininin böyük şəxsiyyətlərini təsvir edir | | | | |
| İslam Peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir | | | | |
| İslam dininin böyük şəxsiyyətlərinin həyatı nümunəsində mənəvi keyfiyyətləri izah edir | | | | |

# 20. İSLAM DİNİNİN YAYILMASI

**Məzmun xətti** Fərd və cəmiyyət

**Standart**
2.1.1. Azərbaycan cəmiyyətini sadə şəkildə təsvir edir;
2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.
3.3.1. İslam dininin böyük şəxsiyyətlərini tanıyır.

**Məqsəd**
◊ İslam dininin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
◊ Azərbaycan cəmiyyətində digər xalqların və dinlərin nümayəndələrinə münasibəti sadə şəkildə izah edir;
◊ İslam dinin yayılmasında böyük şəxsiyyətlərin rolunu sadə şəkildə izah edir.

**İnteqrasiya** A-d.: 1.2.1.; 1.2.2.; Riy.: 5.2.2.; İnf.: 1.2.1.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili | Dərslik, iş vərəqləri |

*Motivasiya:* Lövhədə Qurani Kərimdən Məhəmməd peyğəmbərin bir kəlamı yazılır: *«İnsanın dini onun ağlıdır. Ağlı olmayanın dini də yoxdur».*

– Bu, nədir?

– Bu kəlamın mənasını necə başa düşürsünüz?

*Tədqiqat sualı: İslam dininin qısa müddətdə geniş ərazilərə yayılıb çoxlu insan tərəfindən qəbul edilməsi nə ilə bağlı idi?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 44–45-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Cədvəldə İslam dininin digər dinlərlə oxşar cəhətlərini yazın.

| İslam dininin digər dinlərlə oxşarlığı nədədir? |
|---|
| |
| |
| |
| |

***III və IV qruplar üçün iş vərəqi***
İslam dininin yaılmasında rolu olan böyük şəxsiyyətlər haqqında yazın.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– İslam dininin yaılmasında hansı böyük şəxsiyyətlərin rolu olmuşdur?
– İslam dinində digər dinlərin nümayəndələrinə münasibət necədir?
– Azərbaycanda hansı dinin daşıyıcıları üstünlük təşkil edir? Digər dinlərə etiqad edən insanlara münasibət necədir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İslam dinində də yüksək mənəvi dəyərlər öz əksini tapır. Dinlərin hamısında insanları dürüstlüyə, insanpərvərliyə, ədalətli olmağa səsləyən prinsiplər var. Ona görə də islam dini qısa müddətdə, xəlifələr Əbu Bəkr, Ömər, Osman və Əlinin zamanında geniş ərazilərə yaılaraq çoxlu insan tərəfindən qəbul edildi. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 45-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** İnsanda yüksək mənəvi keyfiyyətlərin formalaşmasına yönəlmiş Məhəmməd peyğəmbərin 5 kəlamını yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| İslam dininin mahiyyəti haqqında kiçik təqdimatlar edir | | | | |
| Azərbaycan cəmiyyətində digər xalqların və dinlərin nümayəndələrinə münasibəti sadə şəkildə izah edir | | | | |
| İslam dininin yaılmasında böyük şəxsiyyətlərin rolunu sadə şəkildə izah edir. | | | | |

# 21. MÖVHUMAT NƏDİR?

**Məzmun xətti**

Təbiət və biz
Fərd və cəmiyyət
Mənəviyyat

**Standart**

1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
2.3.2. Dövlət orqanlarını sadalayır;
3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir.

**Məqsəd**

◊ Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini izah edir;
◊ «Mövhumat» anlayışını izah edir;
◊ İslam dininə zidd olan hərəkətləri sadalayır;
◊ İslam dininin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
◊ Dini dəyərlərlə xurafatı fərqləndirir.

**İnteqrasiya**

A-d.: 1.2.2.; 2.1.2.; 3.1.5.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, cütlərlə iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:***

∆ 13 rəqəmi;
∆ yolundan qara pişiyin keçməsi;
∆ duzun dağılması.

– Yazılanlar arasında nə kimi əlaqə var?
– Onları necə adlandırmaq olar? (Şagirdlərin fərziyyələrini dinlədikdən sonra müəllim mövhumat anlayışını açıqlaya, onlar haqqında qısa məlumat verə bilər.)
– Bunlar necə yaranır?
– İnsanların həyatına təsiri necə ola bilər?

***Tədqiqat sualı:*** *Mövhumatın insanların savadlanmasına, cəmiyyətin inkişafına təsiri necədir? Nə üçün?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 46–47-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Cütlərə aşağıdakı tapşırıq ətrafında tədqiqat işi aparmaq tapşırılır.

«Mövhumat nədir?» mətninə əsaslanaraq bədii ədəbiyyatdan və Azərbaycan tarixindən dini mövhumatın cəmiyyətə mənfi təsirinə aid nümunələr göstərin.

| Mövhumat | Mövhumatın cəmiyyətə mənfi təsiri (fakt, əsaslandırma) |
|---|---|
| | |

*Məlumatın mübadiləsi və müzakirəsi:* Cütlər işlərini təqdim edirlər. Təqdimatlar ətrafında məlumat mübadiləsi və müzakirəsi təşkil edilir.

– Mövhumat haqqında nə öyrəndik?

– İslam dinində mövhumata yanaşma necədir?

– Dini dəyərlər və xurafat nə ilə fərqlənir?

*Nəticələrin çıxarılması və ümumiləşdirmə:* Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Mövhumat insanların savadlanmasına, cəmiyyətin inkişafına mənfi təsir edir. Mövhumatçılıqdan uzaq olmaq lazımdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

*Yaradıcı tətbiqetmə:* Dərsliyin 47-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

*Ev tapşırığı:* Mövhumata aid həyatdan daha hansı nümunələr gətirə bilərsiniz? Onların sizin həyatınıza mənfi təsirini müəyyən edib yazın.

*Refleksiya və qiymətləndirmə:* Cütlərin işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

*Nəticələr üzrə qiymətləndirmə:* Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini izah edir | | | | |
| «Mövhumat» anlayışını izah edir | | | | |
| İslam dininə zidd olan hərəkətləri sadalayır | | | | |
| İslam dininin mahiyyəti haqqında kiçik təqdimatlar edir | | | | |
| Dini dəyərlərlə xurafatı fərqləndirir | | | | |

# 22. SAĞLAMLIĞIN QORUNMASI HÜQUQU

**Məzmun xətti**
Fərd və cəmiyyət
Sağlamlıq və təhlükəsizlik

**Standart**
2.3.3. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını sadə formada izah edir;
2.4.2. Hüquq və vəzifələri barədə kiçik təqdimatlar edir;
4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir.

**Məqsəd**
- ◊ Səhiyyə müəssisələrini tanıyır;
- ◊ Səhiyyə müəssisələrinin göstərdiyi xidmətləri izah edir;
- ◊ Sağlamlığın qorunması ilə bağlı öz hüquq və vəzifələrini tanıyır;
- ◊ Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir;
- ◊ Sağlamlığın özünün tərəfindən qorunmasının vacibliyini izah edir.

**İnteqrasiya**
A-d.: 3.1.5.; Tex.: 3.1.1.; F-t.: 1.1.3.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, BİBÖ, cədvəllərlə iş, məqalənin yazılması, Venn diaqramı | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərin cavablarını BİBÖ cədvəlinin I və II sütununda qeyd edir.

| Sağlamlığın qorunması haqqında nə bilirik? | Sağlamlığın qorunması haqqında nə bilmək istəyirik? | Sağlamlığın qorunması haqqında nə öyrəndik? |
|---|---|---|
| | | |

***Tədqiqat sualı:*** *Sağlamlığı kim və necə qorumalıdır?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.
***Tədqiqatın aparılması:*** Dərsliyin 48–49-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***
Sağlamlığın qorunması ilə bağlı hüquq və vəzifələri cədvəldə qeyd edin.

| Sağlamlığın qorunması ilə bağlı hüquqlarım | Sağlamlığın qorunması ilə bağlı vəzifələrim |
|---|---|
| | |

***II qrup üçün iş vərəqi***

*Sağlamlığı necə qoruya bilərik?* Siyahı yaradın.

Sağlamlığın qorunması yolları:

1. ____________________
2. ____________________
3. ____________________
4. ____________________
5. ____________________

***III qrup üçün iş vərəqi***

*Sağlamlığa dair şaxələndirmə (klaster) qurun.*




***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Sağlamlığın qorunması haqqında nə öyrəndik?

– Sağlamlığın qorunmasında səhiyyə müəssisələrinin rolu nədir? Daha kimlərin sağlamlığımızın qorunmasında rolu ola bilər?

Müəllim şagirdlərin cavablarını BİBÖ cədvəlinin III sütununda qeyd edir.

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Hər uşağın sağlamlığı həm dövlət, həm valideyn, həm də onun özü tərəfindən qorunmalıdır. Hər kəs öz sağlamlığını qorumaqla ətrafdakıların sağlamlığına müsbət təsir edir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 49-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Uşaq jurnalına «Sağlamlığını sən özün də qoruya bilərsən» adlı məqalə yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Səhiyyə müəssisələrini tanıyır | | | | |
| Səhiyyə müəssisələrinin göstərdiyi xidmətləri izah edir | | | | |
| Sağlamlığın qorunması ilə bağlı öz hüquq və vəzifələrini tanıyır | | | | |
| Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir | | | | |
| Sağlamlığın özünün tərəfindən qorunmasının vacibliyini izah edir | | | | |

# 23. YOLUXUCU XƏSTƏLİKLƏR

| | |
|---|---|
| **Məzmun xətti** | Sağlamlıq və təhlükəsizlik |
| **Standart** | 4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir;<br>4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir;<br>4.3.2. Qəzalardan mühafizə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir. |
| **Məqsəd** | ◊ Yoluxucu xəstəlikləri törədən səbəbləri izah edir;<br>◊ Yoluxucu xəstəliklərin yayılma yollarını izah edir;<br>◊ Sağlamlığın qorunmasına aid nümunələr gətirir;<br>◊ Qəzalardan mühafizə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir;<br>◊ Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir. |
| **İnteqrasiya** | A-d.: 1.2.2.; 3.1.4.; 3.1.5.; F-t.: 1.1.3. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |



***Motivasiya:***

– Lövhədə nə görürsünüz?

– Bu şəkli necə başa düşürsünüz? Uşağın səhhətində nə problem var?

– Bu xəstəliyin əsas xüsusiyyəti nədir? Belə xəstəliklər necə adlanır?

***Tədqiqat sualı:*** *Yoluxucu xəstəliklər hansı yollarla yayılır? Yoluxucu xəstəliklərdən qorunma yolları hansılardır?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 50–51-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***
Cədvəli doldurun.

| **Yoluxucu xəstəliyin adı** | **İnsanın xəstəliklərə yoluxma yolları** | **İnsanın yoluxucu xəstəliklərdən qorunma yolları** |
|---|---|---|
| | | |

***III və IV qruplar üçün iş vərəqi***
Cədvəli doldurun.

| **Yoluxucu xəstəliyin adı** | **İnsan üçün yoluxucu xəstəliyin nəticələri** | **Yoluxucu xəstəliyə tutulmuş insanın xəstəliklə mübarizə etmək üçün addımları** |
|---|---|---|
| | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Yoluxucu xəstəliklər haqqında nə öyrəndik?
– Yoluxucu xəstəliklərin qarşısı alınmasa, nə baş verə bilər?
– Yoluxucu xəstəliklərin öhdəsindən necə gəlmək olar?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Yoluxucu xəstəlikləri viruslar, bakteriyalar, göbələklər və s. yaradır. Viruslar xəstə adamdan sağlam adama həşəratlar, heyvanlar vasitəsilə ötürülə bilər. Həmçinin nəfəs aldıqda, xəstə insanla ünsiyyətdə olduqda: onunla danışanda, ona toxunanda bu xəstəliklər yayılır. Bu xəstəliklərdən qorunmaq üçün insan fərdi gigiyena qaydalarına riayət etməli, düzgün qidalanmalı, xəstə insanla ünsiyyətdən qaçmalı, maska taxmalı, insanlarla harmonik münasibətlərdə olmalıdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 51-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Yoluxucu xəstəliklərdən qorunma yollarını təbliğ edən plakat və ya buklet hazırlayın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Yoluxucu xəstəlikləri törədən səbəbləri izah edir | | | | |
| Yoluxucu xəstəliklərin yayılma yollarını izah edir | | | | |
| Sağlamlığın qorunmasına aid nümunələr gətirir | | | | |
| Qəzalardan mühafizə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir | | | | |
| Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir | | | | |

# 24. İMMUNİTET NƏDİR?

| | |
|---|---|
| *Məzmun xətti* | Təbiət və biz<br>Sağlamlıq və təhlükəsizlik |
| *Standart* | 1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir;<br>1.1.2. Təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmin rolunu izah edir;<br>4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir. |
| *Məqsəd* | ◊ İmmunitet anlayışını izah edir;<br>◊ İmmunitetin iki növünü (təbii və süni) fərqləndirir;<br>◊ Təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmin rolunu izah edir;<br>◊ İmmunitetin gücləndirmə yollarını və şərtlərini izah edir;<br>◊ İmmunitetin özü üçün əhəmiyyətini qiymətləndirir. |
| *İnteqrasiya* | A-d.: 1.2.2.; 2.2.2.; İnf.: 1.2.1.; 1.2.2.; T-i.: 2.2.6.; F-t.: 1.1.1.; 1.1.2.; 1.1.3.; 1.2.4. |

| *Dərsin tipi* | *İş formaları* | *İş üsulları* | *Resurslar* |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, Venn diaqramı, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərə bir əhvalat danışır: – Bir sinifdə qızılca möhkəm yayılmışdı. Sinfin böyük hissəsi xəstələnib, dərslərə gəlmirdi. Bu sinifdən bəzi şagirdlər isə xəstə uşaqlarla ünsiyyətdə olmağına baxmayaraq, xəstələnmirdilər və məktəbə gəlirdilər. Xəstəlik onlara toxunmadı.

– Bunun səbəbi nədir? Bu uşaqları qoruyan nə idi?

***Tədqiqat sualı:*** *İmmunitet nədir? İmmunitet necə yaranır?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 52–53-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Pantomima vasitəsilə immunitetin gücləndirilmə yollarını göstərin (digər şagirdlər onların hərəkətlərinə əsasən immunitetin gücləndirilmə yollarını müəyyən etməlidirlər).

***III və IV qruplar üçün iş vərəqi***

*Təbii* və *süni immunitetləri* müqayisə edin. Venn diaqramında oxşar və fərqli cəhətləri qeyd edin.

*Təbii immunitet* *Süni immunitet*



***Məlumatın mübadiləsi və müzakirəsi:***

– İmmunitet haqqında biz nə öyrəndik?

– İmmunitet orqanizmdə hansı rol oynayır?

– İmmuniteti necə möhkəmləndirmək olar?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İmmunitet canlı orqanizmləri xəstəliklərdən qoruyur. Alimlər bir sıra yoluxucu xəstəliklərə qarşı orqanizmin immunitetini möhkəmləndirmək üçün peyvəndlər, vaksinlər kəşf ediblər. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 53-cü səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «İmmunitetimi necə gücləndirirəm və bundan sonra immunitetimi möhkəmləndirmək üçün nələr edə bilərəm?» cədvəl tərtib edin və doldurun.

| **İmmunitetimi necə gücləndirirəm** | **İmmunitetimi necə gücləndirəcəyəm** |
|---|---|
| | |

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| İmmunitet anlayışını izah edir | | | | |
| İmmunitetin iki növünü (təbii və süni) fərqləndirir | | | | |
| Təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmin rolunu izah edir | | | | |
| İmmunitetin gücləndirmə yollarını və şərtlərini izah edir | | | | |
| İmmunitetin özü üçün əhəmiyyətini qiymətləndirir | | | | |

# 25. ONURĞA SÜTUNU

| | |
|---|---|
| **Məzmun xətti** | Təbiət və biz<br>Sağlamlıq və təhlükəsizlik |
| **Standart** | 1.3.2. İnsanın əsas orqanlarının funksiyalarını sadə şəkildə izah edir;<br>4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir;<br>4.1.3. Zərərli vərdişlərin öz orqanizminə və başqalarının sağlamlığına mənfi təsirini izah edir. |
| **Məqsəd** | ◊ İnsanın onurğa sütununun funksiyalarını sadə şəkildə izah edir;<br>◊ Sağlamlığın vəziyyətinin onurğa sütununun vəziyyətindən asılılığını izah edir;<br>◊ Onurğa sütununun, eyni zamanda sağlamlığın qorunmasına aid nümunələr gətirir;<br>◊ Zərərli vərdişlərin sağlamlığa mənfi təsirini izah edir. |
| **İnteqrasiya** | İnf.: 1.1.3.; 3.1.2.; 4.1.1.; Tex.: 2.1.3.; 3.1.1. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Anlayışın çıxarılması, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərə müraciət edir:

– Sual əvəzinə hansı anlayışı yaza bilərik? Günəş sxeminin ətrafında yazılmış sözlər anlayışı tapmağa kömək edə bilərlər. Onları diqqətlə oxuyaq.

*İnsanları dik saxlayır*




*Fəqərələri var*

*Əyilə bilir*

– Onurğa sütunu haqqında biz daha nə bilirik?
– Onurğa sütunu bədənimizdə nə kimi rol oynayır?

***Tədqiqat sualı:*** *Onurğa sütununun sağlam inkişafına necə nail ola bilərik?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 54–55-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Cədvəldə insanın onurğa sütununun funksiyalarını, ona təsir edən amilləri və nəticələri qeyd edin.

| ONURĞA SÜTUNU | | |
|---|---|---|
| **Funksiyası** | **Mənfi təsir edən amillər** | **Mənfi təsirlərin nəticələri** |
| | | |

***III və IV qruplar üçün iş vərəqi***

Onurğa sütunu – «sağlamlıq oxu»dur fikrini təsdiq və ya inkar etmək üçün mətni oxuyub faktlar tapın və cədvəldə uyğun sütuna qeyd edin. Onurğa sütununu sağlam saxlamağın yollarını araşdırın.

| **Onurğa sütununun sağlamlığa təsiri** | **Onurğa sütununu sağlam saxlama yolları** |
|---|---|
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Onurğa sütunu haqqında biz nə öyrəndik?
– Onurğa sütunu insan orqanizmində hansı funksiyaları yerinə yetirir? Onurğa sütununun duruşla nə kimi əlaqəsi var?
– Uşaqların onurğa sütunu nə üçün normaya uyğun olmur (əyilir)?
– Uşaq özü onurğa sütununun (duruşun) düzgün formalaşmasına təsir edə bilərmi? Necə?
– Yaxşı duruşa malik olmaq üçün nə etmək lazımdır?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsan orqanizminin ümumi sağlamlığı onurğa sütunundan çox asılıdır. Uşaq yaşlarından onun düzgün inkişafına nəzarət etmək vacibdir: düzgün oturmaq, əyilməmək, çox ağır əşyaları əlində birdəfəyə aparmamaq, onurğa sütunu üçün müəyyən idman hərəkətləri etmək, duruşu nəzarət altında saxlamaq və s. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Alimlər müəyyən etmişlər ki, insan balacaboy olsa belə, dik dayananda, yəni düzqamətli olanda daha ucaboylu görünür. Amma ucaboylu insan əyilirsə, onda onun boyu, əslində, olduğundan balaca görünür.

Gəlin duruşu düzgün formalaşdıran fiziki hərəkətləri edək:

**1. Yeriş**

a) yerində;
b) pəncələr üstündə, əllər yuxarı;
c) dabanlar üstündə, əlləri baş arxasına qoyun.

**2. Ayaq üstə dayanaraq**

a) əlləri bel üstünə qoyun. Qabağa, dala, sağa, sola hərəkətlər edin. Hər tərəfə 10 dəfə təkrarlayın;

b) əlləri bel üstünə qoyun. Bədəni sağdan-sola sonra isə soldan-sağa fırladın. Hər tərəfə 10 dəfə təkrarlayın.

Onurğa sütunu üçün müəllim digər idman hərəkətlərini də yerinə yetirməyi tapşıra bilər.

Dərsliyin 55-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Onurğa sütunu üçün mən gün ərzində nə edə bilərəm» mövzusunda fikirləri siyahı şəklində yazın.

| **Günün hissəsi** | **Onurğa sütununu qorumaq üçün addımlarım** |
|---|---|
| Səhər | |
| Günorta | |
| Axşam | |
| Gecə | |

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| İnsanın onurğa sütununun funksiyalarını sadə şəkildə izah edir | | | | |
| Sağlamlığın vəziyyətinin onurğa sütununun vəziyyətindən asılılığını izah edir | | | | |
| Onurğa sütununun, eyni zamanda sağlamlığın qorunmasına aid nümunələr gətirir | | | | |
| Zərərli vərdişlərin sağlamlığa mənfi təsirini izah edir. | | | | |

# 26. QİDA ZƏHƏRLƏNMƏLƏRİ

**Məzmun xətti**

Təbiət və biz
Fərd və cəmiyyət
Sağlamlıq və təhlükəsizlik

**Standart**

1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
2.4.1. İstehlakçı hüquqlarının mahiyyətini sadə şəkildə şərh edir;
4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

**Məqsəd**

◊ Qida zəhərlənmələrinin səbəblərini izah edir;
◊ Qidanın hazırlanma və saxlanılma qaydalarını sadalayır;
◊ Qidanın sağlamlıq üçün təhlükəsi ilə bağlı müşahidə oluna bilən əlamətləri təsvir edir;
◊ İstehlakçı hüquqlarının mahiyyətini sadə şəkildə şərh edir;
◊ Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

**İnteqrasiya**

A-d.: 1.2.1.; 1.2.2.; Riy.: 4.1.1.; F-t.: 1.1.3.; 1.2.4.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Təsəvvür edin ki, sinifdə uşaq qarnında olan ağrılardan şikayətlənir. Bu ağrılar hansı səbəbdən ola bilər?

– Qida zəhərlənmələrinin əlamətləri hansılardır?
– Hansı qidadan insan zəhərlənə bilər?

***Tədqiqat sualı:*** *Qida zəhərlənmələrindən özümüzü necə qoruya bilərik?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 56–57-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

Tədqiqat kiçik qruplarda aparılır. Şagirdlər 4 qrupa bölünür. Hər qrupa aşağıdakı tapşırıqlar verilir. Onlar rollu oyunu fikirləşib təqdim etməlidirlər:

1) Mağazadan qida məhsulları (konservləşdirilmiş ət, göy noxud) almalısınız. Zəhərlənmədən özünüzü qorumaq üçün nəyə diqqət yetirəcəksiniz? Mağazada ola bilən səhnəni qurun.
2) Siz təcili yardımın həkimlərisiniz. Təcili yardım həkimlərini bir evə çağırıblar. Evdə ailə üzvlərindən biri özünü pis hiss edir. Evdəkilər səbəbini bilmirlər. Həkimlər

xəstənin qidadan zəhərlənməsini müəyyən etmək üçün lazım olan suallar verməlidirlər. Cavablar və müşahidələr əsasında qida zəhərlənməsini müəyyən etməlidirlər. Səhnəni qurun.

3) Evdə bir nəfər zəhərlənib, təcili yardımla əlaqənin qurulmasını (dialoq formasında) təqdim edin (Bu qrup rollu oyunu təqdim etdikdə aşağıdakılara fikir verin: təcili yardımın telefon nömrəsinin (103) səslənməsi, səhnədə telefonla əlaqə saxlayan həkimə ünvanın və müraciətin səbəbinin deyilməsi).
4) *Kimsə qida məhsulundan zəhərlənib, siz nə edəcəksiniz?* – səhnələşdirin, fəaliyyətlərin ardıcıllığını yazın.

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Qida zəhərlənmələri haqqında nə öyrəndik?
– Qidanın sağlamlıq üçün zərərli olmasını necə bilmək olar?
– Qida zəhərlənmələri haqqında öyrəndiklərimiz bizə necə kömək edə bilər?
– Əgər qida zəhərlənməsi baş veribsə, biz nə edə bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Qida zəhərlənmələri qidanın hazırlanma və saxlanılma qaydaları pozulduqda baş verir. Bu qaydaların pozulmasını biz özümüz də müəyyən edə bilərik. Qida zəhərlənməsini bakteriyalar törədir. Zəhərlənməni müəyyən əlamətlərə görə müəyyən etmək olar: qarında ağrılar, qusma və s. Bu zaman mütləq və təxirə salmadan təcili yardıma müraciət etmək lazımdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 57-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

Müəllim üçün məlumat! Cədvəlin doldurulmasının mümkün olan variantı.

| | **Normada** | **Normaların pozulması** |
|---|---|---|
| Hazırlanma və saxlama qaydaları | bankanın qapağı normaldır | bankanın qapağı şişib |
| | bankadakı su şəffafdır | bankadakı su bulanıb |
| | qida məhsulu günəş süaları düşməyən yerdə saxlanılır | qida məhsulu günəşin altında saxlanılır |
| | gigiyena qaydalarına riayət edilib | gigiyena qaydalarına riayət edilməyib |
| | qida məhsulunun son istifadə tarixinin bitməsinə hələ var | qida məhsulunun son istifadə tarixi keçib |
| | aşağı temperaturda saxlanılır | saxlama yerində temperatur yüksəkdir |
| | rütubətsiz yerdə saxlanılır | rütubət yüksəkdir |
| | qida məhsulunun qoxusu yaxşıdır | qida məhsulunun pis qoxusu var |
| | açılmış banka soyuducuda müəyyən vaxtadək saxlanılır | açılmış banka isti otaqda və ya soyuducuda uzun müddət qalır |

***Ev tapşırığı:*** Qida zəhərlənmələri haqqında uzaqda qalan dostunuza məktub yazın.

Salam, dostum, .....
Necəsən?
Bu gün dərsdə qida zəhərlənmələri haqqında danışmışıq. ________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________

Tezliklə cavabını gözləyirəm, ....                    Tarix: _______________

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Qida zəhərlənmələrinin səbəblərini izah edir | | | | |
| Qidanın hazırlanma və saxlanılma qaydalarını sadalayır | | | | |
| Qidanın sağlamlıq üçün təhlükəsi ilə bağlı müşahidə oluna bilən əlamətləri təsvir edir | | | | |
| İstehlakçı hüquqlarının mahiyyətini sadə şəkildə şərh edir | | | | |
| Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir | | | | |

# 27. İLK TİBBİ YARDIM

**Məzmun xətti** Sağlamlıq və təhlükəsizlik

**Standart** 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.

**Məqsəd**
- ◊ Həyatda baş verən müxtəlif hadisələr və qəzalarla bağlı ilkin tibbi yardımın qaydalarını izah edir;
- ◊ Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.

**İnteqrasiya** T-i.: 2.2.6.; F-t.: 1.2.4.; 2.2.3.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş, modelləşdirmə | Dərslik, iş vərəqləri, Təchizat: tənzif, pambıq, yod, spirt, qayçı, dəsmal, su, stəkan, qab |

***Motivasiya:*** Müəllim şagirdlərə tibb çantasının şəklini təqdim edir və sual verir:

– Bu, nədir və bizə nə zaman lazım olur?

– Bu cür yardımı necə adlandırmaq olar?



***Tədqiqat sualı:*** *İlk tibbi yardımı göstərmək üçün nəyi bilmək və bacarmaq lazımdır? Siz hansı vəziyyətlərdə ilk tibbi yardımı göstərə bilirsiniz və necə?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 58–59-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı tapşırıqlar ətrafında tədqiqat işi aparılır. Bu tədqiqatı aparmaq üçün müəllim əvvəlcədən qrupları lazım ola bilən tibbi ləvazimatla təmin etməlidir.

***I və II qrupların tapşırığı***

Ləvazimat: *tibbi spirt, yod, bint və ya tənzif, pambıq, qayçı*

Təsəvvür edin ki, siz həyətdə oynayan zaman uşaqlardan biri yıxılıb qolunu zədələyib, zədələnmiş yerdə yara var. Lazım olan əşyalardan istifadə edərək ona ilk tibbi yardım göstərin.

***III qrupun tapşırığı***

Ləvazimat: *dəsmal, qabda su*

Təsəvvür edin ki, siz həyətdə oynayan zaman uşaqlardan biri ehtiyatsız hərəkət edib və onun ayağı burxulub, sümükləri birləşdirən bağlar və əzələlər dartılıb gərilmişdir. Uşağın ayağında şiddətli ağrılar var. Oynağın ətrafı şişib. Lazım olan avadanlıqlardan istifadə edərək ona ilk tibbi yardım göstərin.

***IV qrupun tapşırığı***

Ləvazimat: *dəsmal, stəkanda su, qabda su, tənzif*

Təsəvvür edin ki, çox isti bir havada dənizə getmisiniz. Uşaqlardan birini gün vurub. Lazım olan avadanlıqdan istifadə edərək ona ilk tibbi yardım göstərin.

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– İlk tibbi yardım haqqında nə öyrəndik?
– İlk tibbi yardımın əhəmiyyəti nədir?
– İlk tibbi yardımın düzgün göstərilməməsi nə ilə nəticələnə bilər?
– Bu dərsdə sizdə hansı bacarıqlar formalaşdı?
– Onları necə əldə etdiniz?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İlk tibbi yardım həkimlər gəlməzdən əvvəl göstərilir. Bu yardım insanların əziyyətini azalda bilər və onların həyatını xilas edə bilər. İlk tibbi yardımı düzgün göstərmək üçün zədələnmənin xüsusiyyətini nəzərə almaq vacibdir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 59-cu səhifəsindəki 7-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «İlk tibbi yardımı göstərmək üçün mən nələri bacarmalıyam?» mövzusunda inşa yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Həyatda baş verən müxtəlif hadisələr və qəzalarla bağlı ilkin tibbi yardımın qaydalarını izah edir | | | | |
| Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir | | | | |

# 28. BƏDƏNİ NECƏ MÖHKƏMLƏNDİRMƏLİ?

**Məzmun xətti** Sağlamlıq və təhlükəsizlik

**Standart**
4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir;
4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

**Məqsəd**
◊ Müsbət və mənfi emosiyaların insan sağlamlığına mənfi təsirini izah edir;
◊ Sağlamlığa təsir edən amilləri izah edir;
◊ Orqanizmi möhkəmləndirmə yollarını izah edir;
◊ Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

**İnteqrasiya** F-t.: 1.1.1.; 1.1.2.; 1.1.3.; Tex.: 3.1.1.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün sinifla iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri, uşaq ensiklopediyası |

***Motivasiya:*** *«Sağlam bədəndə sağlam ruh olar»* – bu atalar sözünü necə başa düşürsünüz? İnsanın sağlamlığına hansı amillər təsir edir?

***Tədqiqat sualı:*** *İnsan öz bədənini necə gücləndirə bilər?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 60–61-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Cədvəldə orqanizmin sağlamlığını möhkəmləndirmək yollarını qeyd edin.

| Orqanizmin sağlamlığını möhkəmləndirmək yolları |
|---|
| 1. |
| 2. |
| 3. |
| 4. |
| 5. |
| 6. |
| 7. |

***II qrup üçün iş vərəqi***

Cədvəldə orqanizmin sağlamlığına təsir edən mənfi və müsbət amilləri qeyd edin.

| **Orqanizmin sağlamlığına təsir edən mənfi amillər** | **Orqanizmin sağlamlığına təsir edən müsbət amillər** |
|---|---|
| | |

***III qrup üçün iş vərəqi***

Sağlamlığının qayğısına qalmayan uşaq haqqında hekayə yazın. Hekayəyə aid şəkil çəkin.

| **Hekayə** | **Şəkil** |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Orqanizmin möhkəmləndirilməsi haqqında nə öyrəndik?
– İnsanın emosional halları onun sağlamlığına necə təsir edir?
– Özünüz orqanizminizi necə möhkəmləndirirsiniz?
– Orqanizmi möhkəmləndirmək yollarını necə qruplaşdıra bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsanın sağlamlığı onun öz əlindədir. İnsan öz sağlamlığını müxtəlif yollarla möhkəmləndirə bilər: düzgün qidalanma, gün rejiminin düzgün qurulması və s. ilə. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 61-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Sağlamlığınızın möhkəmləndirilməsinə yönəlmiş gün rejimi tərtib edin.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Müsbət və mənfi emosiyaların insan sağlamlığına mənfi təsirini izah edir | | | | |
| Sağlamlığa təsir edən amilləri izah edir | | | | |
| Orqanizmi möhkəmləndirmə yollarını izah edir | | | | |
| Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir | | | | |

# 29. MOBİL TELEFONLAR

| | |
|---|---|
| **Məzmun xətti** | Sağlamlıq və təhlükəsizlik |
| **Standart** | 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir;<br>4.1.3. Zərərli vərdişlərin öz orqanizminə və başqalarının sağlamlığına mənfi təsirini izah edir. |
| **Məqsəd** | ◊ Mobil telefonun müsbət və mənfi təsirini izah edir;<br>◊ Nümunələr əsasında mobil telefonun sağlamlığa təsiri haqqında təqdimatlar edir. |
| **İnteqrasiya** | İnf.: 1.1.3.; 3.1.2.; 4.1.1.; Tex.: 2.1.3. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri, uşaq ensiklopediyası, İnternet |

**Motivasiya:** Keçmişdə: *insan – göyərçin*
İndi: *insan – ?*

– Sualın əvəzinə hansı söz ola bilər?

**Tədqiqat sualı:** *Mobil telefonların insana təsiri necədir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması:** Dərsliyin 62–63-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Müəllim hər qrupda şagirdlərin arasında aşağıdakı rolları bölüşdürür:

– ana;
– dostluq edən iki uşaq;
– həkim;
– mobil telefonları istehsal edən şəxs.

Paylanılmış rollar arasında dialoq qurmaq və səhnəcik göstərməyi tapşırır.

***II qrup üçün iş vərəqi***

Gələcəyin mobil telefonunu yaradın. Onun şəklini çəkin və hansı xüsusiyyətlərə malik olduğunu yazın.

| Gələcəyin mobil telefonunun şəkli | Gələcəyin mobil telefonunun xüsusiyyətləri |
|---|---|
| | |

***III qrup üçün iş vərəqi***

Uşaqları mobil telefonların onlara mənfi təsir etməsinə necə inandırardınız?

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Mobil telefon haqqında nə öyrəndik?
– Mobil telefondan necə istifadə etmək olar?
– Mobil telefonun mənfi təsirindən qorunmaq üçün nə edə bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Mobil telefon işimizi, həyatımızı daha rahat edir, lakin ondan düzgün istifadə etməmək sağlamlığımıza zərər yetirə bilər. Mobil telefondan istifadə etmək qaydalarını bilmək və onlara riayət etmək lazımdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 63-cü səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Mobil telefonun yaranması tarixi haqqında məlumat toplayın və yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Mobil telefonun müsbət və mənfi təsirini izah edir | | | | |
| Nümunələr əsasında mobil telefonun sağlamlığa təsiri haqqında təqdimatlar edir | | | | |

# 30. KOMPÜTER VƏ İNSANLAR

**Məzmun xətti** Sağlamlıq və təhlükəsizlik

**Standart** 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir;
4.1.3. Zərərli vərdişlərin öz orqanizminə və başqalarının sağlamlığına mənfi təsirini izah edir.

**Məqsəd**
◊ Kompüterin insana müsbət və mənfi təsirini izah edir;
◊ Nümunələr əsasında kompüterin öz orqanizminə və başqalarının sağlamlığına təsiri haqqında təqdimatlar edir.

**İnteqrasiya** İnf.: 1.1.3.; 3.1.2.; 4.1.1.; Tex.: 2.1.3.

**Dərsin tipi**: Deduktiv

**İş formaları**: Bütün siniflə iş, kiçik qruplarla iş

**İş üsulları**: Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş, Venn diaqramı

**Resurslar**: Dərslik, iş vərəqləri, uşaq ensiklopediyası, İnternet, müəllimlər

*Motivasiya:* Mobil telefondan başqa ünsiyyət vasitəsi kimi biz daha nədən çox istifadə edirik?

*Tədqiqat sualı: Kompüterlərin insana təsiri necədir?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 64–65-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Kompüterin insanın özünühissetməsinə və ünsiyyətinə təsirinə aid məlumatları müvafiq sütunda yazın.

| Kompüterin ünsiyyətə, özünühissetməyə: | | |
|---|---|---|
| İnsana | Mənfi təsiri | Müsbət təsiri |
| Ünsiyyətinə | | |
| Özünühissetməsinə | | |

***II qrup üçün iş vərəqi***

Kompyuterin insanın özünühissetməsinə və ünsiyyətinə təsirinə aid məlumatları müvafiq sütunda yazın.

| **Kompüterin ünsiyyətə, özünühissetməyə:** | | |
|---|---|---|
| İnsanın | Mənfi  təsiri | Müsbət təsiri |
| Sağlamlığına | | |
| Dünyagörüşünə | | |

***III qrup üçün iş vərəqi***

Kompüterin insanın həyatında faydalı və zərərli tərəflərini qiymətləndirmək üçün meyarlar yazın.

| **Hadisə** | **M E Y A R L A R** | | | |
|---|---|---|---|---|
| Kompüterin kəşfi | İnsan geniş məlumat əldə edir | | | |
| | + | | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Kompüterin insana təsiri haqqında biz nə öyrəndik?

– Kompüter uşaqlara necə təsir edir?

– Kompüterin mənfi təsirini azaltmaq üçün biz nə edə bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Kompüter işimizi, həyatımızı daha rahat edir, məlumat əldə etməyə imkan yaradır, lakin ondan düzgün istifadə etməmək sağlamlığımıza zərər yetirə bilər. Kompüterdən istifadə etmək qaydalarını bilmək və onlara riayət etmək lazımdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 65-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Kompüterin insanın orqanizminə təsiri haqqında İnternetdən və digər məlumat mənbələrindən məlumat  toplayın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Kompüterin insana müsbət və mənfi təsirini izah edir | | | | |
| Nümunələr əsasında kompüterin öz orqanizminə və başqalarının sağlamlığına təsiri haqqında təqdimatlar edir | | | | |

# 31. MƏİŞƏT QƏZALARI

| | |
|---|---|
| **Məzmun xətti** | Sağlamlıq və təhlükəsizlik |
| **Standart** | 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edir;<br>4.2.2. Müvafiq nişanlara (yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir;<br>4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir. |
| **Məqsəd** | ◊ Elektrik cərəyanı və qazdan istifadə zamanı təhlükənin əlamətlərini sadalayır;<br>◊ Elektrik cərəyanı və qazdan istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edir;<br>◊ Müvafiq nişanlara (yüksək gərginlik, yanğın, uçqun, torpaq sürüşməsi təhlükəsi nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir;<br>◊ Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir. |
| **İnteqrasiya** | Tex.: 2.1.4.; 3.1.1.; F-t.: 2.2.3.; 3.1.1.1.; 4.1.2. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, Venn diaqramı, problemli situasiyanın təhlili, cədvəllərlə iş, modelləşdirmə | Dərslik, iş vərəqləri. Təchizat: tibbi spirt, əsgi, qab, pambıq, stəkən |

***Motivasiya:*** Axşam, qış vaxtı  məişət həyatımızı nəsiz təsəvvür edə bilmərik? Məişətdə istifadə olunan elektrik cihazının xarab olması nə ilə nəticələnə bilər? Bu zaman hansı təhlükələr yaranar?

***Tədqiqat sualı:*** *Məişət qəzalarının qarşısını necə almaq olar?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 66–67-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda  aşağıdakı suallar ətrafında tədqiqat işi  aparılır.

***I qrup üçün iş vərəqi***

Elektrik çaydanını su ilə doldurun və təhlükəsizlik qaydalarına riayət edərək qaynadın. Bu fəaliyyəti həyata keçirmək üçün vacib olan hərəkətləri ardıcıllıqla yazın (alqoritmini qurun).

***II qrup üçün iş vərəqi***

Ləvazimat: *tibbi spirt, əsgi, qab, pambıq, stəkan*

Təqdim edilən ləvazimatdan istifadə edərək dəm qazından zəhərlənmiş insana ilk tibbi yardım nümayiş etdirin. Bu fəaliyyəti həyata keçirmək üçün vacib olan hərəkətləri ardıcıllıqla yazın (alqoritmini qurun).

***III qrup üçün iş vərəqi***

Məişət qəzalarının baş verməməsi üçün insanlara hansı müraciətlər (xəbərdarlıqlar) edərdiniz?

| **Məişət qəzalarının baş verməməsi üçün müraciətimiz (xəbərdarlıqlarımız)** |
|---|
| 1. ______________________________ |
| 2. ______________________________ |
| 3. ______________________________ |
| 4. ______________________________ |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Məişət qəzaları haqqında biz nə öyrəndik?

– Hansı təhlükəsizlik nişanları ilə tanış olduq?

– Təhlükəsizlik qaydalarına riayət etmək nə üçün vacibdir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Təhlükəni xəbərdarlıq nişanlarını tanımaq və təhlükəsizlik qaydalarına riayət etməklə insan özünü məişət qəzalarından qoruya və onların qarşısını ala bilər. Ətrafda olan insanlar qəzalardan ziyan çəkəndə yardım üsullarını bilməklə onlara kömək etmək olar. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Şagirdlərə variantlar üzrə elektrik, qaz cihazları və konkret məişət avadanlıqlarından istifadə zamanı təhlükəsizlik qaydalarını yazmaq tapşırılır. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Təhlükəni xəbər verən nişanlar» haqqında məlumat toplayın, onların şəkillərini çəkin.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Elektrik cərəyanı və qazdan istifadə zamanı təhlükənin əlamətlərini sadalayır | | | | |
| Elektrik cərəyanı və qazdan istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edir | | | | |
| Müvafiq nişanlara (yüksək gərginlik, yanğın, uçqun, torpaq sürüşməsi təhlükəsi nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir | | | | |
| Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir | | | | |

# 32. YOL HƏRƏKƏTİ QAYDALARI

**Məzmun xətti** Sağlamlıq və təhlükəsizlik

**Standart** 4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir.

**Məqsəd**
◊ Yol hərəkəti və nəqliyyatdan istifadə qaydalarını sadalayır;
◊ Yol hərəkəti və nəqliyyatdan istifadə qaydalarına əməl etməyin əhəmiyyətini izah edir;
◊ Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı təqdimatlar edir.

**İnteqrasiya** Riy.: 5.1.2.; 5.2.2.; F-t.: 1.2.4.; 3.1.1.1.; 4.1.1.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Anlayışın çıxarılması, rollu oyunlar, problemli situasiyanın həlli, cədvəllərlə iş | Dərslik, iş vərəqləri, İnternet. Təchizat: yol qaydalarına aid avadanlıqlar |

***Motivasiya:*** Müəllim lövhədə səki, zolaq, svetofor sözlərini qeyd edir və aşağıdakı suallarla şagirdlərə müraciət edir:

– Bunlar hamısı nədir?
– Onlar bizə nə üçün lazımdır?

***Tədqiqat sualı:*** *Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları hansılardır və onların əhəmiyyəti nədir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 68–69-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***Müəllimin nəzərinə!*** Bu tədqiqat işi üçün əvvəlcədən bir neçə əşyanın hazırlanması məsləhətdir:
▽ Svetofor: 3 rəngli dairə: qırmızı, sarı, yaşıl
▽ Skotç
▽ Ağ kağızdan yol zolağı
▽ Polis dəyənəyi
▽ Fit çalan
▽ Sadə yol işarələri: qadağa işarəsi, piyada keçid işarəsi və s.
▽ Kartondan mobil telefon və s.
Sinifdə qruplar tədqiqat işinə başladıqda bu ləvazimatdan istifadə etmək təklif olunur.

***I və II qruplar üçün iş vərəqi***

Piyada tərəfindən bir neçə yol hərəkəti qaydasının pozulmasına aid səhnəcik qurun və nümayiş etdirin.

***III və IV qruplar üçün iş vərəqi***

Sürücü tərəfindən bir neçə yol hərəkəti qaydasının pozulmasına aid səhnəcik qurun və nümayiş etdirin.

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Yol hərəkəti qaydaları haqqında biz nə öyrəndik?

– Yol hərəkət qaydalarına riayət edilmədikdə nə baş verə bilər?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Yol hərəkəti qaydalarına riayət etmək vacibdir. Bununla insanlar öz həyatlarını qorumaqla yanaşı, həm də başqalarının həyatını qoruyurlar. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 69-cu səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** İnternetdən və ya digər məlumat mənbələrindən yol işarələri haqqında məlumat toplayın və onların şəkillərini çəkin.

***Refleksiya və qiymətləndirmə:*** Biz yol hərəkəti qaydalarına necə yiyələndik? Bunun üçün nələri və nəyin vasitəsi ilə etdik?

Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Yol hərəkəti və nəqliyyatdan istifadə qaydalarını sadalayır | | | | |
| Yol hərəkəti və nəqliyyatdan istifadə qaydalarına əməl etməyin əhəmiyyətini izah edir | | | | |
| Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı təqdimatlar edir | | | | |

# 33. FÖVQƏLADƏ HALLAR

**Məzmun xətti**

Fərd və cəmiyyət
Sağlamlıq və təhlükəsizlik

**Standart**

2.3.3. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını sadə formada izah edir;
2.4.2. Hüquq və vəzifələri barədə kiçik təqdimatlar edir;
4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir.

**Məqsəd**

◊ Fövqəladə Hallar Nazirliyinin funksiyalarını izah edir;
◊ Təbii fəlakətlər, bədbəxt hadisə və qəzalar zamanı vətəndaşın hüquq və vəzifələrini izah edir;
◊ İnsanların fəaliyyətləri nəticəsində fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir.

**İnteqrasiya**

A-d.: 1.2.1.; 1.2.2.; 3.1.5.

| *Dərsin tipi* | *İş formaları* | *İş üsulları* | *Resurslar* |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, cütlərlə iş | BİBÖ, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərin cavablarını BİBÖ cədvəlinin I və II sütununda qeyd edir:

| **Fövqəladə hallar haqqında nə bilirik?** | **Fövqəladə hallar haqqında nə bilmək istəyirik?** | **Fövqəladə hallar haqqında nə öyrəndik?** |
|---|---|---|
| | | |

***Tədqiqat sualı:*** *Fövqəladə hallar nədir? Fövqəladə hallar nə ilə nəticələnə bilər?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 70–71-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Cütlərdə aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

Bütün cütlər aşağıdakı tapşırıq ətrafında işləyirlər.

***Cütlər üçün iş vərəqi***
Dərslikdəki mətnə əsaslanaraq aşağıdakı cədvəli doldurun.

| **Dinc dövrdə və müharibə zamanı fövqəladə halın səbəbi** | **Fövqəladə halın yaranmasının vasitəsi** | **Fövqəladə halın nəticəsi** |
|---|---|---|
| | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Fövqəladə hallar haqqında nə öyrəndik?
– Fövqəladə Hallar Nazirliyi hansı vəzifələri yerinə yetirir?
Suallar ətrafında müzakirə aparılır və BİBÖ-nün III sütunu doldurulur.

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Fövqəladə hallar insanın həyatı üçün çox böyük ziyan və təhlükələrə səbəb olurlar. Fövqəladə halların yaranma səbəblərini bilmək və bu zaman tələb olunan qaydalara riayət etmək vacibdir. Fövqəladə Hallar Nazirliyi fövqəladə hallarda insanların davranış qaydalarını müəyyən edir, qorunmasını, təhlükəsiz yerlərə köçürülməsini təşkil edir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Şagirdlərə variantlar üzrə ayrı-ayrı fövqəladə halların (nüvə silahı, kimyəvi qəza, radioktiv maddə) xüsusiyyətlərini yazmaq tapşırılır. Tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Hər hansı bir fövqəladə halı təsvir edin (şəkil vasitəsilə) və şəklə aid şüar yazın.

***Refleksiya və qiymətləndirmə:*** Cütlərin işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Fövqəladə Hallar Nazirliyinin funksiyalarını izah edir | | | | |
| Təbii fəlakətlər, bədbəxt hadisə və qəzalar zamanı vətəndaşın hüquq və vəzifələrini izah edir | | | | |
| İnsanların fəaliyyətləri nəticəsində fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir | | | | |

# 34. FÖVQƏLADƏ HALLARDA NECƏ DAVRANMALI?

| | |
|---|---|
| **Məzmun xətti** | Sağlamlıq və təhlükəsizlik |
| **Standart** | 4.2.2. Müvafiq nişanlara (yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir;<br>4.3.2. Qəzalardan mühafizə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir;<br>4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir. |
| **Məqsəd** | ◊ Müvafiq nişanlara (radioaktivlik, zəhərli maddə) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir;<br>◊ Xlor qazı, ammonyak, radioaktiv maddələrin yayıldığı zaman mühafizə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir;<br>◊ Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir. |
| **İnteqrasiya** | İnf.: 1.1.4.; F-t.: 1.2.4.; 3.1.1.1.; 4.1.1.; 4.1.2. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, Venn diaqramı, rollu oyunlar, problemli situasiyanın həlli, cədvəllərlə iş | Dərslik, iş vərəqləri. Təchizat: stəkan, çay sodası, limon, əleyhqaz və ya onu əvəz edə bilən maska |

***Motivasiya:*** Fövqəladə hallar hansı səbəblərdən yaranır və nə ilə nəticələnə bilər? Bu kimyəvi maddələr (xlor və ammonyak) hansı xüsusiyyətlərə malikdirlər?

***Tədqiqat sualı:*** *Fövqəladə hallarda necə davranmalıyıq?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 72–73-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Lazım olan əşyalar: *stəkən, çay sodası, əleyhqaz və ya onu əvəz edə bilən maska*

Havaya xlor yayılıb. Bu halda biz hansı qaydalara riayət etməliyik? Rollu oyun vasitəsilə qaydaları hərəkət və davranışınızla nümayiş etdirin.

***III və IV qruplar üçün iş vərəqi***

Lazım olan əşyalar: *stəkan, limon, əleyhqaz və ya onu əvəz edə bilən maska*

Havaya ammonyak yayılıb. Bu halda biz hansı qaydalara riayət etməliyik? Rollu oyun vasitəsilə qaydaları hərəkət və davranışınızla nümayiş etdirin.

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Fövqəladə hallarda necə davranmaq lazım olduğu haqqında biz nə öyrəndik?

– Fövqəladə hallarda nələri bilmək və yerinə yetirmək vacibdir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Zəhərli və radioaktiv maddələrin xəbərdarlıq nişanlarını tanımaq lazımdır. Havaya xlor, ammonyak yayıldıqda, ətraf radioaktiv maddələrlə çirkləndikdə özünü və ətrafdakıları qorumaq üçün vacib olan təhlükəsizlik qaydalarını bilmək və onlara əməl etmək vacibdir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Şagirdlərə variantlar üzrə (xlor qazı, ammonyak, radioktiv maddələr yayılması) fövqəladə halların nəticələrini yazmaq tapşırılır. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Fövqəladə hallar zamanı davranış qaydalarına riayət edilməsinin vacibliyi haqqında esse (inşa) yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Müvafiq nişanlara (radioaktivlik, zəhərli maddə) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir | | | | |
| Xlor qazı, ammonyak, radioaktiv maddələrin yayıldığı zaman mühafizə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir | | | | |
| Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir | | | | |

# 35. İQLİM VƏ CANLILAR ALƏMİ

**Məzmun xətti** Təbiət və biz

**Standart**
1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir;
1.2.3. Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;
1.3.1. Cansız və canlı təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir.

**Məqsəd**
◊ Yerin təbii zonalarını sadə şəkildə təsvir edir;
◊ Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;
◊ Yerin təbii zonalarını bir-birindən fərqləndirir;
◊ Yaşadığı təbii zonanı digər zonalardan fərqləndirir.

**İnteqrasiya** A-d.: 1.2.1.; 1.2.2.; T-i: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Problemli situasiyanın təhlili, beyin həmləsi, cədvəllərlə iş, Venn diaqramı | Dərslik, iş vərəqləri, xəritə |

***Motivasiya:*** Müəllim lövhədə Yer kürəsinin təsvirini asır və şagirdlərə suallarla müraciət edir:

– Məndə müxtəlif heyvanların şəkilləri var (ağ ayı, dəvə, pinqvin, canavar, maral, zürafə, fil, zebra, kobra ilanı). Onları Yer kürəsinin harasında yerləşdirim?

Şagirdlərin təklifləri dinlənilir və şəkillər skotçla Yer kürəsinin müəyyən hissəsinə yapışdırılır.

– Nə üçün bu heyvanları Yer kürəsinin məhz müəyyən yerlərinə yapışdırdıq?

– Bu heyvanların müəyyən yerlərdə yaşaması nədən asılıdır? Nəyə görə ağ ayını Yer kürəsinin ortasına yapışdırmadıq?

– Bu heyvanlardan hansılar Azərbaycanda yaşayır? Nə üçün?

***Tədqiqat sualı:*** *Canlılar aləmi və iqlim arasında nə kimi əlaqə vardır?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 74–75-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Cədvəldə qeyd olunan yerlərin canlı və cansız təbiəti haqqında yazın.

| Yerlər | İqlim (hərarət) | Cansız təbiət | Canlı təbiət: bitkilər aləmi | Canlı təbiət: heyvanlar aləmi |
|---|---|---|---|---|
| 1. Şimal Buzlu okeanın sahilləri və cənub qütbü | | | | |
| 2. Tayqa | | | | |
| 3. Çöl | | | | |

***III və IV qruplar üçün iş vərəqi***

Cədvəldə qeyd olunan yerlərin canlı və cansız təbiəti haqqında yazın.

| Yerlər | İqlim (hərarət) | Cansız təbiət | Canlı təbiət: bitkilər aləmi | Canlı təbiət: heyvanlar aləmi |
|---|---|---|---|---|
| 4. Səhra | | | | |
| 5. Meşələr | | | | |
| 6. Bataqlıq sahələr | | | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Yerin canlılar aləmi haqqında nə öyrəndik?

– Hazırladığımız cədvəllərə əsasən canlı və cansız təbiət arasında olan əlaqələr haqqında hansı nəticəni çıxara bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Canlılar aləmi ilə iqlim arasında birbaşa əlaqə mövcuddur. Yer üzərində müxtəlif iqlim tipləri və bu iqlim tiplərinə uyğun bitki və heyvanlar aləmi var. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 75-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Yaşadığınız təbii zona (iqlim, bitki və heyvanlar aləmi) haqqında məlumat toplayın. Məlumatı şəkil və sxem formasında tərtib edin. Şəkilləri şərh edin.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Yerin təbii zonalarını sadə şəkildə təsvir edir | | | | |
| Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir | | | | |
| Yerin təbii zonalarını bir-birindən fərqləndirir | | | | |
| Yaşadığı təbii zonanı digər zonalardan fərqləndirir | | | | |

# 36. TƏBİİ EHTİYATLAR

**Məzmun xətti** Təbiət və biz

**Standart**
1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;
1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**Məqsəd**
◊ Azərbaycanda olan təbii ehtiyatları sadalayır;
◊ Təbii ehtiyatların mahiyyəti haqqında kiçik təqdimatlar edir;
◊ Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;
◊ Təbii ehtiyatların qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**İnteqrasiya** Riy.: 4.1.1.; A-d.: 1.2.2.; İnf.: 1.2.1.; 1.2.2.; Tex.: 3.1.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş | Dərslik, iş vərəqləri, xəritə |

***Motivasiya:*** Lövhədə ağac, dəmir filizi, su, kömürün şəkilləri asılır.
– Lövhədə nə görürsünüz?
– Bu şəkilləri birləşdirən nədir?
***Tədqiqat sualı:*** *Təbii ehtiyatlar nədir? Onların insanın həyatında nə kimi rolu var?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.
***Tədqiqatın aparılması:*** Dərsliyin 76–77-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***
Cədvəldə göstərilən təbii ehtiyatlar və onların əhəmiyyəti haqqında yazın.

| Təbii ehtiyatın adı | Təbii ehtiyat haqqında məlumat | Təbii ehtiyatın insan üçün əhəmiyyəti |
|---|---|---|
| Faydalı qazıntılar | | |
| Torpaq | | |
| Meşə | | |

***II qrup üçün iş vərəqi***

Cədvəldə göstərilən təbii ehtiyatlar və onların əhəmiyyəti haqqında yazın.

| **Təbii ehtiyatın adı** | **Təbii ehtiyat haqqında məlumat** | **Təbii ehtiyatın insan üçün əhəmiyyəti** |
|---|---|---|
| İçməli su | | |
| Dəniz və okeanların suyu | | |

***III qrup üçün iş vərəqi***

Təbii sərvətlərdən səmərəli və səmərəsiz istifadəni əks etdirən şəkillər çəkin.

| **Təbii sərvətlərdən səmərəli istifadə** | **Təbii sərvətlərdən səmərəsiz istifadə** |
|---|---|
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Təbii ehtiyatlar haqqında nə öyrəndik?
– Azərbaycanın təbii sərvətləri haqqında nə öyrəndik?
– Təbii sərvətlər bizə nə üçün lazımdır?
– Nə üçün onları qorumaq lazımdır?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Təbii ehtiyatlara insanın yaşaması üçün istifadəsi mümkün olan hər şey daxildir. Faydalı qazıntılar, torpaq, su mənbələri, meşələr, okean və dənizlər dünyanın təbii ehtiyatlarıdır. Təbii ehtiyatlar tükənir. Onları qorumaq və onlardan səmərəli istifadə etmək lazımdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 72-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Hər hansı bir təbii ehtiyatı seçin. İnsanın ondan harada və necə istifadə etdiyini yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Azərbaycanda olan təbii ehtiyatları sadalayır | | | | |
| Təbii ehtiyatların mahiyyəti haqqında kiçik təqdimatlar edir | | | | |
| Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir | | | | |
| Təbii ehtiyatların qorunması ilə bağlı kiçik təqdimatlar edir | | | | |

# 37. TƏBİƏT NECƏ DƏYİŞİR?

| | |
|---|---|
| ***Məzmun xətti*** | Fərd və cəmiyyət |
| ***Standart*** | 2.1.1. Azərbaycan cəmiyyətinin iqtisadiyyatını sadə şəkildə təsvir edir;<br>2.2.2. Dövlət büdcəsinin formalaşdırılması mənbələrini və xərclənmə istiqamətlərini sadalayır. |
| ***Məqsəd*** | ◊ Azərbaycan cəmiyyətinin iqtisadiyyatını sadə şəkildə təsvir edir;<br>◊ İnsanın fəaliyyəti nəticəsində təbiətdə baş verən dəyişiklikləri izah edir;<br>◊ İnsanın təbiətə təsirini müəyyən edir;<br>◊ Dövlət büdcəsinin formalaşdırılmasında təbii və süni amillərin rolunu izah edir. |
| ***İnteqrasiya*** | A-d. 1.2.2.; 3.1.5.; Riy. 5.1.1.; 5.1.2. |

| *Dərsin tipi* | *İş formaları* | *İş üsulları* | *Resurslar* |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Problemli situasiyanın həlli, cədvəllərlə iş, esse | Dərslik, iş vərəqləri, xəritə |

***Motivasiya:*** Müəllim aşağıdakı sxemi lövhədə çəkir və şagirdlərə sual verir:

***Çəmənlik*** ⟶ ***nəqliyyat yolu***

– Lövhədə nə görürsünüz?
– Bu sözlər arasında nə kimi əlaqə var?

***Tədqiqat sualı:*** *İnsanın fəaliyyəti təbiəti necə dəyişdirir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 78–79-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Cədvəldə ölkəmizdə insanların istifadə etdiyi sərvətlərin adını, bu sərvətlərdən istifadə etmənin səbəb və nəticələrini yazın.

| Azərbaycanda insanlar hansı təbii sərvətlərdən istifadə edirlər? | Təbii sərvətlərdən istifadə etmənin səbəbləri | Təbii sərvətlərdən istifadə etmənin nəticələri |
|---|---|---|
| | | |

***III və IV qruplar üçün iş vərəqi***

Uşaq jurnalı üçün «Neft və Azərbaycanın iqtisadiyyatı» mövzusunda məqalə yazın.

| | |
|---|---|
| | Məqalənin adı ______________________________<br>______________________________<br>______________________________<br>______________________________<br>______________________________<br>______________________________<br>______________________________<br>______________________________<br>______________________________ |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Təbiət necə dəyişilir?

– Təbiətin dəyişilməsində insanın nə kimi rolu var?

– Azərbaycan təbiətinin hansı sərvətləri iqtisadiyyatımızın inkişafına təsir edir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsan daim təbiətdə olan sərvətlərdən istifadə edir. Hər bir ölkənin təbii sərvəti onun inkişafına təsir göstərir. Təbii sərvətlərdən istifadə edərək insan özü də təbiətə təsir edir və bununla da təbiətdə müəyyən dəyişiklikləri edir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 79-cu səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Azərbaycanın təbii sərvətləri haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Azərbaycan cəmiyyətinin iqtisadiyyatını sadə şəkildə təsvir edir | | | | |
| İnsanın fəaliyyəti nəticəsində təbiətdə baş verən dəyişiklikləri izah edir | | | | |
| İnsanın təbiətə təsirini müəyyən edir | | | | |
| Dövlət büdcəsinin formalaşdırılmasında təbii və süni amillərin rolunu izah edir | | | | |

# 38. COĞRAFİ TƏBƏQƏ

**Məzmun xətti** Təbiət və biz

**Standart**
1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;
1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir.

**Məqsəd**
◊ Təbiətdəki əlaqələri izah edir;
◊ Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir.

**İnteqrasiya** A-d.: 1.2.2.; 2.2.2.; İnf.: 1.2.2.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, Venn diaqramı, layihə üzərində iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim lövhədə aşağıdakı sualları yazır.

Dəmir ⟶ banka
Ağac ⟶ kitab
? ⟶ yağ

– Lövhədə nə görürsünüz?
– Sözlərin arasında necə əlaqə var?
– Sualın əvəzinə hansı sözü yazardınız?
– İnsan təbiətdən daha necə istifadə edir?

***Tədqiqat sualı:*** *Ekoloji problemlərin yaranmasında canlı və cansız təbiət arasındakı əlaqələrin nə kimi rolu vardır?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 80–81-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Yaşadığınız ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihə hazırlayıb təqdim edin.

| **Yaşadığımız ərazidə ən mühüm ekoloji problem** | **Yaranmış problemin səbəbləri (bu problemi nə yaradır?)** | **İnsan hansı təbii sərvətdən istifadə edir? (İstifadə olunan təbii sərvətin adı)** | **Ekoloji problemin mümkün həlli yolları** | **Ekoloji problemin həllinə töhfəmiz** |
|---|---|---|---|---|
| | | | | |

***III və IV qruplar üçün iş vərəqi***

Mətnə əsaslanaraq təbii komponentlər arasındakı əlaqələri izah edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

Nəticə: ______________________________

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Canlı və cansız təbiət arasında hansı əlaqələr vardır?
– Təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmin hansı rolu var?
– Təbiətdən israfçılıqla, kobud şəkildə istifadə etmək nələrə gətirib çıxarır?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Təbiətdən israfçılıqla istifadə edəndə, onu qorumayanda son nəticədə insanlar özləri əziyyət çəkirlər. Onlar qıtlıq və gözlənilməyən təbiət hadisələri ilə üz-üzə qalırlar. İnsanlar təbiətin qayğısına qaldıqda, onun ehtiyatlarından səmərəli istifadə etdikdə təbiət də səxavətli və şəfqətli olur. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 81-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** İnsana hər hansı bir ehtiyacını ödəmək üçün lazım olan əşyanı və ya məhsulu seçin. Cədvəli doldurun.

| **İstehsal olunan məhsul** | **Harada istehsal olunur** | **İstifadə olunan təbii sərvət** | **Təbiətə dəyən zərərlər** |
|---|---|---|---|
| | | | |

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Təbiətdəki əlaqələri izah edir | | | | |
| Təbiətdən səmərəli istifadə etməyin yollarını izah edir | | | | |
| Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir | | | | |

# 39. CƏMİYYƏT VƏ BİTKİ ÖRTÜYÜ

**Məzmun xətti** Təbiət və biz

**Standart** 1.2.1. Azərbaycanın sadə coğrafi təsvirini verir;
1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**Məqsəd**
◊ Azərbaycanın bitki aləmini təsvir edir;
◊ İnsanın bitki aləminə müsbət və mənfi təsirlərini müəyyən edir;
◊ Bitkilərin qorunmasının əhəmiyyətini müəyyən edir;
◊ Bitkilərin qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**İnteqrasiya** A-d.: 1.2.2.; Riy.: 5.2.2.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Problemli situasiyanın təhlili, cədvəllərlə iş, proqnozetmə | Dərslik, iş vərəqləri, xəritə |

***Motivasiya:*** Müəllim lövhədə çəkilmiş şəkilləri şagirdlərə təqdim edir.
– Şəkildə nə təsvir olunub?
– Nə üçün onların arasında bu cür ox təsvir olunub?
– Bunların arasında hansı əlaqələr var?



***Tədqiqat sualı:*** *İnsan bitkilərə və bitkilər insana necə təsir edir?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 82–83-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Təsəvvür edin ki, siz ətraf mühitin problemləri ilə məşğul olan alimlərsiniz. Azərbaycanın bitki aləmini qorumaq üçün hansı fəaliyyətləri həyata keçirərdiniz? Fəaliyyətlərin siyahısını yazın.

| Bitkiləri qorumaq üçün fəaliyyətlərimiz |
|---|
| |
| |
| |
| |
| |
| |

***III və IV qruplar üçün iş vərəqi***

Bitki aləminin qorunmasına aid reklam plakatı hazırlayın.

| Bitki aləminin qorunmasına aid şüar | Bitki aləminin qorunmasına aid şəkil |
|---|---|
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Bitkilərin həyatımızda nə rolu var?
– Bitkilər hansı səbəblərdən məhv edilir?
– Bitki aləmini qorumaq üçün nə edə bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Bitkilər cəmiyyətin inkişafına böyük təsir edir. Öz tələbatlarını ödəmək üçün insan bitkilərdən istifadə edir. Lakin bununla bərabər, insanın fəaliyyəti Yer kürəsində bitkilərin azalmasına gətirib çıxarır. Bitkilərin qorunması və çoxalması insanın əlindədir: insanları bitkilərin azalması problemi ilə tanış etmək və onların qorunmasına cəlb etmək, ağac əkmək, bitkilər və ətraf mühit üçün zərərsiz texnika yaradıb, ondan istifadə etmək lazımdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 83-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilib təqdim olunur.

***Ev tapşırığı:*** Hər hansı bitki (ağac, kol, gül, ot və s.) adından insanın sizə təsiri haqqında kiçik monoloq yazın. İnsanlardan hansı köməyi gözlədiyini bildirin. Mən... (bitkinin adını)...

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Azərbaycanın bitki aləmini təsvir edir | | | | |
| İnsanın bitki aləminə müsbət və mənfi təsirlərini müəyyən edir | | | | |
| Bitkilərin qorunmasının əhəmiyyətini müəyyən edir | | | | |
| Bitkilərin qorunması ilə bağlı kiçik təqdimatlar edir | | | | |

# 40. CƏMİYYƏTİN İNKİŞAFI VƏ HEYVANLAR ALƏMİ

**Məzmun xətti** Təbiət və biz

**Standart** 1.2.1. Azərbaycanın sadə coğrafi təsvirini verir;
1.2.3. Coğrafi obyektləri xəritədə göstərir.

**Məqsəd**
◊ Azərbaycanın sadə coğrafi təsvirini verir;
◊ Azərbaycanın ərazisində olan qoruqları xəritədə göstərir;
◊ Heyvanlar aləmində baş verən dəyişikliklərdə insanın rolunu izah edir;
◊ Heyvanlar aləminin insan tərəfindən qorunmasının vacibliyini izah edir.

**İnteqrasiya** A-d.: 1.2.1.; 1.2.2.; Tex.: 3.1.2.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli situasiyanın təhlili, cədvəllərlə iş, səbəb-nəticə zənciri | Dərslik, iş vərəqləri, xəritə, uşaq ensiklopediyası |

***Motivasiya:***




Müəllim şagirdlərin diqqətini lövhəyə cəlb edir və sual verir:

– Lövhədə nə görürsünüz? – Bu sxemi necə başa düşürsünüz? – «Qırmızı kitab» nə üçün lazımdır? – Cəmiyyətin inkişafı ilə heyvanlar aləminin nə kimi əlaqəsi var?

***Tədqiqat sualı:*** *Cəmiyyətin inkişafı heyvanlar aləminə necə təsir edir?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 84–85-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Kənd təsərrüfatı heyvanlar aləminə necə təsir edir? Mətnə əsaslanaraq zənciri tamamlayın.



***II qrup üçün iş vərəqi***

İnsan neft çıxarmaqla heyvanlar aləmində hansı dəyişikliklərə təkan verdi? Dəyişiklikləri ardıcıllıqla yazın.

1. ________________________________________
2. ________________________________________
3. ________________________________________

***III qrup üçün iş vərəqi***

Şəhərlərin yaranması heyvanlar aləminə necə təsir göstərdi?

| Şəhərlərin yaranması üçün insanlar nə ediblər? | Heyvanların həyatına bu necə təsir etdi? |
|---|---|
| | |

***IV qrup üçün iş vərəqi***

Azərbaycanda heyvanlar aləmini qorumaq üçün həyata keçirilən fəaliyyətləri və bu fəaliyyətin nəticələrini qeyd edin.

| Azərbaycan dövləti heyvanlar aləmini qorumaq üçün nə edir? | Heyvanlar aləminə bu necə kömək edir? |
|---|---|
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:*** Biz bu gün nə öyrəndik? İnsan heyvanlara necə təsir edir? Heyvanları qorumaq üçün nə edilir? Biz heyvanları necə qoruya bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Bir sıra tələbatlarını ödəmək üçün insan heyvanlardan istifadə edir. Cəmiyyətin inkişafı artıq bir sıra heyvanların yox olmasına gətirib çıxarmışdır. Təbiətin siması dəyişdikcə heyvanların həyat şəraiti pisləşir. İnsanlar nəsli kəsilməkdə olan heyvanları xilas etmək üçün qoruqlar yaradır. Lakin təbiəti xilas etmək üçün yalnız qoruqların yaradılması kifayət etməz. Hər bir insan heyvanlara qarşı qayğıkeş olmalıdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 85-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Azərbaycanın «Qırmızı kitab»ında olan 1 heyvan haqqında məlumat toplayın.

| **Heyvanın adı** | **Harada yaşayır** | **Hansı zonada** | **Təsvir: zahiri görünüşü, qida və s.** | **Nə üçün «Qırmızı kitab»a düşüb?** |
|---|---|---|---|---|
| | | | | |

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Azərbaycanın sadə coğrafi təsvirini verir | | | | |
| Azərbaycanın ərazisində olan qoruqları xəritədə göstərir | | | | |
| Heyvanlar aləmində baş verən dəyişikliklərdə insanın rolunu izah edir | | | | |
| Heyvanlar aləminin insan tərəfindən qorunmasının vacibliyini izah edir | | | | |

# 41. CƏMİYYƏT VƏ ELMİ-TEXNİKİ İNKİŞAF

**Məzmun xətti**

Təbiət və biz
Fərd və cəmiyyət

**Standart**

1.1.2. Təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmin rolunu izah edir;
1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir;
2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimatlar hazırlayır.

**Məqsəd**

◊ Elmi-texniki tərəqqinin cəmiyyətin inkişafında rolunu izah edir;
◊ Elmi-texniki tərəqqinin ətraf mühitə müsbət və mənfi təsirini izah edir;
◊ Təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmi kəşflərin rolunu izah edir;
◊ Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir;
◊ İnsanı ətraf mühiti qorumalı olan şəxs kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimatlar hazırlayır.

**İnteqrasiya**

A-d.: 2.2.2.; İnf.: 4.1.1.; 4.1.2.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Cədvəllərlə iş, T-sxemlər, səbəb-nəticə zəncirləri | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Lövhədə aşağıdakı şəkillərdən ibarət plakat asılır:



*Fayton – ilk avtomobil – müasir avtomobil – raket*

– Lövhədə nə görürsünüz?
– Bu şəkillər nəyə görə bu ardıcıllıqla düzülüb?
– Bu ardıcıllıq nəyi əks etdirir?

***Tədqiqat sualı:*** *Elmi-texniki tərəqqi nədir? Elmi-texniki tərəqqi bizim həyatımıza necə təsir edir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

*Tədqiqatın aparılması:* Dərsliyin 86–87-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***Kiçik qruplar üçün iş vərəqi***

Cədvəldə elmi-texniki tərəqqinin ətraf mühitə və insanlara müsbət və mənfi təsirinə aid məlumat yazın.

| Elmi-texniki tərəqqinin ətraf mühitə və insanlara müsbət təsiri | Elmi-texniki tərəqqinin ətraf mühitə və insanlara mənfi təsiri |
|---|---|
| | |

*Məlumatın mübadiləsi və müzakirəsi:*

– Biz elmi-texniki tərəqqi haqqında nə öyrəndik?

*Nəticələrin çıxarılması və ümumiləşdirmə:* Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Elmi-texniki tərəqqi cəmiyyətin inkişafına müsbət təsir edir. Amma elm və texnikanın nailiyyətlərindən istifadə etmək ətraf mühitin daha çox çirklənməsinə, texnika ilə bağlı qəza və fəlakətlərin başvermə təhlükəsinin artmasına da səbəb olur. Bu səbəbdən də ətraf mühiti çirkləndirməyən texnologiyalar yaratmaq və onlardan istifadə etmək vacib məsələlərdən biri olmalıdır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

*Yaradıcı tətbiqetmə:* Dərsliyin 87-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

*Ev tapşırığı:* «Ətraf mühiti qoruyaq» adlı plakat hazırlayın.

*Refleksiya və qiymətləndirmə:* Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

*Nəticələr üzrə qiymətləndirmə:* Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Elmi-texniki tərəqqinin cəmiyyətin inkişafında rolunu izah edir | | | | |
| Elmi-texniki tərəqqinin ətraf mühitə müsbət və mənfi təsirini izah edir | | | | |
| Təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmi kəşflərin rolunu izah edir | | | | |
| Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir | | | | |
| İnsanı ətraf mühiti qorumalı olan şəxs kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimatlar hazırlayır | | | | |

# 42. EKOLOGİYA NƏDİR?

**Məzmun xətti** Təbiət və biz

**Standart**
1.2.3. Coğrafi obyektləri xəritədə göstərir;
1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;
1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**Məqsəd**
- ◊ Canlı və cansız təbiət arasında qarşılıqlı əlaqələrin olmasını sadə şəkildə izah edir;
- ◊ Təbiətə zərər vuran süni amilləri izah edir;
- ◊ Azərbaycanın əsas ekoloji problemini izah edir;
- ◊ Yaşadığı ərazidə ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**İnteqrasiya** A-d.: 1.2.2.; Tex.: 1.3.6.; T-i.: 2.2.6.

| *Dərsin tipi* | *İş formaları* | *İş üsulları* | *Resurslar* |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, şaxələndirmə, kollaj | Dərslik, iş vərəqləri |



***Motivasiya:*** Müəllim şagirdlərin diqqətini lövhədə çəkilmiş «ağlayan Yer kürəsi» şəklinə yönəldir.

– Lövhədə nə görürsünüz? – Bu şəkli necə başa düşürsünüz? – Yer kürəsinin təbiətinə nələr mənfi təsir göstərə bilər?

***Tədqiqat sualı:*** *Ekologiya nədir? Ekologiya elminin təbiətin qorunmasında rolu nədir?*

Tədqiqat sualına dair şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 88–89-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I qrup üçün iş vərəqi***

Mətnə əsaslanaraq insanın fəaliyyəti və təbiət arasında olan əlaqələri müəyyən edin və cədvəli doldurun.

| İnsanın fəaliyyəti → | İnsanın fəaliyyəti nəticəsində cansız təbiətdə baş verən hadisələr → | İnsanın fəaliyyəti nəticəsində canlı təbiətdə baş verən hadisələr |
|---|---|---|
| Nümunə: Avtomobilin, traktorun tüstüsü | Havaya zərərli maddələrin düşməsi | Zərərli maddələrin canlı orqanizmlərə düşməsi |

***II qrup üçün iş vərəqi***

Mətnə əsaslanaraq Xəzər dənizinin indiki vəziyyətini, onun çirkləndirilməsi yollarını və qoruma yollarını qeyd edin.

| Xəzər dənizi və onun xüsusiyyətləri | Xəzər dənizinin indiki vəziyyəti | Xəzər dənizinin çirklənmə yolları və mənbələri | Xəzər dənizinin qorunması yolları |
|---|---|---|---|
| | | | |

***III qrup üçün iş vərəqi***

«Ekologiyanı qorumaq hamımızın borcudur» adlı plakat hazırlayın. (Şəkillər çəkin, məlumat yazın.)

| Ekologiyanı qorumaq hamımızın borcudur |
|---|
| |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Ekologiya haqqında nə öyrəndik?

– Azərbaycanın ekologiyasına hansı amillər mənfi təsir edir?

– Ekologiyamızı qorumaq üçün nə edə bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsanın fəaliyyəti təbiətin çirklənməsi ilə nəticələnir. Ekologiya elminin qarşısında Yer kürəsini xilas etmək kimi çətin vəzifə durur. Çox vaxt ekologiyanı orqanizmlər arasında, orqanizmlə ətraf mühit, canlı və cansız varlıqların arasında qarşılıqlı münasibətləri öyrənən elm də adlandırırlar. Təbiətdə hər şey zəncir kimi bir-biri ilə əlaqəlidir. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 89-cu səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Azərbaycanın ekologiyası» adlı kollaj (jurnallardan kəsilmiş və əllə çəkilmiş şəkilli plakat) hazırlayın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Canlı və cansız təbiət arasında qarşılıqlı əlaqələrin olmasını sadə şəkildə izah edir | | | | |
| Təbiətə zərər vuran süni amilləri izah edir | | | | |
| Azərbaycanın əsas ekoloji problemini izah edir | | | | |
| Yaşadığı ərazidə ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir | | | | |

# 43. ARAL GÖLÜNÜN HARAYI

| | |
|---|---|
| **Məzmun xətti** | Təbiət və biz |
| **Standart** | 1.2.3.Coğrafi obyektləri xəritədə göstərir;<br>1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri sadə şəkildə izah edir;<br>1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir. |
| **Məqsəd** | ◊ İnsanın fəaliyyəti və Aral gölünün quruması arasında əlaqələri qurur;<br>◊ Aral gölünün xilas edilməsinə aid kiçik təqdimatlar edir. |
| **İnteqrasiya** | A-d.: 1.2.2.; İnf.: 1.2.2.; T-i.: 2.2.6. |

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, səbəb-nəticə sxemi, Venn diaqramı | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim şagirdlərin diqqətini lövhədə olan şəkillərə cəlb edir:





– Lövhədə nə görürsünüz?
– Bu sxemi necə başa düşürsünüz?
– Göl nə üçün balacalaşıb?

***Tədqiqat sualı:*** *Aral gölü nə üçün quruyub?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 90–91-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

«Aral gölünün harayı» mətninə əsaslanaraq cədvəli doldurun. İnsanın pambıq tarlalarını suvarması arzusu təbiət üçün nə ilə nəticələndi?

| İnsanın fəaliyyəti | İnsanın fəaliyyəti nəticəsində cansız təbiətdə baş verən hadisələr | İnsanın fəaliyyəti nəticəsində canlı təbiətdə baş verən hadisələr |
|---|---|---|
| | | |

***III və IV qruplar üçün iş vərəqi***

İnsan Aral gölünə necə təsir etdi? Aral gölünün quruması insanların həyatına necə təsir etdi?




***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Aral gölü haqqında nə öyrəndik?

– Aralın quruması ətraf mühitə necə təsir etdi?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. İnsan öz yaşayışını yaxşılaşdırmaq məqsədilə Aral gölünə tökülən iki böyük çayın – Amudərya və Sırdərya çaylarının yolunu kəsdi. Bunun nəticəsində Aral gölü tədricən qurudu. Aralın quruması həm insanın həyatında, həm də ətraf mühitdə mənfi dəyişikliklərə gətirib çıxartdı. Aral gölünün quruması və onun nəticələri təbiətə düzgün və qayğı ilə yanaşmağın vacib olduğunu bir daha sübut etdi. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 91-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Uşaq jurnalı üçün «Aral gölünün fəlakəti» ilə bağlı məqalə yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| İnsanın fəaliyyəti və Aral gölünün quruması arasında əlaqələri qurur | | | | |
| Aral gölünün xilas edilməsinə aid kiçik təqdimatlar edir | | | | |

# 44. OZON QATI

**Məzmun xətti**
Təbiət və biz
Fərd və cəmiyyət

**Standart**
1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir;
2.3.3. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını sadə formada izah edir.

**Məqsəd**
◊ Ozon qatının təbiətdə rolunu izah edir;
◊ Ozon qatının dağılmasının səbəblərini və nəticələrini izah edir;
◊ Ozon təbəqəsinin qorunması ilə bağlı təqdimatlar edir;
◊ Azərbaycan dövlətinin ozon təbəqəsinin qorunması üçün fəaliyyətini izah edir.

**İnteqrasiya**
A-d.: 1.2.2.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, problemli vəziyyətin təhlili, cədvəllərlə iş | Dərslik, iş vərəqləri |

***Motivasiya:***
Müəllim şagirdlərin diqqətini lövhədə çəkilmiş şəklə yönəldir:



– Lövhədə nə görürsünüz?
– Bu şəkli necə başa düşürsünüz?
– Nədən və nə üçün Yer kürəsi mühafizə olunur?
– Yer kürəsini çətir kimi qoruyan nə ola bilər?

Yer kürəsini Günəşin mənfi təsirindən qoruyan ozon təbəqəsi var.

***Tədqiqat sualı:*** *Ozon təbəqəsi nədir? Ozon təbəqəsinin təbiətdə nə rolu var?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 92–93-cü səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***Bütün qruplar üçün iş vərəqi***
«Ozon təbəqəsi» mətninə əsaslanaraq cədvəli doldurun.

| Ozon qatına təsir edən amillər | Ozon qatını qorumaq üçün həyata keçirilən addımlar |
|---|---|
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Ozon təbəqəsi haqqında nə öyrəndik?
– Ozon təbəqəsinin təbiət üçün əhəmiyyəti nədir?
– Azərbaycan ozon təbəqəsini qorumaq üçün hansı tədbirləri həyata keçirir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Ozon qatı atmosferdə olan qoruyucu qaz təbəqəsidir. Əgər ozon təbəqəsi yox olarsa, yer üzərindəki canlılar məhv ola bilər. Bu səbəbdən də ozon qatının dağılmasının qarşısını almaq üçün bütün insanlar birgə fəaliyyət göstərməlidirlər. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 93-cü səhifəsindəki 6-cı tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Əgər sehrbaz olsaydınız, ozon təbəqəsini qorumaq üçün Yer kürəsində hansı sehrlər edərdiniz? Öz fikirlərinizi yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Ozon qatının təbiətdə rolunu izah edir | | | | |
| Ozon qatının dağılmasının səbəblərini və nəticələrini izah edir | | | | |
| Ozon təbəqəsinin qorunması ilə bağlı təqdimatlar edir | | | | |
| Azərbaycan dövlətinin ozon təbəqəsinin qorunması üçün fəaliyyətini izah edir | | | | |

# 45. SƏHRALAŞMA NƏDİR?

**Məzmun xətti** Təbiət və biz

**Standart**
1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir;
1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**Məqsəd**
◊ Yerin təbii zonalarını sadə şəkildə təsvir edir;
◊ Səhralaşmanın səbəblərini izah edir;
◊ Səhralaşmanın iqlimə və insanın həyatına təsirini izah edir;
◊ Səhralaşmanın qarşısının alınmasına dair kiçik təqdimatlar edir.

**İnteqrasiya** A-d.: 1.2.2.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
| --- | --- | --- | --- |
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Assosiasiyalar üsulu, beyin həmləsi, cədvəllərlə iş, səbəb-nəticə sxemi | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** «Səhra» sözü yadınıza nəyi salır?
Müəllim lövhədə şagirdlərlə birlikdə şaxələndirməni qurur.
***Tədqiqat sualı:*** *Səhralaşma nədir, onun səbəbləri hansılardır?*
Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.
***Tədqiqatın aparılması:*** Dərsliyin 94–95-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***Qruplar üçün iş vərəqi***
Səhralaşmanın səbəblərini müəyyən edin. Səhra zonasının xüsusiyyətlərini qeyd edin.

| Səhralaşmanın səbəbləri | Səhra zonasının xüsusiyyətləri |
| --- | --- |
| | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***
– Səhralaşma haqqında nə öyrəndik?
– Nə üçün səhralaşmanın qarşısını almaq bütün ölkələrin mühüm məsələlərindən biridir?

– Səhralaşmanın qarşısını almaq üçün hansı tədbirlər həyata keçirilir?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Səhralaşma Yer kürəsinin təbiətində yaranan ekoloji problemlərdən biridir. Bütün dünyada olduğu kimi, ölkəmizdə də bu problemin qarşısını almaq üçün mühüm işlər aparılır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 95-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Səhranın şəklini çəkin və təsvirini sözlə yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Yerin təbii zonalarını sadə şəkildə təsvir edir | | | | |
| Səhralaşmanın səbəblərini izah edir | | | | |
| Səhralaşmanın iqlimə və insanın həyatına təsirini izah edir | | | | |
| Səhralaşmanın qarşısının alınmasına dair kiçik təqdimatlar edir | | | | |

# 46. YAŞIL İQTİSADİYYAT

**Məzmun xətti** Təbiət və biz

**Standart** 1.1.3. «İşıq», «səs» və «enerji» anlayışlarını sadə şəkildə izah edir.

**Məqsəd**
- ◊ «İşıq», «səs» və «enerji» anlayışlarını sadə şəkildə izah edir;
- ◊ Yaşıl iqtisadiyyat anlayışını izah edir;
- ◊ Yaşıl iqtisadiyyatın təbii sərvətlərin qorunmasında rolunu izah edir.

**İnteqrasiya** Riy.: 2.3.3.; 5.2.2.; T-i.:2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Beyin həmləsi, cədvəllərlə iş, proqnozlaşdırma | Dərslik, iş vərəqləri Təchizat: maqnitofon, təbiətin səsləri yazılmış kaset |

***Motivasiya:*** Müəllim meşə, su, quşların səsini əks etdirən audiodisk qoyur.
– Siz nə eşidirsiz?
– Nə üçün onları tükənən təbii sərvət adlandırırlar?
– Bu sərvətin tükənməməsi üçün insan nə edə bilər?

***Tədqiqat sualı:*** *Yaşıl iqtisadiyyat nədir? Yaşıl iqtisadiyyatın təbiətin qorunmasında hansı rolu var?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 96–97-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Yaşıl iqtisadiyyata dair simvollar çəkin. Onları şərh edin.

***III və IV qruplar üçün iş vərəqi***

Cədvəldə tükənən və tükənməyən təbii sərvətlərin adını və onlardan istifadə qaydasını yazın.

| Tükənən təbii sərvət | Tükənən təbii sərvətdən istifadə | Onu əvəz edə bilən tükənməyən təbii sərvət | Tükənməyən təbii sərvətdən istifadə |
|---|---|---|---|
| | | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– Yaşıl iqtisadiyyat haqqında nə öyrəndik?

– Yaşıl iqtisadiyyatın sayəsində biz nə əldə edə bilərik?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Yaşıl iqtisadiyyat müəssisələrin, nəqliyyatın, məişətin enerjiyə olan ehtiyacını tükənməyən və təbiəti tullantılarla korlamayan mənbələr hesabına ödəməyi nəzərdə tutur. Külək, günəş, dalğaların gücü və s. tükənməyən təbii sərvətlərdir. Enerji əldə etmək üçün onlardan daha geniş istifadə etmək lazımdır. Bununla da təbii tükənən sərvətləri qorumuş olarıq, təbiət daha gözəl, təmiz və rəngarəng qalar. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 97-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Tükənməyən təbii sərvətlərdən istifadə və gələcək həyat» mövzusunda şəkil çəkin və qısa inşa yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| «İşıq», «səs» və «enerji» anlayışlarını sadə şəkildə izah edir | | | | |
| Yaşıl iqtisadiyyat anlayışını izah edir | | | | |
| Yaşıl iqtisadiyyatın təbii sərvətlərin qorunmasında rolunu izah edir | | | | |

# 47. MÜHARİBƏ VƏ SÜLH

***Məzmun xətti***

Fərd və cəmiyyət
Mənəviyyat

***Standart***

2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır;
3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir;
3.2.1. Nağıl, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.

***Məqsəd***

◊ Azərbaycan ədəbiyyatı qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir;
◊ Müharibələrin səbəblərini izah edir;
◊ İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır;
◊ Sülhü qorumaq üçün ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir;
◊ Sülh və müharibəyə öz münasibətini bildirir.

***İnteqrasiya***

A-d.: 1.1.1.; 1.1.2.; 2.2.2.; Riy.: 2.3.3.; 4.2.4.; İnf.: 4.1.2.; T-i.:2.2.6.

| *Dərsin tipi* | *İş formaları* | *İş üsulları* | *Resurslar* |
|---|---|---|---|
| İnduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Anlayışın çıxarılması, problemli situasiyanın təhlili, cədvəllərlə iş, konseptual cədvəl, meyar cədvəli | Dərslik, iş vərəqləri |

***Motivasiya:*** Müəllim aşağıda təqdim olunmuş motivasiya variantlarından birini seçə bilər.

***Variant 1***. Müəllim lövhədə üzərində sual işarəsi yazılmış 2 vərəq asır. Vərəqlərdən birinin arxa tərəfində – «müharibə», digərinin arxasında isə – «sülh» sözləri yazılıb. Hər vərəqin altında aşağıda qeyd olunmuş sözləri yazır.

| ? | | ? | |
|---|---|---|---|
| | Ziyan<br>Nifrət<br>Ölüm | | Xeyir<br>Məhəbbət<br>Həyat |

Dairələrin altında yazılmış sözlərə diqqət yetirin. Bu sözlər sizə sual əvəzinə lazım olan anlayışı tapmağa kömək edəcəkdir.

Bu hansı anlayışlar ola bilər? Müharibənin daha hansı əlamətləri var? Sülhün daha hansı əlamətləri var?

***Variant 2***. Müəllim lövhədə 2 şəkil asır: Lövhədə nə görürsünüz? Bu şəkilləri necə başa düşürsünüz? Onlar hansı 2 anlayışı əks etdirir?





***Tədqiqat sualı:*** *Sülhün əhəmiyyəti nədir?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 98–99-cu səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

Üzeyir Hacıbəylinin «Qanlılıq» hekayəsində Danabaş kəndinin sakinləri necə insanlar idilər? Mətnə əsaslanaraq cədvəli doldurun.

| Danabaş kəndinin sakinləri necə insanlar idilər? | Mətnə əsaslanaraq sübutlar yazın. | Kənd sakinlərinin bir-birinə münasibəti nə ilə nəticələndi? |
|---|---|---|
| | | |

***III və IV qruplar üçün iş vərəqi***

Mətnə əsaslanaraq müxtəlif dövrlərdə olan müharibələrin səbəblərini və onların nəticələrini yazın.

| Zaman | Müharibənin səbəbləri | Müharibələrin nəticələri |
|---|---|---|
| Qədim dövr | | |
| Orta əsrlər | | |
| Yeni dövr | | |
| Müasir dövr | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:*** Müharibə və sülh haqqında nə öyrəndik? İnsanlar hansı səbəblərdən bir-biri ilə müharibə aparırlar? Azərbaycanda bu cəhətdən vəziyyət necədir? Nəyə görə belə düşünürsünüz? Nə üçün zaman keçdikcə müharibələr daha çox təhlükəli olur? Sülh nə üçün lazımdır?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Müharibə xırda məsələlərdən başlanaraq böyük fəlakətlərə gətirib çıxarır. Zaman keçdikcə texnika inkişaf edir və müharibələr daha dəhşətli nəticələrə gətirir. Sülh mədəniyyətinə malik olan ölkələr hər bir münaqişəni zorakılıqla deyil, dinc yolla həll etməyə çalışır. Sülh inkişafa, ətraf mühitin mühafizəsinə, insanların təhlükəsizliyinə, hər bir insanın dinclik, əmin-amanlıq şəraitində yaşamasına geniş imkanlar açır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Dərsliyin 99-cu səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** «Sülh olsun!» mövzusunda şəkil çəkin və onu şərh edin.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| Azərbaycan ədəbiyyatı qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir | | | | |
| Müharibələrin səbəblərini izah edir | | | | |
| İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır | | | | |
| Sülhü qorumaq üçün ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir | | | | |
| Sülh və müharibəyə öz münasibətini bildirir | | | | |

# 48 BİR PİLLƏ DƏ UCALDIQ

**Məzmun xətti** Fərd və cəmiyyət

**Standart** 2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.

**Məqsəd**
- ◊ Əldə olunmuş bilikləri ümumiləşdirir;
- ◊ Əldə olunmuş biliklərdən nəticə çıxarır.

**İnteqrasiya** A-d.: 1.1.1.; 1.1.2.; 1.2.2.; İnf.: 4.1.2.; T-i.: 2.2.6.

| Dərsin tipi | İş formaları | İş üsulları | Resurslar |
|---|---|---|---|
| Deduktiv | Bütün siniflə iş, kiçik qruplarla iş | Cədvəllərlə iş, layihənin hazırlanması | Dərslik, iş vərəqləri |

**Motivasiya:**
– Nəyin əvvəli və sonu var?
– Biz indi tədris ilinin hansı mərhələsindəyik?
– Bunu necə müəyyən edə bildik?

***Tədqiqat sualı:*** *1-ci sinifdən 4-cü sinfədək «Həyat bilgisi» fənninin keçirilməsinin bizim üçün əhəmiyyəti nə oldu?*

Şagirdlərin tədqiqat sualına dair fərziyyələri lövhədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Dərsliyin 100–101-ci səhifələrindəki mətn oxunur və təhlil edilir. Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

***I və II qruplar üçün iş vərəqi***

«Həyat bilgisi» fənni üzrə cədvəldə göstərilən bölmələrə uyğun olaraq əldə olunan bilik, bacarıqlar və onların əhəmiyyəti haqqında yazın.

| Həyat bilgisinin əsas bölmələri | Bölmə üzrə ən mühüm biliklər, çıxarılmış nəticələr | Həyatda bu biliklər bizə necə kömək edə bilər? |
|---|---|---|
| Sənin təhsilin | | |
| Sənin hüququn | | |
| Sənin mənəviyyatın | | |
| Sənin sağlamlığın | | |

***III və IV qruplar üçün iş vərəqi***

«Həyat bilgisi» fənni üzrə cədvəldə göstərilən bölmələrə uyğun olaraq əldə olunan bilik, bacarıqlar və onların əhəmiyyəti haqqında yazın.

| **Həyat bilgisinin əsas bölmələri** | **Bölmə üzrə ən mühüm biliklər, çıxarılmış nəticələr** | **Həyatda bu biliklər bizə necə kömək edə bilər?** |
|---|---|---|
| Sənin rahatlığın və mühafizən | | |
| İnsan təbiəti dəyişir | | |
| Sənin mənəviyyatın | | |
| Cəmiyyətin qlobal problemləri | | |

***Məlumatın mübadiləsi və müzakirəsi:***

– «Həyat bilgisi» fənnini keçərkən biz nələrə nail olduq?
– Bu fənnin tədrisində sizin üçün ən maraqlı nə oldu?
– Bu fənni daha maraqlı etmək üçün nə təklif edə bilərsiniz?
– Bu fənnin daxilində daha nələrin öyrənilməsini istərdiniz?

***Nəticələrin çıxarılması və ümumiləşdirmə:*** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. «Həyat bilgisi» fənni həyatda vacib olan bilik, bacarıqlara yiyələnməyə kömək edir. Cəmiyyətdə yaranan situasiyalardan çıxış yollarını müəyyən etməyə, onları qiymətləndirib nəticə çıxartmağa və lazım olan praktik bacarıqlara yiyələnməyə, pozitiv olmağa kömək edir. Hər bir insanı yaradıcı bacarıqlarını üzə çıxarmağa və inkişaf etdirməyə imkan yaradır. Şagirdlərlə birlikdə nəticə çıxarılır.

***Yaradıcı tətbiqetmə:*** Şagirdlərə «Dördüncü sinifdə mən nələri öyrəndim» adlı esse yazmaq tapşırılır. Müəllim tərəfindən yoxlanılır.

***Ev tapşırığı:*** Yay tətili ərzində təbiətdə və cəmiyyətdə müşahidə etdiyiniz hadisələrlə bağlı şəkilli (əllə, fotoaparatla çəkilmiş) kitabça yaradın. Şəkillərə şərhlər yazın.

***Refleksiya və qiymətləndirmə:*** Qrup işlərini qiymətləndirmək üçün metodik vəsaitin giriş hissəsində verilən nümunələrdən istifadə edilə bilər.

***Nəticələr üzrə qiymətləndirmə:*** Müəllim aşağıdakı meyarlarla şagirdləri qiymətləndirir.

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| Əldə olunmuş bilikləri ümumiləşdirir | | | | |
| Əldə olunmuş biliklərdən nəticə çıxarır | | | | |

# DİAQNOSTİK VƏ SUMMATİV QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARININ NÜMUNƏLƏRİ

## DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ

S.A.A. ______________________________________________
Sinif ______________________________________________
Tarix: ______________________________________________

1. Təhsil hüququ nədir? ______________________________________________
______________________________________________

2. İnsana ünsiyyət nə üçün lazımdır? ______________________________________________
______________________________________________

3. Hər bir dövlətin hansı atributlarının olması vacibdir?
   a) himn, avtomobillər, mağazalar
   b) bayraq, binalar, silah
   c) gerb, bayraq, himn

4. İstehsal nədir?
   a) insanların ehtiyaclarını ödəmək üçün məhsulların hazırlanması
   b) insanların bütün ehtiyacları
   c) həyat üçün zəruri olanların alınması

5. Yaxşı vətəndaş necə olmalıdır? ______________________________________________
______________________________________________

6. «Uşaq Hüquqları Konvensiyası» haqqında nə bilirsən? ______________________________
______________________________________________

7. Səmərəli ünsiyyət qurmaq üçün nələri bilmək və nə etmək lazımdır? ________________
______________________________________________

8. İslam dini haqqında nə bilirsən? ______________________________________________
______________________________________________

9. İslam dininin müqəddəs kitabı hansıdır?
   a) Tövrat      b) Bibliya      c) Quran

10. Sağlamlığı qorumaq üçün nə etmək lazımdır? ______________________________

______________________________________________________________________

11. Sağlamlığa nələr mənfi təsir edə bilər? ________________________________

______________________________________________________________________

12. Təbiət bizə nə verir? ____________________________________________

______________________________________________________________________

13. Biz təbiəti nə üçün qorumalıyıq? ___________________________________

______________________________________________________________________

14. Hansı təbii ehtiyatları tanıyırsan? __________________________________

______________________________________________________________________

15. Ekologiya nədir? _______________________________________________

______________________________________________________________________

## SƏNİN TƏHSİLİN BÖLMƏSİ ÜZRƏ KSQ

S.A.A. ________________________________________________________

Sinif _________________________________________________________

Tarix: ________________________________________________________

1. Kütləvi kitabxana nədir?
   a) elmi tədris və ya müəyyən ixtisaslı mütəxəssislər üçün nəzərdə tutulur
   b) bu kitabxanadan hər kəs istifadə edə bilir
   c) bu kitabxanaya kütlə ilə gəlirlər

2. Qədim dövrlərdə insanlar bir-birinə məlumat ötürmək üçün nədən istifadə edirdilər. Düzgün olan sıranı seç.
   a) gil lövhə, papirus, perqament
   b) perqament, kağız, gil lövhə
   c) papirus, İnternet, perqament

3. Biri kitabxanada olan qaydalara aid deyil:
   a) kitabı kitabxanaçıya sifariş vermək lazımdır
   b) kitabxanada lazım olan kitabı tapmaq üçün, onun adını və müəllifini bilmək lazımdır
   c) kitabxanadan kitabları istifadə etmək üçün tibbi arayış təqdim olunmalıdır

4. Azərbaycan Respublikasında ümumi təhsil hansı mərhələlərdən ibarətdir?
   a) İbtidai təhsil (1–3), orta təhsil (4–11)
   b) İbtidai təhsil (1–4), natamam orta təhsil (5–9), tam orta təhsil (10–11)
   c) İbtidai təhsil (1–4), tam orta təhsil (5–8), ixtisas üzrə təhsil (9–11)

5. Azərbaycanda əvvəllər yalnız kimlər təhsil ala bilərdi?
   a) təhsil haqqını ödəyə bilən ailələrin uşaqları
   b) məktəbli forması olan uşaqlar
   c) məktəblər hamı üçün idi

6. Şagirdlərin vəzifələrinə aid olan cavabları seç.
   1. məlum olmayanı öyrənmək üçün suallar vermək
   2. bütün dərsi sakit oturmaq
   3. verilən tapşırıqları yerinə yetirmək
   4. digər şagirdləri səhvlərə görə tənqid etmək
   5. hər gün yeniliklər öyrənməyə çalışmaq
   a) 1, 2, 4, b) 2, 3, 5 c) 1, 3, 5

7. Hansı səbəblərə görə kağızdan hazırlanmış kitablar gil lövhələr, papirus və perqamentdən hazırlanmış kitablardan daha geniş yayılmışdır?
   a) kağızda yazmaq daha əlverişlidir
   b) perqament, papirus, gil lövhələrdə yazılmış kitablar çox böyük olur, çox yer tutur, bahalıdır
   c) bütün cavablar düzdür

8. Azərbaycan Respublikasının Konstitusiyasında təhsil hüququ necə öz əksini tapıb?

______________________________________________

______________________________________________

______________________________________________

9. İnsanın formalaşmasında təhsilin rolu nədir?
   a) hər bir insanın bacarıq və qabiliyyətlərini aşkar edib inkişaf etdirir
   b) təhsil insana məktəbi bitirməsi haqqında sənəd verir
   c) insanın formalaşmasında təhsil bir o qədər də rol oynamır

10. Müasir dünyada hər bir ölkənin gələcəyi nədən asılıdır?
   a) neftin qiymətindən
   b) ölkədəki təhsilin səviyyəsindən
   c) ölkədəki təbii sərvətlərdən

***I bölmə üzrə (KSQ) sualların düzgün cavabları:***

1. b) 2. a) 3. c) 4. b) 5. a) 6. c) 7. c) 8. Azərbaycan Respublikasında vətəndaşların milli və dini mənsubiyyətindən, dilindən, səhhətindən asılı olmayaraq, təhsil almaq hüququ var 9. a) 10. b)

## SƏNİN HÜQUQLARIN BÖLMƏSİ ÜZRƏ KSQ

S.A.A. ______________________________
Sinif ______________________________
Tarix: ______________________________

1. Cəmiyyətdə başçı rolunu kim yerinə yetirir?
   a) baş general b) dövlət başçısı c) ata

2. İnsan avtomobilini qəza zamanı əzilməkdən sığorta edir. Burada hansı növ sığorta əks olunub?
   a) tibbi sığorta b) səyahət sığortası c) avtomobil sığortası

3. Monarxiyaya aid olmayanı seç.
   a) ali hakimiyyət xalqın iradəsindən asılı olmayaraq, dövlət başçısının əlində cəmləşmişdir
   b) monarxları xalq seçir
   c) dövləti idarəetmə fomalarından biridir

4. Dövlət büdcəsinə gəlir gətirən mənbələr:
   a) ölkədə fəaliyyət göstərən müəssisələrin və işləyən adi vətəndaşların dövlətə verdikləri vergilər
   b) xaricdə işləyən vətəndaşların maaşı
   c) dövlət orqanlarında işləyənlərin maaşı

5. Gəlir az olanda ailə başçısı ailə büdcəsindən necə istifadə etməlidir?
   a) heç nə almamalıdır
   b) adi qaydada, həmişəki kimi istifadə edib, sonra borc almalıdır
   c) daha çox qənaətcil olmağa çalışmalıdır

6. «İstehlakçı» sözünün mənası nədir?
   a) cəmiyyət üzvlərinin ehtiyaclarını ödəmək üçün məhsullar hazırlayan şəxs
   b) məhsulu satan şəxs
   c) məhsulları alıb istifadə edən şəxs

7. Sığorta nə üçün vacibdir?
   a) insanlar tərəfindən keyfiyyətli məhsullar əldə etmək üçün
   b) insanlara əmək haqqı vermək üçün
   c) insanların arxayın yaşaması üçün

8. Azərbaycan dövləti konvensiyada göstərilən öhdəlikləri yerinə yetirmək üçün nə etdi?
   a) «Uşaq Hüquqları haqqında» Qanun qəbul etdi
   b) Uşaqlar üçün bayram keçirdi
   c) Valideynləri məlumatlandırdı

9. İstehlakçı hüququnun istehlakçı üçün faydası nədir?
   a) bu hüquq istehsal olunmuş məhsulu əlverişli qiymətə satmağa imkan verir
   b) hər bir insanın yaşamaq, sağlamlığını qorumaq və normal fəaliyyət göstərmək hüququ var
   c) bu hüquq istehlakçının sağlamlığını ona ziyan gətirən mallardan qoruyur

10. Nəyə görə BMT «Uşaq Hüquqları Konvensiyası» adlı sənədi qəbul etmişdir?
   a) çünki bir çox ölkələrdə uşaqlar aclıq çəkir, təhsildən kənarda qalırlar
   b) valideynlərin vəziyyətini yaxşılaşdırmaq üçün
   c) dövlət valideynləri valideynlik hüququndan məhrum edə bilsin deyə

***II bölmə üzrə (KSQ) sualların düzgün cavabları:***
1. b) 2. c) 3. b) 4. a) 5. c) 6. c) 7. c) 8. a) 9. c) 10. a)

## SƏNİN MƏNƏVİYYATIN BÖLMƏSİ ÜZRƏ KSQ

S.A.A. ____________________________________________

Sinif ____________________________________________

Tarix: ____________________________________________

1. Özünə aid olmayan heç nəyi qorumayan insan:
   a) eqoistdir    b) tənbəldir    c) qorxaqdır

2. Nəqliyyatda təsadüfən kimisə itələdikdə nə etmək lazımdır?
   a) düzgün yerdə dayanmadığına görə onu günahlandırmaq
   b) üzr istəmək
   c) heç nə baş verməmiş kimi davranmaq

3. Vəzifə yüksəldikdə, məsuliyyət:
   a) azalır    b) çoxalır    c) dəyişilmir

4. Yeni doğulmuş uşağı cəmiyyətdən ayrı tutsalar, o, necə böyüyəcək?
   a) çox təmiz, tərbiyəli insan olacaq
   b) etiket qaydalarına riayət edə bilməyəcək
   c) eqoist olacaq

5. Ədəblə danışan insana ətrafdakılar necə yanaşırlar?
   a) hörmətlə    b) laqeyd    c) ehtiyatla

6. Hansı sətirdə qarşılıqlı anlaşma təsvir edilmişdir?
   a) Ana qızının gələcəyini düşünərək onu musiqi məktəbinə yazdırmışdı. Skripkanı sevməyən qız hər gün məşq edirdi.
   b) Ata işdən yorğun gəlmişdi . Oğlu təkid edirdi ki, atası onu bayram şənliyinə aparsın. Ata oğlunu şənliyə aparmalı oldu.
   c) Anar topla oynayanda təsadüfən ananın gül dibçəyini sındırdı. Anar anadan üzr istəyib dibçəyi yapışdırdı. Ana onu bağışladı.

7. «Fəda» sözünün mənası ərəb dilində nədir?

_______________________________________________

8. «Heç bir əvəz gözləmədən dostuna hər hansı bir işdə kömək etmək» – cümlədə hansı keyfiyyət əks olunub?
a) fədakarlıq b) cavabdehlik c) təmənnasızlıq

9. Cəlil Məmmədquluzadənin 1906-cı ildən nəşr etdiyi «Molla Nəsrəddin» jurnalının məqsədi nə idi?
a) insanları həyatda olan problemlərdən uzaqlaşdırmaq
b) İslam dininin dəyərlərini aşılamaq
c) müsəlmanlar arasında mövhumata, cəhalətə və fanatizmə qarşı mübarizə

10. Hansı nümunədə mövhumatçılıq əks olunub?
a) qara pişiyi digər pişiklərdən fərqləndirmədən yedizdirmək
b) fala baxmaq
c) namaz qıldıqda Məkkə tərəfə dua etmək

***III bölmə üzrə (KSQ) sualların düzgün cavabları:***
1. a) 2. b) 3. b) 4. b) 5. a) 6. c) 7. qurban 8. c) 9. c) 10. b)

## BİRİNCİ YARIMİL ÜÇÜN BSQ

S.A.A. _______________________________________________
Sinif _______________________________________________
Tarix: _______________________________________________

1. «Məsuliyyət» sözünün sinonimi nədir?

_______________________________________________

2. 25 yaşında olan insanın Azərbaycan Respublikasının vətəndaşı olmasını onun hansı sənədi təsdiq edir?
a) şəhadətnamə b) şəxsiyyət vəsiqəsi c) tibbi arayış

3. Hansı dövlət orqanı işləmək qabiliyyəti olmayanların yaşaya bilməsi üçün şərait yaradır?
a) Səhiyyə Nazirliyi
b) Respublika Sosial Müdafiə Fondu
c) Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi

4. Daxili İşlər Nazirliyinin əsas funksiyası hansıdır?
a) qocalara, əlillərə, çoxuşaqlı ailələrə maddi yardım göstərmək
b) heyvanlar aləmini, atmosferi, təbii sərvətləri nəzarətdə saxlamaq
c) qanunların və insanların hüquqlarının pozulmasının qarşısını almaq

5. Dövlət büdcəsi nədir?
a) müəyyən dövr üçün gəlir və xərcləri əks etdirən maliyyə sənədidir
b) ölkədə fəaliyyət göstərən müəssisələrin və adi işləyən vətəndaşların verdiyi vergilər
c) xalqın tələbatlarını həyata keçirmək üçün xərclər

6. Ədəb-ərkan qaydalarına riayət edən insan ilkin olaraq kimə hörmətlə yanaşır?
______________________________

7. İslam dininin hansı böyük şəxsiyyətlərini tanıyırsan?
______________________________

8. Nə üçün İslam dini mövhumat ilə mübarizə aparır?
a) mövhumat müsəlmanların inkişafına mane olur
b) mövhumat müsəlmanların arasında mübahisələrə səbəb olur
c) mövhumat dini sadələşdirir

9. Orta məktəbi bitirdikdən sonra insanlar təhsilini harada davam etdirə bilərlər?
______________________________

10. Ətrafdakılarla səmərəli ünsiyyət qurmaq üçün nələrə riayət etmək lazımdır?
______________________________

***I BSQ üçün sualların düzgün cavabları:***
1. cavabdehlik 2. b) 3. b) 4. c) 5. a) 6. özünə 7. Ramazan ayında 8. a) 9. orta ixtisas təhsilli məktəbdə, ali məktəbdə 10. ədəb-ərkan qaydalarına

## SƏNİN SAĞLAMLIĞIN BÖLMƏSİ ÜZRƏ KSQ

S.A.A. ______________________________
Sinif ______________________________
Tarix: ______________________________

1. Qrip yayıldıqda insanı nə qoruya bilər?
a) çox insan olan qapalı otaqda olmaq
b) əlləri sabunla yumaq
c) maska taxmaq

2. Hansı hərəkət onurğa sütununa mənfi təsir edir?
a) ağır yükü qaldırdıqda dizləri əymək
b) uzun müddət dayanmalı olduqda hər 10 dəqiqədən bir bədənin vəziyyətini dəyişdirmək
c) stulda əyri oturmaq

3. Tibbi sığorta nəyə xidmət edir?
   a) vətəndaşların sağlamlığının qorunması hüququna
   b) özəl səhiyyə müəssisələrinin fəaliyyətinə
   c) Azərbaycan Respublikasına

4. Bədənə dəmir nə üçün lazımdır?
   a) dəmir hemoqlobini artırır
   b) dəmir mikrobları öldürür
   c) insanın bədənini dəmir kimi bərk edir

5. Qoturluq xəstəliyindən insanı qorumur:
   a) xəstə insanla əl-ələ görüşməmək
   b) maska taxmaq
   c) xəstələnmiş insana toxunmamaq

6. Yoluxucu xəstəlikdən müalicə olunduqdan sonra əsəbi, emosional gərginlik hallarının keçirilməsi nəyə gətirib çıxara bilər?
   a) immunitetin möhkəmlənməsinə
   b) xəstəliyin yenidən qayıtmasına
   c) heç cür təsir göstərməz

7. Təbii immunitetin möhkəmləndirmə yollarına aid olmayanı seç.
   a) vitaminlərlə zəngin qidalar qəbul etmək
   b) idman etmək
   c) xəstəliyə qarşı peyvənd etmək

8. Əgər bu gün 24.05.2012 tarixidirsə, üzərində hansı tarix yazılmış südü ala bilərsiniz?
   a) son istifadə tarixi 22.05.2012
   b) son istifadə tarixi 28.07.2011
   c) son istifadə tarixi 26.05.2012

9. Əgər ayaq burxulub şişmişsə:
   a) dəsmalı soyuq su ilə isladıb zədələnmiş yerə qoymaq və həkimə müraciət etmək lazımdır
   b) zədələnmiş yerə yodda isladılmış steril pambığın üstündən sarğı qoymaq lazımdır
   c) zərərçəkəni sərin yerə aparmaq, su içirtmək, başına yaş dəsmal qoymaq lazımdır

10. Hansı qida insan üçün təhlükəli ola bilər?

______________________________________________

______________________________________________

***IV bölmə üzrə (KSQ) sualların düzgün cavabları:***

1. c) 2. c) 3. a) 4. a) 5. b) 6. b) 7. c) 8. c) 9. a) 10. gigiyena qaydalarına riayət edilmədən hazırlanmış, vaxtı ötmüş, düzgün saxlanılmamış qida

## SƏNİN RAHATLIĞIN VƏ TƏHLÜKƏSİZLİYİN BÖLMƏSİ ÜZRƏ KSQ

S.A.A. ______________________________
Sinif ______________________________
Tarix: ______________________________

1. Biri mobil telefondan istifadə etmənin qaydalarını əks etdirmir:
   a) yatarkən mobil telefonu yastığın altına qoymaq lazımdır
   b) telefon elektrik şəbəkəsinə qoşulu olanda ondan istifadə etmək olmaz
   c) yatmazdan əvvəl mobil telefonla danışmaq insanın yuxusunu qaçırır

2. Nə üçün uşaqlar mobil telefondan istifadə etməməlidirlər?
   a) çox enerji xərclənir
   b) uşaqların sinir sisteminə mənfi təsir göstərir
   c) uşaqlarda qorxu hissi çoxalır

3. Kompüterdən istifadəetmə qaydalarına uyğun olmayan fikri seç.
   a) monitor gözdən 20–30 sm məsafədə olmalıdır
   b) yazarkən klaviatura düymələrinə yavaş toxunmaq
   c) uzun müddət eyni mövqedə oturmaq olmaz

4. Biri yanğın və ya elektrikvurma ilə nəticələnə bilməz:
   a) rozetkadan cızıltı səsinin gəlməsi
   b) elektrik cihazından və ya şnurdan yanıq iyinin gəlməsi
   c) çaydanda su qaynadıqdan sonra çaydanın avtomatik sönməsi

5. Qəza-təmir xidmətinə hansı nömrəli telefona zəng etmək lazımdır?
   a) 104 b) 101 c) 102

6. Nə vaxt qəza-təmir xidmətinə zəng etmək lazımdır?
   a) hava soyuq olanda b) otaqda qaz iyi hiss etdikdə c) evdə kimsə qriplə xəstələndikdə

7. Hansı qayda piyadaya aid deyil:
   a) yolun hərəkət hissəsində zərurət olmadan ləngiməməli və dayanmamalıdır
   b) yalnız nəqliyyat vasitəsi dayandıqdan sonra minmək və düşmək olar
   c) səki ilə, piyada zolağı ilə hərəkət etməlidir

8. Fövqəladə Hallar Nazirliyinin funksiyasını əks etdirən fikri seç.
   a) vətəndaşların sağlamlığına nəzarət edir
   b) fövqəladə halları yayır
   c) fövqəladə hallarda vətəndaşların davranış qaydalarını müəyyən edir

9. 1986-cı ildə Ukraynanın Çernobıl şəhərində hansı fövqəladə hal baş vermişdir?
   a) atom elektrik stansiyasında qəza və ətrafa radioaktiv maddələr yayıldı
   b) kimyəvi zavodda partlayış oldu və havaya xlor yayıldı
   c) müharibə nəticəsində düşmən havaya ammonyak yaydı

10. Atmosferə xlor qazının yayıldığı halda hansı davranış qaydalarına riayət etmək lazımdır?
   a) kondisionerin köməyi ilə otaqda havanı təmizləmək
   b) tez-tez havaya su səpmək
   c) təcili açıq havaya çıxmaq

***V bölmə üzrə (KSQ) sualların düzgün cavabları.***
1.a) 2.b) 3.a) 4.c) 5.a) 6. b) 7. b) 8. c) 9.a) 10. b)

## İNSAN TƏBİƏTİ DƏYİŞİR BÖLMƏSİ ÜZRƏ KSQ

S.A.A. ______________________________________________
Sinif ______________________________________________
Tarix: ____________________________________________

1. Təbii zona nədir?
   a) müəyyən bir iqlimi və bu iqlimə uyğunlaşmış heyvan və bitki aləmi olan böyük quru sahələrdir
   b) Yer kürəsinin ətrafında olan hava qatlarıdır
   c) təbiətin yaratdığı gözəllikdir

2. Yer səthinin nə qədər hissəsini quru tutur?
   a) 2/3 b) 1/3 c) 1/4

3. Səhv olan fikri tap.
   a) suyu az buxarlandırdığı üçün iynəyarpaqlı ağaclar cənub meşələrində üstünlük təşkil edir
   b) iynəyarpaqlı ağaclar suyu az buxarlandırdığı üçün kəskin soyuğa dözürlər
   c) səhralarda kaktus bitkiləri yarpaqlarını tikanlarla əvəz etmişlər

4. Meşələrin canlılara xeyri nədir?
   a) təbii zonalar arasında sərhəd rolunu oynayır
   b) Yer kürəsini gözəlləşdirir
   c) havanı oksigenlə zənginləşdirir

5. İpək yolunun bərpası nə ilə nəticələndi?
   a) bu yoldan istifadə edən ölkələr arasında ticarət artdı
   b) Azərbaycanın iqtisadiyyatının inkişafı ləngidi
   c) bu yoldan istifadə edən ölkələr arasında mübahisələr çoxaldı

6. Nə üçün Hirkan meşəsi Azərbaycanın qiymətli sərvətlərindən biri sayılır?
   a) burada bütün dünyada nadir olan ağaclar var
   b) burada ağaclar çoxlu bar verir
   c) Hirkan meşəsinin ağaclarından olan odun evləri yaxşı isidir

7. Xəzər dənizindən neftin çıxarılması heyvanlar aləmi üçün nə ilə nəticələndi?
   a) Xəzər dənizinin heyvanları neft tullantıları ilə qidalanmağa öyrəşdi və dənizin heyvan aləmi zənginləşdi
   b) su canlılarının, xüsusilə də nərə balıqlarının sayı azaldı
   c) Xəzər dənizində səkkizayaqlı ilbislərin sayı çoxaldı

8. Qızılağac qoruğu dünyada nə ilə tanınır?
   a) Dağıstan dağkəli, maral, cüyür, qaban, boz ayı, meşə pişiyi, sincab və sair heyvanların qorunması ilə
   b) canavarların məskunlaşması ilə
   c) suətrafı və suda üzən quşların məskunlaşması ilə

9. Hansı cavabda yüksək inkişaf etmiş ölkədən söhbət gedir?
   a) məhsulun istehsalı üçün işlədilən xammalın xeyli hissəsi itkiyə gedir
   b) fabrik-zavodların tullantılarından insanların istifadəsi üçün yararlı məhsullar emal edən xüsusi zavodlar tikilir və istifadə edilir
   c) istehsal tullantıları çay və dənizləri, zavod və fabriklərin tüstüsü isə havanı çirkləndirir

10. Müasir dövrdə elmi-texniki tərəqqi nələr üçün geniş imkanlar açır?
   a) təbiətə yaxın olmağa imkan yaradır
   b) insanların fiziki inkişafını artırır
   c) iqtisadi inkişafı, məhsuldarlığı artırır

***VI bölmə üzrə (KSQ) sualların düzgün cavabları.***
1.a) 2. b) 3. a) 4. c) 5. a) 6. a) 7. b) 8. c) 9. b) 10. c)

## CƏMİYYƏTİN QLOBAL PROBLEMLƏRİ BÖLMƏSİ ÜZRƏ KSQ

S.A.A. ____________________________________________
Sinif ____________________________________________
Tarix: ___________________________________________

1. Nə üçün 1992-ci ildə Volqa hövzəsi və Xəzərin sahil zonası «ekoloji fəlakət zonası» adlandırılmışdı?
   a) suyun həddən artıq çirklənməsi dənizdə olan balıq və digər canlıların məhvinə gətirib çıxarır
   b) Xəzər dənizində su azalır
   c) insanlar üçün təhlükəli balıq növləri yaranır və onların sayı çoxalır

2. Biri sülh dəyərlərini əks etdirir?
   a) güclü həmişə haqlıdır
   b) hər bir münaqişəni zorakılıqla yox, dinc yolla həll etməyə çalışmaq lazımdır
   c) güc toplayıb, gözlənilmədən hücum edib düşmənə qalib gəlmək

3. Aral gölünə aid deyil:
   a) onu «çölün mavi gözü» adlandırırdılar
   b) insanlar 4 çayın yolunu kəsdiyinə görə Aral gölü duzlaşır
   c) aylarla davam edən güclü küləklər duzlu qumları ətrafa yayır

4. Ozon qatının dağılmasının səbəbi nədir?
   a) insanların təsərrüfat fəaliyyəti nəticəsində atmosferə ozon təbəqəsini dağıdan qazlar yayılır
   b) Yer kürəsində insanların sayının çoxalması
   c) insanlar tərəfindən göydələnlərin tikilməsi

5. Səhralaşmanın səbəblərinə aid deyil:
a) əkin sahələrinə kimyəvi gübrələrin verilməsi
b) faydalı qazıntıların çıxarılması
c) ağacların əkilməsi

6. Hansı nümunədə yaşıl iqtisadiyyat tətbiq olunur?
a) evlərin odunla isidilməsi
b) külək elektrik stansiyalarının yaradılması
c) maşınların benzinlə işləməsi

7. Yaşıl iqtisadiyyat hansı problemi həll etmək üçün yaradılıb?
a) ətrafda bitkilərin əkilməsi
b) enerji verən tükənən ehtiyatları qorumaq
c) kənd təsərrüfatının məhsulunun çoxalması

8. Orta əsrlərdə ölkələr arasında müharibələr hansı səbəbə görə daha çox baş verirdi?
a) dünyanı bölüşdürmək istəyirdilər
b) ov məkanı üstündə dava edir, bir-birini öldürürdülər
c) bir-birinin payına göz dikməyə başladılar

9. Düzgün ardıcıllığı müəyyən et.
1. «Qlobal istiləşmə»
2. Ozon qatının dağılması
3. Yer kürəsində iqlimin dəyişməsi: ortaillik temperaturun artması

a) 1, 3, 2 b) 2, 1, 3 c) 2, 3, 1

10. Hansı sıralarda yalnız səhraya xas olanlar sadalanıb?
1. Azərbaycanda səhralaşan ərazilər yoxdur
2. Səhraya çox az yağıntı düşür
3. Səhraların əraziləri getdikcə böyüyür
4. Səhrada küləklər əsmir
5. Səhralaşmanın səbəblərindən biri mal-qaranın sürətlə artmasıdır
a) 2, 4, 5 b) 1, 2, 3 c) 2, 3, 5

***VII bölmə (KSQ)üzrə sualların düzgün cavabları.***
1. a) 2. b) 3. b) 4. a) 5. c) 6. b) 7. b) 8. a) 9.c) 10. c)

## İKİNCİ YARIMİL ÜÇÜN BSQ

S.A.A. ____________________________________________
Sinif ____________________________________________
Tarix: ___________________________________________

1. Viruslu hepatit hansı orqanı zədələyir?
a) qaraciyəri b) ağciyəri c) ödkisəsini

2. Hansı vəziyyət insanı xəstələndirə bilər?
   a) yorulanda dincəlmək
   b) tərli halda soyuq su içmək
   c) gün ərzində 2 litr su içmək

3. Emosiyalar insanın immunitetinə necə təsir edir? Düzgün olmayanı seç.
   a) müsbət emosiyalar insanın immunitetini gücləndirir
   b) emosiyaların immunitetlə əlaqəsi yoxdur
   c) sterslər, mənfi emosiyalar immuniteti zəiflədir

4. Hansı sətirdə sağlamlığa ziyan verməyən məhsulun xüsusiyyətləri sadalanıb?
   a) yuyulmuş pomidor, xiyarda torpaq hissəcikləri qalıb
   b) günün şüaları altında saxlanmış məhsul
   c) pomidor turşusu bankanı açdıqdan sonra yalnız 1 gün soyuducuda qalıb

5. Zədələnmiş yeri mikroblardan qorumaq üçün:
   a) zədələnmiş yerə soyuq su ilə isladılmış dəsmal qoymaq
   b) zədələnmiş yerə üfürmək
   c) yod və spirt kimi vasitələrdən istifadə etmək

6. Nə üçün təbii ehtiyatları qorumaq lazımdır?
   a) onlar çox bahadır b) onların çoxusu tükənəndir c) onlarsız təbiət gözəlliyini itirir

7. Zənginliyinə görə Azərbaycan ərazisi necə adlandırılır?
   a) «mineral sular muzeyi» b) «meşələr muzeyi» c) «içməli su anbarı»

8. Aral gölünə aiddir:
   a) neftlə çirklənib
   b) Volqa çayının suları onu qidalandırırdı
   c) onun özünəməxsus bitki və heyvanlar aləmi var idi

9. Nə üçün alimlər bitki və heyvanların yeni növlərini yetişdirirlər? Düzgün olmayanı seç.
   a) əkin sahələrinə qənaət etmək üçün
   b) daha çox məhsul götürmək üçün
   c) insanın təbiətdən üstün olmasını göstərmək üçün

10. Alimlərin yetişdirdiyi dağ merinosunun adi qoyunlardan üstünlüyü nədədir?
   a) onun südü daha dadlıdır
   b) onun südü daha çox olur
   c) nisbətən çox yun verir

***II BSQ üçün sualların düzgün cavabları.***
1. a) 2. b) 3. b) 4. c) 5. c) 6. b) 7. a) 8. c) 9. c) 10. c)

PULSUZ